Xalqın qəzeti!

# Xalq qəzeti

№ 13 (30417) 23 yanvar 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Qanlı gecədən doğulan şanlı səhər

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər





**Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

***

Otuz dörd il bundan əvvəl 20 Yanvar günü Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ümummilli lider Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ulu öndər böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

*(ardı 2-ci səhifədə)*

## Birinci vitse-prezident Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "20 yanvar 1990. Şəhidlərimizi qürur və ehtiramla anırıq!".

## USAİD–Gürcüstan qalmaqalı bitmir



### ABŞ Beynəlxalq İnkişaf Agentliyi qonşu ölkəni qarışdırmaq cəhdlərinə ara vermir

**Son zamanlar dini bayramların qeyd olunması xüsusunda Gürcüstan Pravoslav Kilsəsinə qarşı hücumlar müxalifət partiyaları, qondarma vətəndaş cəmiyyəti fəalları və Vahid Milli Hərəkat Partiyasına mənsub media orqanları tərəfindən həyata keçirilir.**

Bunu Tbilisidə keçirdiyi brifinq zamanı Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili deyib. Cənab Papuaşvilinin söylədikləri fikirlər, əslində, ötən ilin oktyabrında ölkəyə hakim kəsilmiş gündəm mövzusunun davamı kimi qiymətləndirilə bilər. Çünki parlament sədri yenə USAİD, yəni ABŞ Beynəlxalq İnkişaf Agentliyindən söz açıb. Daha doğrusu, qurumun Gürcüstanı qarışdırmaq cəhdlərindən.

*(ardı 4-cü səhifədə)*

## Ermənistan mina müharibəsini dayandırmayıb

### Ölümsaçan ərazilərin xəritələrinin ölkəmizə verilməməsi müharibə cinayətlərinin davam etdirilməsidir

**Ötən il sentyabrın 19–20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində bütün ölkə ərazisində dövlət suverenliyimiz tam bərqərar olundu. Bu qələbə Ermənistanın son 35 il ərzində törətdiyi terror-təxribat əməllərinə də son qoydu. Lakin işğalın davam etdiyi illər ərzində torpaqlarımıza yerləşdirilmiş minalar hələ də can almaqda davam edir. Əsasən mülki insanlar mina partlayışlarının qurbanına çevrilirlər. Növbəti mina partlaması halı yanvarın 21-də qeydə alınıb.**



Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, həmin gün saat 13:30-da Ağdam rayonunun işğaldan azad edilmiş ərazisində mina partlayışı barədə məlumat daxil olub. Ağcabədi rayon Kürdlər kənd sakini 1980-ci il təvəllüdlü Abışov Faiq Səyyad oğlu ayağından xəsarət alıb. Polis əməkdaşları tərəfindən vətəndaş xəstəxanaya təxliyyə edilib. Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri istintaq hərəkətləri aparılıb. Hazırda faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycana "yarımçıq AŞPA" lazım deyil!

### Erməni avantürizminə görə Azərbaycandan üz döndərməyə dəyərmi?

**Bəli, kimlərsə Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı səsini dondurmaq, məhdudlaşdırmaq qərarına gəliblər. Əsasları nədir? Görəsən, ölkəmiz nə edib ki, belə bir təşəbbüslə çıxış edənlər var? Əslində, heç nə.**



Aydındır ki, bu, "köhnə qitə"nin ermənipərəstliyindən qaynaqlanmış bir durumdur. Guya ki, Azərbaycanda insan hüquqları pozulurmuş və sair ilaxır. Əsas kimi göstərilənlər tam cəfəngiyyatdır. AŞPA-ya utanc gətirəcək cəfəngiyyat. Utancın və cəfəngiyyatın müəllifi də bəllidir – almaniyalı deputat Frank Şvabe.

Deməli, Fransa və Almaniya tandemi iş başındadır. Paris özünün ermənipərəstlik sevdası naminə Almaniyanı alətə çevirir. Tam aydındır ki, Fransa xarici siyasətindəki uğursuzluqlarını sığortalamaq üçün Almaniyanı, sanki, balaca uşaq kimi qabağa verib...

O da görünür ki, kimlərəsə Azərbaycanın dövlət suverenliyini tam bərpa etməsi, mərd hərbçi övladlarımızın ötən il sentyabrın 19–20-də keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirləri möhkəmcə yer edib. Onlar qısqanclıqlarını hansı formada nümayiş etdirmək lazım olduğunu bilmirlər. Başlarını itiriblər. Cənubi Qafqaza yeritdikləri və əsrlərlə üstündə əsdikləri erməni avantürizminin sıradan çıxmasından, sözün əsl mənasında, qeyzləniblər. O qədər hiddətləniblər ki, Avropa Şurasının təməl prinsiplərini belə pozmağa hazırdırlar.

*(ardı 5-ci səhifədə)*

## Qoymayın, üstümüzə konqresmenlər gəlir!

### ABŞ-ın "ştatlı ermənipərəstlər"i dinc durmurlar



**Yenə köhnə komanda "iş" başındadır. Söhbət ABŞ-dakı ermənipərəst komandadan gedir. Bunlar kimlərdir? Bir daha yada salaq: konqresmenlər Frank Pellone, Qus Bilirrakis, Adam Şiff və Devid Valadao. Ölkədəki erməni lobbi və diaspor təşkilatlarının, necə deyərlər, qulbeçələri olan bu şəxslər həm də ABŞ Konqresinin Ermənistan üzrə İşçi Qrupunun həmsədrləridir. Onlar bir araya gələrək bəyanat yayıblar. "Köhnələr" bəyanatlarında elə köhnə havalarda olduqlarını göstəriblər – Ermənistanın ərazisi işğal olunub, Qarabağın erməni əhalisi etnik təmizləmə ilə üzləşib və sair, ilaxır. Bir sözlə, vay-şivən.**

*(ardı 4-cü səhifədə)*



## Donald Trampın Ağ Evə qayıtmaq şansları artır

### Avropa bundan niyə narahatdır?

**Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp yanvarın 15-də Ayova ştatında keçirilən səsvermədə qalib gələndən sonra baş verən hadisələr, sanki, sabiq prezidentin bu seçkilərdə uğur qazanmasına yol açır.**

Respublikaçılar Partiyasının iyul ayında keçiriləcək qurultayında iştirak edəcək 2429 nümayəndənin yalnız 40 nəfərinin Ayova respublikaçıları təmsil etməsinə baxmayaraq, bu ştatda seçicilərin səsverməsi ənənəvi olaraq həmişə bütün ölkənin diqqət mərkəzində olub. Buna səbəb isə onların elektoral təqvimdə yerləşdiyi mövqe ilə bağlıdır. Ölkədə ilk partiyadaxili seçkilərin nəticələri konkret bu və ya digər namizədə dəstəyin əsas göstəricisinə çevrilir.

*(ardı 15-ci səhifədə)*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər




(əvvəli 1-ci səhifədə)

Həmin faciəli günlərdən artıq 34 il keçir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi Ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü – yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən baş vermiş siyasi səhv olduğunu bəyan etdi. O, faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.

Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ümummilli lider Heydər Əliyevin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Ölkəmizdə 20 Yanvar əlillərinə və şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib.

Bu gün əminliklə deyə bilərik ki, Ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki 2020-ci ildə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaratdı. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir. Artıq keçmiş məcburi köçkünlər işğaldan azad olunmuş ərazilərə, doğma torpaqlarına qayıdırlar. İndi bu torpaqlarımızda həyat yenidən canlanmağa başlayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması həm də 20 Yanvar şəhidlərinin, ümumilikdə torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin qanının yerdə qalmadığının sübutudur. Odur ki, xalqımız 20 Yanvar faciəsinin 34-cü ildönümünü xüsusi qürur hissi ilə qeyd edir.

## Prezident İlham Əliyev Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşan Bakı Ağ Şəhər Ofis binasında yaradılan şərait ilə tanış olub.**

Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, hazırkı Ağ Şəhərin ərazisi 150 ildən çox idi ki, Qara şəhər kimi tanınırdı. Buraya Qara şəhər adının verilməsi də təsadüfi deyildi. Ərazi neft sənayesi tullantılarından çirklənmişdi. Burada çox sayda bataqlıq, gölməçə və neft tullantıları var idi. Bir sözlə, Qara şəhər əsl ekoloji fəlakət zonasına çevrilmişdi.

Bütün bu amilləri nəzərə alan Prezident İlham Əliyevin təşəbbüsü ilə Qara şəhərin yerində hazırda dünyanın ən müasir ekoloji layihəsi olan Ağ Şəhərin salınmasına başlanıldı.

Nadirliyi ilə seçilən Bakı Ağ Şəhər layihəsinin təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən 2011-ci il dekabrın 24-də qoyulub. Bakının ekoloji cəhətdən ən çox çirklənmiş bu yerində aparılmış irimiqyaslı tədbirlər nəticəsində həm şəhərsalma, həm memarlıq, həm sakinlərin rahat yaşayışı, həm də ekoloji baxımdan sözün əsl mənasında möcüzəvi layihə reallaşdırılıb.

Dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində həyata keçirilən Bakı Ağ Şəhər layihəsi irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi də artıq dünyada tanınıb. Dünyanın aparıcı şirkətlərinin yerli mütəxəssislərlə birgə layihələndirdiyi bu yaşayış məkanı bir çox beynəlxalq sərgilərdə dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara layiq görülüb. İndi bu ərazi Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yaşayış və gəzinti zonalarından birinə çevrilməkdədir.

Ümumilikdə, 1650 hektar ərazini əhatə edən Bakı Ağ Şəhərdə müxtəlif üslublu 10 rayonun salınması, 120 min yaşayış və xidmət obyektinin tikintisi, 350 hektar landşaft işlərinin görülməsi, 10 kilometr bulvar xəttinin yaradılması nəzərdə tutulub. İndiyədək 91 binanın inşası yekunlaşıb. Layihənin tam yekunlaşmasından sonra burada 280 min sakin yaşayacaq və 240 min iş yeri yaradılacaq.

Məlumat verildi ki, inşası mərhələli şəkildə həyata keçirilən Bakı Ağ Şəhərin Mərkəzi Park Rayonunda bir sıra binaların, ictimai yerlərin tikintisi artıq başa çatıb, infrastruktur işləri həyata keçirilib. Müxtəlif küçələrin tikintisi, yeraltı kommunikasiya infrastrukturunun qurulması ilə bağlı işlər də yekunlaşıb. Layihələndirmə işləri zamanı Bakı Ağ Şəhərdə inşası nəzərdə tutulmuş Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiya hazırlanıb. Tamamlama işləri çərçivəsində əlil arabaları üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu dayaqlar tikilib, videomüşahidə kameraları qurulub, İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Rayonu, 2017-ci ildə istifadəyə verilmiş Paris evlərindən başqa 36, 20 və 8 mərtəbəli binalardan, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binalarından, ticarət və iaşə obyektlərindən, orta məktəbdən, ofis və inzibati binalardan ibarətdir. Layihələndirmə zamanı Ağ Şəhərin Mərkəzi Park Rayonunun yaşayış massivinin ərazisində yaşıl zonalar – parklar və xiyabanlar nəzərdə tutulub. Onların arasında Dağdağan bağı da var.

Vətəni Qarabağ olan dağdağan ağacı Azərbaycanın rəmzlərindən biridir. Prezident İlham Əliyev 2021-ci ilin mayında Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində Ağdam şəhərində dağdağan ağacı əkib. Dağdağan ağacları Ağ Şəhərə Qarabağdan gətirilib.

Dövlətimizin başçısı bağın ərazisində dağdağan ağacı əkdi.

Son illər Bakı Ağ Şəhər həm də bir sıra yerli və beynəlxalq incəsənət ustalarının öz əsərlərini nümayiş etdirdiyi bir məkana çevrilib. Ağ Şəhərin mərkəzi küçələrindən olan və inşası əsasən tamamlanmış Bulvar küçəsində yerli və xarici rəssamların incəsənət əsərləri quraşdırılıb.

Heykəltaraş Enrike Kabreranın "Böyük alma" əsəri onun ən mühüm sənət layihələrindən biridir. Nyu-Yorkda quraşdırılmış "Böyük alma" bu şəhərin rəmzini təcəssüm etdirməklə onun sakinləri və qonaqları arasında çox məşhurdur. Bu əsərin ikincisi isə Bakı Ağ Şəhərdə sərgilənir.

Azərbaycan MAAS incəsənət qurumunun müasir üslubda hazırladığı hündürlüyü 4,2 metr olan "Əjdaha" heykəli 2024-cü ilin rəmzinə həsr olunub. Şərq təqviminə görə 2024-cü ilin rəmzi əjdahadır.

Cozef Klibanskinin "Mütəfəkkir" əsəri müasir insanın texnoloji inkişaf dövrünü, ekoloji və qlobal istiləşmə problemlərindən yaranan həyəcanlarını əks etdirir. Bürüncdən hazırlanmış heykəl artıq bütün dünyada sənətsevərlərin rəğbətini qazanıb. Heykəlin müəllifi 2014-cü ildə Bakının zəngin memarlığından, qədimliyin və müasirliyin vəhdətindən ilhamlanaraq Azərbaycanın paytaxtının gözəlliyini tərənnüm edən "Gözəl Bakı" əsərini də yaradıb.

*(ardı 3-cü səhifədə)*

# Dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər

**Yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlət və hökumət rəsmiləri Azərbaycanın azadlığı uğrunda həlak olan qəhrəman Vətən övladlarının məzarları üzərinə tər güllər düzüb, əziz xatirələrini ehtiramla anıblar.











# Prezident İlham Əliyev Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında





(əvvəli 2-ci səhifədə)

Prezident İlham Əliyev tikintisi başa çatan Bakı Ağ Şəhər Ofis binası ilə də tanış olub. Binanın inşasına 2020-ci ildə başlanılıb, Azərbaycanın Vətən müharibəsində Qələbəsinə və suverenliyinin bərpasına həsr olunub.

Binada dünyanın aparıcı memarlıq şirkətləri tərəfindən layihələndirilmiş müasir tikililərin maketləri təqdim olunur. Yeni binaların layihələndirilməsi zamanı Ağ Şəhərin ekoloji ənənələrinə və dünyanın müasir ekoloji tələblərinə uyğun olaraq yaşıl bina, enerjidən qənaətli istifadə prinsiplərinə və beynəlxalq qurumların sertifikatlarına uyğunlaşdırılmasının geniş istifadəsi qarşıya məqsəd qoyulub. Ofis binasının birinci mərtəbəsində iaşə obyektləri üçün sahələr ayrılıb.

Ofis binası ətraf mühitin mühafizəsi siyasətinə tam uyğundur və beynəlxalq ekoloji sertifikatlaşdırma təşkilatından (BREEAM) sertifikat alıb. "Ağ Şəhər 2020 – Biznes Mərkəzi" 2014-cü ildə istifadəyə verilmiş birinci Bakı Ağ Şəhər Ofis binasından sonra BREEAM ekoloji sertifikatı alan və yaşıl bina standartlarına uyğunluğu təsdiq olunan növbəti binadır.

Qeyd edilib ki, 2030-cu ildən sonra dünya iqliminin temperaturunun 1,5 dərəcə artması proqnozu ilə əlaqədar müvafiq (CRREM) tələblərə uyğunluğu təmin etmək məqsədilə binanın damında günəş panellərinin quraşdırılması nəzərdə tutulub.

Binada, eyni zamanda, Qarabağ atlarının dünyada təbliği məqsədilə İspaniyanın tanınmış "Lladro" şirkəti tərəfindən hazırlanmış Qarabağ atının farfordan stolüstü heykəli təqdim olunur. Bu heykəl məhdud kolleksiyadır və şirkətin 100-dən çox ölkəsində olan geniş şəbəkəsi vasitəsilə satışa çıxarılacaq.

Diqqətə çatdırıldı ki, binada 150 ofis yerləşir. Biznes nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün burada hər cür şərait var. Binada informasiya texnologiyalarından dayanıqlı istifadə məqsədilə Data Center yaradılıb.

Binanın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradılıb, yerli iqlimə uyğunlaşdırılmış müxtəlif ağaclardan ibarət yaşıllıq zolağı salınıb, yaşı min ildən çox olan nadir zeytun ağacı əkilib.

Ərazidə qoyulmuş Qarabağ atı heykəli Qarabağ Atları Meydanında yerləşəcək "Qarabağ atları" monumenti kompleksindəki 7 atdan biridir. Təməli dövlətimizin başçısı tərəfindən 2022-ci ilin dekabrında qoyulan kompleks Azərbaycanın Qarabağın 30 illik işğaldan azad edilməsi uğrunda Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Kompleksin yaradılması orijinal əsərləri ilə dünyada məşhur olan amerikalı heykəltaraş Robert Sammers tərəfindən həyata keçirilir.

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Küveyt Ümmət Məclisinin Küveyt–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Spiker vurğulayıb ki, bu gün ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir. Bildirilib ki, siyasi əlaqələrlə yanaşı, digər sahələrdə də əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var.**

# Azərbaycanı Küveytlə ortaq dəyərlər birləşdirir



Görüşdə qeyd olunub ki, ikitərəfli münasibətlərin inkişafında ali və yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər müstəsna rol oynayır.

S.Qafarova ölkələrimiz arasındakı əlaqələrin inkişafında parlamentlərimizin müsbət rolunu vurğulayaraq bildirib ki, parlamentlərimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda yaxşı əməkdaşlıq əlaqələri mövcuddur. Parlamentlərarası İttifaq və İslam Əməkdaşlıq Təşkilatının Parlament Məclisi çərçivəsində mövcud olan əməkdaşlıq Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də uğurla davam etdirilir.

Küveyt Ümmət Məclisinin Küveyt–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Məhəmməd Haif Əl-Muteyri xalqlarımız arasında bir çox ortaq dəyərlərin mövcud olduğunu bildirərək, ölkəsinin Azərbaycanı yaxın ölkə hesab etdiyini qeyd edib. O, deyib ki, Azərbaycan Küveyt üçün çox mühüm ölkələrdən biridir. Məhəmməd Haif Əl-Muteyri Küveytin ölkələrimiz arasında siyasi əlaqələrlə yanaşı, digər sahələrdə də əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib.

Milli Məclisin Sədri post-münaqişə dövründə regiondakı vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi nəhəng quruculuq və bərpa işləri barədə də məlumat verib.

Dostluq qrupunun rəhbəri Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi və suverenliyini bərpa etməsi münasibətilə təbrik edərək deyib ki, Küveytin mövqeyi hər zaman birmənalı olub və Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Füzuliyə köçən sakinlərə maarifləndirmə təlimi

**Füzuli şəhərinə növbəti mərhələdə köç edən sakinlərə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) nümayəndələri tərəfindən partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimi keçirilib.**

ANAMA-dan bildiriblər ki, təlimlərdə sakinlərə əsas təhlükəsizlik qaydaları, şübhəli ərazilərin əlamətləri, xəbərdarlıq nişanları barədə məlumat verilib, təhlükəsizliyinə əmin olmadıqları ərazilərə daxil olmamağa, eləcə də şübhəli əşyalara toxunmamağa dair çağırışlar edilib.

Agentlik nümayəndələri tərəfindən sakinlərə müxtəlif növ xəbərdaredici və maarifləndirici çap materialları paylanılıb.

**XQ**

# COP29 Təşkilat Komitəsinin ilk iclası





**Yanvarın 22-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini, ölkəmizin baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılması öhdəliyini götürdüyünü, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, habelə Naxçıvan Muxtar Respublikasının "Yaşıl enerji" zonası elan edildiyini bildirib. Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın ətraf mühitin qorunması və qlobal iqlim dəyişmələri sahəsində beynəlxalq səyləri daim dəstəklədiyini və bu prosesə töhfələr verdiyini vurğulayıb. Samir Nuriyev Azərbaycanda iqlim dəyişmələrinə qarşı həyata keçirilən fəaliyyətin beynəlxalq aləmdə təqdir edildiyini və dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasının ölkəmizdə keçirilməsi barədə yekdil qərarın qəbul edilməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizə beynəlxalq səviyyədə olan hörmət və etimadın bariz göstəricisi kimi dəyərləndirildiyini bildirib.

Təşkilat Komitəsinin sədri 2023-cü il dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-la bağlı keçirilmiş müşavirədə hazırlıq işlərinə dərhal başlanılması barədə verdiyi tapşırığa toxunaraq, tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

Samir Nuriyev bu həftə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinin Azərbaycana texniki missiya göndərəcəyini, dialoq şəraitində hazırlıq işlərinin aparılacağını bildirib və COP29-un təşkil edilməsi məqsədilə bütün aidiyyəti sahələrdə ehtiyacların qiymətləndirilməsinin zəruriliyini qeyd edib. Samir Nuriyev, eyni zamanda, beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaş kimi Azərbaycanın əvvəlki illərdə COP-a ev-sahibliyi etmiş ölkələrlə təcrübə mübadiləsi apardığını diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-la bağlı verdiyi tapşırıqların icrası istiqamətində görülmüş işlər barədə məlumat verib və ölkəmizin COP29-a hazırlıq prosesində dövlətlər, beynəlxalq təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti, yerli və beynəlxalq media və digər tərəf müqabilləri ilə konstruktiv əməkdaşlığa və dialoqa hazır olduğunu vurğulayıb.

Sonra Təşkilat Komitəsinin üzvlərinin gündəlikdə duran məsələlər üzrə məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin Katibliyinin, COP29 prezidentinin, Baş danışıqçının heyətinin, Əməliyyat şirkətinin fəaliyyəti, COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının yekunlaşdırılması və digər məsələlər üzrə tapşırıqlar verilib.

**XQ**

# USAİD–Gürcüstan qalmaqalı bitmir



(əvvəli 1-ci səhifədə)

Haşiyə çıxaq ki, ötən il oktyabrın 2-də Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti USAİD-i ölkədə hakimiyyət dəyişikliyinə cəhddə günahlandırmışdı. Dövlət qurumundan bildirilmişdi ki, təşkilat bu məqsədlə zorakı etiraz aksiyası metodları üzrə təlim keçən serbiyalıları maliyyələşdirib. Belə ki, USAİD-in Şərq–Qərb İdarəetmə İnstitutunun dəvəti ilə üç Serbiya vətəndaşı – Sinisa Sikman, Yelena Stoisiç and Slobodan Jinoviç Gürcüstana gəlib.

Həmin şəxslərin əsas məqsədi oktyabr-dekabr aylarında qanunsuz və dağıdıcı fəaliyyətlər planlaşdıran QHT-lərlə və gənclərlə əlaqələr qurmaq və onlara təlimlər keçmək olub. Həmin vaxt bildirilmişdi ki, Serbiyanın adları çəkilmiş vətəndaşları USAİD tərəfindən maliyyələşdirilən təlimdə iştirak ediblər. Gürcüstan DTX 2003-cü ildə ölkədə yaşanmış inqilabi proseslərlə əlaqəli olan sözügedən serbiyalıların əvvəllər də saxlanıldığını açıqlamış və vurğulamışdı ki, onlar müxtəlif illərdə Serbiya, Ukrayna və digər ölkələrdə gedən oxşar hadisələrdə iştirak ediblər.

Bununla yanaşı, bildirək ki, ötən ilin oktyabrında hakim "Gürcü arzusu" partiyası da açıqlama yaymış və Amerika xalqının pulunun Gürcüstanda inqilabi proseslərin planlaşdırılmasına sərf olunduğunu bəyan etmişdi. Həmin vaxt Ş.Papuaşvili demişdi ki, USAİD Amerika xalqının pullarının başqa ölkəyə iğtişaşları qızışdırmaq, onları planlaşdıran və zorakılıq törədən qrupları hazırlamaq üçün sərf olunmasına izahat verməlidir.

Qeyd edək ki, Gürcüstanda yaşananlar USAİD-lə əlaqədar yeganə qalmaqal deyil. Ümumən, bu qurumun adı işlədiyi ölkələrdə siyasi proseslərə açıq müdaxilə, hakimiyyət çevrilişlərinə cəhd və sair məsələlərdə daim hallanıb. Necə də hallanmasın, axı USAİD ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (SİA) alt qurumu kimi fəaliyyət göstərir. Əlbəttə, bir qədər fərqli metodlarla. Yəni, təşkilat yardım adı ilə ayrı-ayrı ölkələrin daxili işlərinə qarışır, çevriliş və xaos üçün münbit şərait yaradır. Əsas məqsəd isə Birləşmiş Ştatlara sərf etməyən hakimiyyətlərin devrilməsidir. Bəs təşkilat bunu necə reallaşdırmağı planlaşdırır?

Məlumdur ki, USAİD 2023–2025-ci illərdə müxtəlif ölkələrdə "vətəndaş cəmiyyəti" quruculuğuna 10 milyard dollara yaxın vəsait ayırıb. O da məlumdur ki, nəinki USAİD, ümumən, başda bu qurum olmaqla, ABŞ hökumətinə bağlı təşkilatlar və hərəkatlar vətəndaş cəmiyyətlərinin inkişafına töhfə vermək adı ilə siyasi proseslərə müdaxilə yolu tutur, qarşıdurma yaradır, manipulyativ metodlara üstünlük verirlər. Söhbət NED, Fridrix Nauman, Marşall, İREX və digər bu kimi qurumlardan gedir. Yeri gəlmişkən, onlar Azərbaycanda da "fəallıq" göstəriblər və siyasi hakimiyyətə qarşı təzyiq şəbəkəsi formalaşdırmağa çalışıblar. Əlbəttə, istəklərinə nail ola bilməyiblər və məqsədlərinə çatmaları mümkünsüzdür. Çünki, xüsusən, 44 günlük müharibədən sonra Azərbaycanda iqtidar-xalq birliyi daha da güclənib. Buna görə də USAİD-çilər taktikalarını dəyişiblər. Onlar milli dəyərlərə təhlükə olan LGBD-dən, "feministlər"dən, "NO WAR"çılardan yararlanmağa cəhd göstərirlər.

***

Gürcüstana, daha dəqiq desək, Ş. Papuaşvilinin indi bildirdiklərinə gəlincə isə vurğulayaq ki, parlament sədrinin sözlərinə görə, indiyədək Gürcüstan Pravoslav Kilsəsinə qarşı dini bayramların qeyd olunması xüsusunda nəzərə çarpan hücumlar əvvəlcədən planlaşdırılmış, əlaqələndirilmiş prosesin tərkib hissəsidir və vətəndaş sülhünə düzəlməz ziyan vura biləcək təhlükəli həddə çatıb. Ş.Papuaşvili açıqlamasında konkret ad da çəkib. Onun sözlərinə görə, sözügedən hücumlar "qondarma vətəndaş cəmiyyəti təşkilatları", o cümlədən, "Sovet keçmişinin tədqiqi laboratoriyası" (SovLab) və onun direktoru Georgi Kandelaki tərəfindən planlaşdırılıb.

S.Papuaşvili, həmçinin, kampaniya iştirakçılarından birinin "Pravoslav Kilsəsinə qarşı düşmənçilik ritorikası ilə seçilən" İctimai Müdafiəçi yanında Tolerantlıq Mərkəzinin rəhbəri Beka Mindiaşvilinin olduğunu açıqlayıb. Söhbətin bu yerində yenə USAİD-ın adı hallanıb. "Tolerantlıq Mərkəzi ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) "Müxtəliflikdə birlik" proqramlarından biri çərçivəsində maliyyələşdirilir", – deyə gürcü parlament sədri əlavə edib.

Ş.Papuaşvili deyib ki, USAİD artıq onuncu dəfədir maliyyələşdirdiyi layihələrlə bağlı qalmaqalın episentrində dayanır: "Mən gözləyirəm ki, USAID rəhbərliyi bu məsələyə, tez bir zamanda, aydınlıq gətirəcək, Amerika və Gürcüstan xalqlarının maraqlarına uyğun hərəkət edəcək. Gürcüstanın QHT sektorunda, demək olar, tamamilə xaricdən maliyyələşən partiya təbliğatı ilə məşğul siyasətçilər üstünlük təşkil edirlər".

Bu arada Gürcüstan Parlamentinin birinci vitse-spikeri Georgi Volski də sözügedən məsələ xüsusunda çıxış edib. O bildirib ki, ayrı-ayrı vətəndaşların kilsə müstəvisindəki aqressiv bəyanatları dövlətə qarşıdır və mövcud sabitliyi pozmağa yönəlib: "USAID, həmçinin, maliyyələşdirdiyi proqramlara və onların xidmət etdikləri, dəstəklədikləri və bu ölkədə çoxlu yaxşı işlər gördüyü icmaların maraqlarına necə uyğun gəldiyinə daha dərindən nəzər salmalıdır".

G.Volski onu da bildirib ki, "Birlik və Müxtəliflik" adlanan proqram, əslində, USAİD-in maliyyələşdirdiyi proqramdan əsaslı şəkildə fərqlənir və adına uyğun gəlmir."Əgər USAID maliyyələşdirdiyi proqramdan konkret bir şəxs və bir qrup insan tərəfindən sui-istifadə edildiyini bilməsəydi, mən şad olardım. Ümid edirəm ki, onlar bilmirdilər. Çünki sponsorluq etdikləri ad tamam başqadır", – deyə Volski vurğulayıb.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Qoymayın, üstümüzə konqresmenlər gəlir!

(əvvəli 1-ci səhifədə)

Bəli, ABŞ konqresmelərinin bəyanatında bildirilib ki, guya, Azərbaycan Ermənistan ərazisindən qoşunlarını çıxarmaq istəmir və bu, Qarabağın 100 mindən çox sakininə qarşı etnik təmizləmə siyasətinin davamıdır. Sən demə, vəziyyətin belə alınmasında beynəlxalq ictimaiyyət günahkar imiş, xarici aləm Bakının "aqressiv planlarına" layiqli siyasi qiymət vermirmiş və nəticədə onun iştahası artırmır.

Məlum olduğu kimi, bu sayaq fikirlər Ermənistan hakimiyyətinin anti-Azərbaycan siyasətinin mühüm tərkib hissəsi kimi diqqət çəkməkdədir. Yəni, rəsmi İrəvan hansı məsələlərə fokuslanırsa, Birləşmiş Ştatların konqresmenləri də məhz həmin məqamları gündəmə gətirirlər. Bəyanatdakı növbəti qeyd edəcəyimiz xüsus da Ermənistan iqtidarının sərsəm beyin mərkəzlərinin zay məhsulu olaraq diqqət çəkməkdədir.

Beləliklə, konqresmelər qənaətə gəliblər ki, ABŞ və onun regional tərəfdaşları Azərbaycan hakimiyyətinin Ermənistana qarşı açıq təhdidlərinə cavab olaraq, ikincinin ərazi bütövlüyünü təmin etmək üçün bütün diplomatik vasitələrdən, o cümlədən, sanksiyalardan istifadə etməkonqresmenlər, belə demək mümkünsə, trayektoriyanı dəyişmək qərarına gəliblər. Onlar birbaşa sanksiya üzərində dayanırlar. Nə qədər olmasa, məsələ daha gurultulu səslənir...

Ermənipərəst konqresmenlərin növbəti tələbi ABŞ Dövlət Departamentindəndir. Onların bəyanatlarında bu qurum və onun beynəlxalq tərəfdaşları Azərbaycanın istənilən təcavüzünün qarşısını almaq və Ermənistanın təhlükəsizliyini təmin etmək üçün qətiyyətli addımlar atmağa çağırılıb. Əslində, oxşar motiv Fransa Senatının ötən həftə qəbul edilmiş qətnaməsində də əksini tapmışdı. Bu, bir daha onu təsdiqləyir ki, Vaşinqton ermənipərəstlik yarışında Parisə uduzur. Nəzərə alaq ki, Fransa Senatı qətnamə çıxarır və həmin sənəd yüksək səs çoxluğu ilə qəbul edilir. ABŞ-da isə ortaya düşən yalnız beş-altı mənasız konqresmendir. Ancaq onlar, əvvəldə də diqqətə çatdırdığımız kimi, Konqresin Ermənistan üzrə İşçi Qrupunun həmsədrləridir.

Təsəvvür edirsinizmi, bir ölkənin parlamentində başqa ölkənin işləri ilə məşğul olmaq üçün ayrıca qrup yaradılır? Hər halda, qrupun formatı müxtəlif dövlətlərin ali qanunverici orqanları arasındakı əlaqələr və əməkdaşlıq üzrə işçi qrupu



lidirlər. Sağ olsunlar, yaxşı ki, Pentaqonun Ermənistan ərazisini qorumaq üçün qoşun göndərməsindən söz açmayıblar. Görünür, bu işi kollektiv ermənipərəst Qərbin digər təmsilçisi olan Fransanın öhdəsinə buraxıblar. Ancaq sanksiya məntiqi məhz Birləşmiş Ştatlara məxsusdur.

Qeyd edək ki, sanksiya dedikdə, adətən, ABŞ Konqresinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin qüvvəsinin dayandırılması ilə bağlı qərarın ləğvi üzərində dayanılırdı. Nəzərə alaq ki, 907-ci düzəliş Vaşinqtonun Bakıya birbaşa hərbi yardım göstərməsini əngəlləyirdi. Lakin 2001-ci ildən başlayaraq, Birləşmiş Ştatların prezidentləri sözügedən düzəlişin qüvvəsinin hər il dayandırılması ilə bağlı qərar çıxarmaq səlahiyyətinə malikdirlər. Erməni lobbi və diaspor təşkilatlarının, habelə, onların Konqresdəki "danışan dillərinin" məqsədləri bu olub ki, ABŞ-ın dövlət başçıları malik olduqları səlahiyyət üstünlüyündən məhrum edilsinlər. Daha doğrusu, onlar Konqresin təqdimatı əsasında özlərinin bu səlahiyyətlərinə xitam versinlər.

Əlbəttə, 907-ci düzəlişlə bağlı durum, bilavasitə, sanksiya məntiqi ilə uzlaşmır. Nə də Vaşinqtonun ölkəmizə hərbi yardım göstərməməsi hansısa sıxıntılı durum yaradır. Yəni, ölkəmiz silahı haradan alacağını yaxşı bilir... Ancaq, məsələ, heç şübhəsiz, mənəvi anlam daşımaqdadır və "zərurət" yarandığı təqdirdə, sanksiya gündəliyini işə salmaq üçün istinadgah kimi nəzərdən keçirilə bilər. Görünür, kimi deyil. Burada söhbət Ermənistanı himayəyə götürməkdən gedir. Digər tərəfdən, əslində, sözügedən qrup konqresin ermənipərəstlik klubudur. Klubun üzvləri isə adlarını çəkdiyimiz şəxslərdir. Əlbəttə, onların ən fəalı Frank Pellonedir. Ona görə də məhz Pellone haqqında söz açdığımız qərəzli və anti-Azərbaycan motivlərinə söykənmiş bəyanatı özünün "X" sosial şəbəkəsindəki hesabında yayıb.

Sonda onu da deyək ki, indiyədək F.Pellone və dostlarının Azərbaycanla əlaqədar qərəz dolu yanaşmaları az olmayıb. Görünür, bu şəxslər ölkəmizə qarşı çoxsaylı sənədlər yaydıqlarının fərqindədirlər. Çox güman, həmin sənədlərin heç bir faydasının olmadığını da gözəl bilirlər. Yəqin elə bildikləri üçündür ki, öz aləmlərində bəyanatlarına, bir növ, daha təsirli notlar əlavə ediblər. Məsələn, bildiriblər ki, Azərbaycanın Cənubi Qafqazda ermənilərə qarşı törətdiyi əməllərə görə cavab verməsinin vaxtı çatıb. Maraqlıdır, bunu necə müəyyənləşdiriblər? Sual ritorikdir. Çünki cavab aydındır. Erməni lobbisinin maliyyə yardımı artdıqca, Pellone kimilərin hər cür həyasızlığı gündəmə gətirməsi mümkündür. Nə deyəsən? Prinsipcə, bu cür sərsəmliklə bağlı deyiləcək elə bir söz də yoxdur. Yalnız ağlımıza məşhur Azərbaycan filmi olan "Bəxt üzüyü"ndəki bir səhnə düşür: qoymayın, üstümə Rasim gəlir!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistan mina müharibəsini dayandırmayıb

(əvvəli 1-ci səhifədə)




Hadisə ilə bağlı Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsində paylaşım edilib. Paylaşımda qeyd edilir ki, daha bir mülki şəxs minaya düşüb. Bununla da 2020-ci ildən bu yana qurbanların sayı 342 nəfərə çatıb: "Ermənistanın ayrıseçkilik etmədən yerləşdirdiyi minalar günahsız mülki əhali üçün təhlükə yaratmaqda davam edir. Hamı Ermənistana təzyiq göstərməlidir ki, mina xəritələri haqqında dəqiq məlumat versin".

Baş verən hadisə Ermənistanın Azərbaycana qarşı dolayısıyla apardığı terror-təxribat hərəkətlərinin bitmədiyinin göstəricisidir. Rəsmi İrəvan bugünədək dəqiq mina xəritələrini vermək istəmir. Onun işğaldan azad edilmiş bir neçə rayon üzrə verdiyi mina xəritələrinin dəqiqliyi 25 faizdən yüksək deyil. Ermənistan regionda etimad quruculuğunun yaradılmasının vacibliyindən bəhs etsə də, xəritələri vermək kimi ən mühüm addımlardan birini atmır. Bununla da günahsız Azərbaycan vətəndaşlarının ölməsinə, yaxud əlil olmasına vəsilə olur. Belə ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra mina qurbanına çevrilənlərin 50-si mülki şəxs olmaqla 65 nəfəri həlak olub. Böyük əksəriyyəti mülki şəxs olmaqla 277 nəfər isə yaralanıb.

**Mövzu ilə bağlı "XQ"yə açıqlama verən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın katibi, "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov bildirdi ki, ölkəmizdəki mina qurbanlarının sayı Cənubi Qafqazın digər regionlarında olan bütün mina qurbanlarının sayından çoxdur. O qeyd etdi ki, bu faktı həm yerli, həm də beynəlxalq tədbirlərdə qabardırlar:** "Çox təəssüf ki, bu say artmaqda davam edir və necə deyərlər, tunelin sonu görünmür. Çünki problemin miqyası böyükdür. Bu problem üç-beş günlük problem deyil və görünür, hələ uzun müddət bizimlə olacaq. Onu da nəzərə almaq lazımdır ki, keçmiş məcburi köçkünlər artıq öz dədə-baba torpaqlarına qayıdırlar. Bu, minaya düşmə hallarının sayına da təsir edə bilər".



H.Səfixanov qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərdə mina və partlamamış hərbi sursat problemi çox ciddi şəkildə gündəmdədir: "Bəzi ekspertlər həmin ərazilərdə təxminən 1,5 milyon mina və partlamamış hərbi sursatın olduğunu qeyd edirlər. İkinci Qarabağ müharibəsi başa çatandan Azərbaycan dövlətinin israrlı tələbləri nəticəsində Ermənistan ölkəmizə 3 mina xəritəsini verdi. Birinci mina xəritəsi Ağdam bölgəsini əhatə edirdi. Burada 97 min minanın olduğu bildirilirdi. İkinci dəfə Füzuli, üçüncü dəfə Zəngilan rayonları üzrə xəritələr verildi. Burada 92 min minanın olduğu qeyd olunmuşdu. Ancaq sonra aydın oldu ki, verilmiş mina xəritələri keçmiş cəbhə xəttinə aid əraziləri əhatə edir. Yəni, 27 sentyabr 2020-ci ilə aid olan cəbhə xəttinə aiddir. Araz çayından Murov dağınadək olan 280 kilometrlik bir ərazidir. Digər ərazilərə aid xəritələr hələ də ölkəmizə verilməyib. Apardığımız tədqiqatlar göstərir ki, 2020-ci il noyabrın 10-dan sonra minaya düşən 342 nəfərin 70-71 faizi təmas xəttindən kənarda, yəni xəritəsi verilməmiş ərazilərdə minaya düşən şəxslərdir. Bu bir daha onu göstərir ki, minalanmış digər ərazilərin də xəritəsi təcili şəkildə Azərbaycana verilməlidir. Çünki həmin ərazilərdə Azərbaycan çox böyük infrastruktur layihələri həyata keçirir. İnsanların geri qayıtması üçün kəndlər, şəhərlər yenidən qurulur. Mina qurbanlarının arasında da infrastruktur layihələrinin həyata keçirilməsində iştirak edən Azərbaycan vətəndaşları olur. Bu gün Azərbaycanın elə bir regionu yoxdur ki, orada mina qurbanı olmasın".

Göründüyü kimi, minalarla bağlı problem hazırda ölkəmiz üçün son dərəcə aktualdır. Minalarla çirkləndirilmiş ərazilərin təmizlənməsi uzun, ağır zəhmət, böyük vəsait tələb edən yorucu prosesdir. Ermənistan iki ölkə arasında etimad yaradılması üçün minalarla çirkləndirilmiş ərazilərin dəqiq xəritəsini ləngimədən ölkəmizə verməli, bu məsələ ilə bağlı dürüstlük nümayiş etdirməlidir. Rəsmi İrəvanın bu məsələdə atacağı konstruktiv adım sonradan iki ölkə arasında digər sahələrdə əməkdaşlıq üçün də baza rolunu oynaya bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan və Türkiyənin hərb tarixinin, o cümlədən, qəhrəmanlıq salnaməsinin araşdırılması müzakirə olunub



**Yanvarın 22-də Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

General-polkovnik Z.Həsənov qardaş ölkə Türkiyə ilə digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib.

Nazir hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına müsbət təsir etdiyini vurğulayıb.

Professor E.Afyoncu ölkəmizin suverenliyi və ərazi bütövlüyünün bərpası, eləcə də Azərbaycan Ordusunda əldə olunan nailiyyətlərlə əlaqədar müdafiə nazirini təbrik edib. Hərbi təhsil sahəsində həyata keçirilən islahatların bundan sonra da davam etdirilməsinin, eləcə də bu istiqamət üzrə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Sonra E.Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Türkiyə arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların olduğu qeyd edilib.

**XQ**

# Azərbaycana “yarımçıq AŞPA” lazım deyil!




(əvvəli 1-ci səhifədə)

Əslində, Azərbaycan üçün Avropa Şurasının özünün də heç bir əhəmiyyəti yoxdur. Qurum bəşəri dəyərləri qorumaq naminə ortada olduğunu bildirirsə, görəsən, ölkəmizin iyirmi faizi işğal altında olanda nə edirdi? Növbətçi qətnamələrdən, mənasız söz yığını bəyanatlardan uzaq obyektiv mövqe tuturdumu? Nə Avropa Şurası bir şeyə yarayırdı, nə də onun Parlament Assambleyası.

İndi iddialarına baxın. Guya, Azərbaycan imkan verməyibmiş ki, təşkilat 7 fevral Prezident seçkilərində müşahidəçi qismində təmsil olunsun. Xüsusi dəvət gözləyirmişlər! Yaxşı, tutaq ki, AŞPA dəvət gözləyirmiş, bəs ermənipərəst buqələmun qütbün digər təmsilçisi Avropa Parlamenti necə? Bu qurum özü açıqlayıb ki, Azərbaycanda keçiriləcək Prezident seçkilərinə müşahidəçi göndərməyəcək. Başqa nə etsin? Göndərdikləri şəxslər gəlib görəcəklər ki, xalq iqtidarı dəstəkləyir. Axı onlara bu ssenari lazım deyil. Elə AŞPA-ya da həmçinin. Bu eyni bezin qıraqları olan təşkilatlara xaos, anarxiya, hərcmərclik səhnələri gərəkdir. Belə bir vəziyyət olmayandan sonra Azərbaycanda nə işləri var?! Ölkəmizə seçki xüsusunda hədyan yağdırmaq, böhtan atmaq üçün əsas yoxdursa, şübhəsiz, demokratik seçki görmək də lazım deyil!

Torpaqlarımızın işğalından söz düşmüşkən, Azərbaycan vaxtilə AŞ ailəsinə ona görə qoşulmuşdu ki, erməni təcavüzünün aradan qaldırılması üçün yeni beynəlxalq platforma qazansın. Söhbət haqq və ədalət platformasından gedir. Avropa Şurasından, böyük ölçüdə nə haqq gördük, nə də ədalət. Qeyd etdiyimiz kimi, gördüyümüz növbətçi, heç bir əhəmiyyəti olmayan bəyanatlar oldu. Lakmus kağızına oxşar bəyanatlar...

AŞ erməni işğalının davam etməsi üçün manipulyativ yol tutdu. Həqiqətləri öz adı ilə çağırmayaraq, elan etdiyi təməl insan hüquq və azadlıqları prinsiplərinə tüpürdü. Susqunluğu ilə işğalı leqallaşdırmağa, onun beyinlərdə möhkəmlənməsinə çalışdı. Çünki məqsədləri bir idi – nəyin bahasına olursa-olsun erməni avantürizmini qorumaq.

İndi planları pozulub! Qəzəbləniblər! Azərbaycanda, guya siyasi məhbus var imiş. Görəsən, “insanseverlər” dinc azərbaycanlılar illərlə məhbusluqdan da ağır məcburi köçkün həyatı sürəndə, məhrumiyyətlərlə üzləşib ömürlərini çadır şəhərciklərində, vaqonlarda yurd həsrəti ilə için-için yanıb başa vuranda harada idilər? Yəqin, erməni konyakından içib ağızlarını köpükləndirirdilər! İndi nə edirlər! Heç şübhəsiz, erməni lobbi və diaspor təşkilatları içdiklərini zəhərə döndərir! Yəqin, bu səbəbdən Azərbaycana məhdudiyyət qoyulmasına çalışırlar...

Sən demə, xətirlərinə dəyib Laçın yoluna burunlarını soxmalarına imkan verməmişik. Hə, erməni təəssübkeşliyini lap yaxından həyata keçirmələrinin qarşısını almışıq. Bəlkə, yaramazlıqlarına fürsət tanımalı idik?..

Ümumən, AŞPA-dakılar işğal dövründə nə vaxtsa Ermənistanın qurumdakı səs hüququnu məhdudlaşdırmağı düşünüblərmi? Sual ritorikdir. Düşünmələri heç cür mümkün deyildi. Axı bunlar yalnız Azərbaycanı “görürlər”. Qərəzlərini ancaq ölkəmizin üzərinə tökürlər.

Təsəvvür edin, ruspərəst xunta rejimi illərlə Ermənistanda insan hüquq və azadlıqlarına həqarət nümayiş etdirdi, AŞPA-dakılardan səs çıxmadı. Görəsən, niyə? Səbəb çox sadədir - ermənipərəstlik heç bir siyasi mövqedən asılı olmayan xəstəlikdir!

İndi istədikləri Ermənistandır. Rusiyaya qarşı duran, Moskvaya dönük çıxan ölkədir. Əlbəttə, belə bir Ermənistan naminə Azərbaycanın səs hüququnu məhdudlaşdırmaq da olar, hətta ölkəmizin qurumdan çıxarılmasını tələb etmək də!

Nəzərə alaq ki, nanəcib prinsipsizlərin insan hüquqları anlayışı nağıldan başqa bir şey deyil. Buyurub xislətlərini nümayiş etdirsinlər. Onsuz da erməni sevdası naminə hər cür yolverilməz davranışa baş vuracaqlarına zərrə qədər şübhə yoxdur...

Bəli, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycana AŞPA-da yarımçıq, məhdud səslə təmsilçilik, əslə, lazım deyil. Bunu qurumun düşünməli beyinləri boş başlarına nə qədər tez yeritsələr, bir o qədər yaxşıdır. Onlar onu da düşünsünlər ki, Azərbaycana AŞ-də təmsilçilik heç lazım da deyil. Ölkəmiz təşkilata üzv dövlətlərlə ikitərəfli əlaqələrə malikdir və bu əlaqələr yalnız Azərbaycan deyil, elə həmin dövlətlərin özləri üçün də gələcək naminə etibarlı təminatdır.

Bir halda ki, Azərbaycan 2001-ci ildə AŞ-yə üzv olduqdan sonra, qurum ermənipərəst, islamofob qüvvələrin anti-Azərbaycan ritorikasının alətinə çevrilib, bizə lazımdırmı ki, bunun nəticəsi kimi İnsan Haqları üzrə Avropa Məhkəməsinin qərəzli, siyasi motivli qərarları ilə üzləşək? Ümumən, bizə bu məhkəmənin yurisdiksiyasında qalmaq nəyə lazımdır? Əlbəttə, lazım deyil!

Təbii, Azərbaycan Avropa ailəsindən ayrılmaq istəməz. Sözlərimiz elə anlaşılmamalıdır ki, biz özümüzü dünyadan təcrid etmək istəyirik. Belə deyil! Ortada aşkar mənzərə var. Mənzərə isə odur ki, Avropa təsisatları özlərinin eniş dövrünü yaşayırlar, batırlar. Prinsipsizlikləri səbəbindən etimadlarını itirirlər. Dünyadan uzaqlaşan onlardır. Bu təsisatlar süni nəfəs aparatına qoşulmuş xəstələrə bənzəyirlər. Başqa bənzətmələr də tapmaq mümkündür. Ancaq buna vaxt sərf etməyə lüzum görmürük.

Lüzum görmür və şans yaradırıq. AŞ-dəkilər əməlləri barədə yaxşı-yaxşı, soyuq başla düşünsünlər və nəticə çıxarsınlar. Ən əsası isə bir suala gecikmədən cavab tapsınlar – ambisioz Ermənistana, erməni avantürizminə görə Azərbaycandan üz döndərməyə dəyərmi?

**XQ-nin analitik qrupu**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 30** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun adlarının dəyişdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Milli Elmlər Akademiyasının strukturu”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının:

1.1. Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılsın;

1.2. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Arxeologiya və Antropologiya İnstitutu adlandırılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107) ilə təsdiq edilmiş “Azərbaycan Milli Elmlər Akademiyasının strukturu”nda 2.2-ci və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.2. Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu;

2.3. Arxeologiya və Antropologiya İnstitutu;”.

**3.** Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-cü il tarixli 1 saylı müraciətə baxılması barədə

# Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimli Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizədliyinin müdafiəsi üçün imza toplanması zamanı tərəfdarları olan şəxslərin müqavimətlə üzləşdiklərini, Sumqayıt və Gəncədə müxtəlif şəxslər tərəfindən imza vərəqələrinin götürüldüyünü və digər qanun pozuntularının baş verdiyini iddia etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətdə Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş əməllərin əlamətlərinin olması ehtimalına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Bununla əlaqədar Seçki Məcəlləsinin 112-1.5-ci və 112-1.6.1-ci maddələrinə uyğun olaraq M.Ə.Mütəllimlinin müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmədir.

Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 7-ci hissəsinə əsasən **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2024-cü il tarixli 1 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# R.Hüseynov: İstəməzdik ki, Avropa Şurası SSRİ-nin acı taleyini yaşasın

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının plenar iclasında qurumun Bürosunun və Daimi Komitəsinin hesabatı dinlənilib və müzakirə olunub.**



Tədbirdə Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov çıxış edib. O bildirib ki, Avropa Şurasının 75-ci ildönümünün qeyd edildiyi cari ildə keçmişə və gələcəyə, Parlament Assambleyası adından qəbul olunan qərarlara baxmaq zərurəti yaranıb.

R.Hüseynov deyib ki, 75 yaşlı bir təşkilat qəbul etdiyi hər bir qərarı yüz dəfə ölçməlidir. İkili standartlardan, qərəzdən, sifarişli addımlardan imtina etməlidir. “XX əsrin sonlarında Avropa Şurasının Cənubi Qafqaza doğru genişlənməsi qərarı veriləndə bu təşkilat son dərəcə düzgün hərəkət etmişdi. Ancaq bu gün müəyyən qüvvələrin, ilk növbədə, Fransanın birbaşa təsiri ilə Azərbaycana qarşı burada aparılan siyasət narahatlıq və ciddi etiraz doğurur. Azərbaycan müasir tarixinin ən ağır problemini həll edib, ərazilərinin 20 faizinin 30 ilə yaxın davam etmiş işğalına son qoyub. Qəribədir ki, illərlə bu münaqişənin həll edilməsində ATƏT-in Minsk qrupunun üzvlərindən biri kimi əsas vasitəçilərdən olan Fransa bu gün bitmiş münaqişənin yenidən qızışdırılmasına ən ciddi cəhdlə çalışır”, – deyə R.Hüseynov bildirib.

Azərbaycanlı deputat qeyd edib ki, iki dövlət sülh müqaviləsi imzalamağa yaxınlaşdıqca Fransa ciddi cəhdlə buna mane olmaq istəyini gizlətmir. Ermənistanı silahlandırmaq təşəbbüsünü qətiyyən gizlətməyən Fransa bunu dövlət səviyyəsində bəyan edir və bu istiqamətdə konkret addımlar atır.

“Əsassız bəhanələrlə, Azərbaycanı, guya Avropa Şurası ilə əməkdaşlıqdan yayınmaqda ittiham edənlər, xüsusilə də Fransa, əslində, Azərbaycanın Qarabağ Zəfərini həzm edə bilməyənlərdir. Bu təşkilatda təzyiqli hərəkətlərin kökü Parisdən gəlir. Təşkilatda prosedurları və qəlibləşmiş qaydaları pozaraq, nümayəndə heyətimizə qarşı hər hansı təzyiqlər təşbiq etmək həvəsinə düşənlər, Azərbaycana qarşı hərəkət edənlər bir mühüm tarixi həqiqəti unutmamalıdırlar. Azərbaycanlıları qorxutmaq, onların azadlıq, suverenlik yolunda mübarizələrinə birdəfəlik son qoymaq məqsədilə 1990-cı ilin yanvarında Sovet Ordusunun hərbi birləşmələri ölkəmizə hücum edib kütləvi qırğınlar törətdilər. Ancaq bu hücum əks-nəticə verdi və SSRİ-nin dağılması Kremlin Bakıya bu hücumundan başladı. İstəməzdik ki, səmərəli əməkdaşlıq etdiyimiz Avropa Şurası ayrı-ayrı qüvvələrin təhriki ilə Azərbaycana qarşı başladığı qərəzli hücumlar nəticəsində eyni acı taleyi yaşasın. Avropa Şurasını daha qüvvətli etmək üçün indi daha çox yollar axtarmaq lazım olduğu vaxtda, təşkilatı içərdən parçalamaq, onun gələcəyi üçün təhlükələr yaratmaq əsla arzulanan deyil. Məkrli xətt tutanlar ağıllı olduqlarını xəyal etməsinlər. Bütün örtülü və açıq əməllər kənardan aydın görünür, hansı küləklərin haralardan əsdiyi də bizə çox yaxşı bəllidir”, – deyə azərbaycanlı deputat avropalı həmkarlarını tutduqları səhv yoldan daşınmağa səsləyib.

**XQ**

# Beynəlxalq müşahidəçilər ölkədəki seçki mühiti barədə məlumatlandırılıb




**Yanvarın 22-də Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurası Katibliyinin rəhbərinin müavini, MDB PA yanında Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (DİMBİ) direktoru İvan Muşket və fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar MDB PA müşahidə missiyasının digər üzvləri ilə onlayn formatda görüşüb.**

İvan Muşket MDB PA müşahidə missiyasının tərkibi və fəaliyyəti barədə məlumat verib, keçiriləcək seçkilərə hazırlıq prosesini öyrənmək məqsədilə bu cür görüşlərin əhəmiyyətini vurğulayıb.

YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq işləri haqqında məlumat verib. O, hazırda seçkiqabağı təşviqat kampaniyasının seçki qanunvericiliyi əsasında uğurla davam etdirildiyini vurğulayaraq yerli və beynəlxalq müşahidəçilərə seçki prosesinin bütün mərhələlərini izləmək üçün zəruri şəraitin yaradıldığını bildirib.

**XQ**

# “BİZ – Zəfər yoluna davam” soydaşlarımızı fəallığa çağırıb

**Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində 7 fevral növbədənkənar prezident seçkiləri ilə əlaqədar yaradılmış “BİZ – Zəfər yoluna davam” təşəbbüs qrupunun təşkilatçılığı ilə Avstriyada yaşayan soydaşlarımızın toplantısı keçirilib.**

Ölkəmizin Avstriyadakı səfiri Rövşən Sadıqbəyli çıxışında 20 Yanvar kimi faciəvi, eyni zamanda, qürurlu tarixə malik Azərbaycan xalqının bu gün ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək, uğurlu gələcəyə doğru inamla irəlilədiyini bildirib.

Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyev çıxışında Azərbaycan dövlətinin xaricdə yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərdiyini, problemlərinin həllinə çalışdığını diqqətə çatdırıb.

Müstəqilliyimizin bərpasından sonra bu il ilk dəfə işğaldan azad olunmuş ərazilərdə də seçki məntəqələrinin fəaliyyət göstərəcəyini deyən komitə sədrinin müavini səsvermə hüququ olan Azərbaycan vətəndaşlarını prezident seçkilərində fəal iştiraka dəvət edib.



Təşəbbüs qrupunun üzvləri çıxış edərək soydaşlarımızı qarşıdan gələn növbədənkənar prezident seçkilərində fəal iştirak etməyə, dövlətimizin yanında olduqlarını, onun gələcəyinə biganə qalmadıqlarını ifadə etməyə çağırıblar.

**XQ**

# Seçki marafonu ahəngdar, aşkarlıq şəraitində davam edir

## MSK-ya daxil olan müraciətlər Baş Prokurorluqda araşdırılacaq

**Məzahir Pənahovun sədrliyi ilə keçirilən Mərkəzi Seçki Komissiyasının növbəti iclasında komissiyaya daxil olmuş müraciətlərə baxılıb.**



Beynəlxalq müşahidə missiyası təmsilçilərinin, habelə media nümayəndələrinin iştirak etdiyi iclasda əvvəlcə həyata keçirilən araşdırılma prosesi barədə ətraflı məlumat verilib. Bildirilib ki, daxil olmuş müraciətlə əlaqədar, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvü tərəfindən hərtərəfli və obyektiv araşdırma aparılıb. Araşdırmadan sonra müvafiq rəy verilib və seçki qanunvericiliyində nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılaraq komissiya üzvlərinin müzakirəsinə təqdim olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında aparılan geniş müzakirələrdən sonra müraciətin aidiyyəti üzrə araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsinə qərar verilib.

## Xaricdə də səsvermə təşkil ediləcək

**Fevrlın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində xarici ölkələrdə uzunmüddətli ezamiyyətdə olan və ölkədən kənarda təhsli alan tələbələr – Azərbaycan vətəndaşları öz seçki hüquqlarından rahat istifadə edə biləcəklər. Bundan ötrü Xarici İşlər Nazirliyi tərəfindən artq müvafiq tədbirlər görülüb. Diplomatik nümayəndəlik və konsulluqlarımız öz tərəflərindən xaricdə yaşayan 18 yaşına çatmış Azərbaycan vətəndaşlarının seçici siyahılarını hazırlayaraq Mərkəzi Seçki Komissiyasına təqdim ediblər. Beləliklə, Seçki Məcəlləsinə əsasən, konsulluq siyahısına düşmüş seçicilərin sayı 50-dən artıq olan diplomatik nümayəndəlik və konsulluqda seçki məntəqələri yaradılıb.**

MSK-ya təqdim edilmiş məlumatlar əsasında, ümumilikdə, 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb. Bu məntəqələrdən 19-u Avropanın payına düşür. Belə ki, İsveç, Norveç, Finlandiya və Danimarkada olan Azərbaycan vərtəndaşları Stokholumda, İsveçrədə yaşayan həmvətənlərimiz Bern şəhərində, Böyük Britaniya və Şimali İrlandiya Krallğında yaşayan vətəndaşlarmız Londondakı səfirliklərimizdə səs verəcəklər. Fransada yaşayan, yaşı 18-dən yuxarı olan Azərbaycan vətəndaşları Parisdəki, Almaniyada yaşayan, işləyən və təhsil alan həmvətənlərimiz Berlindəki Azərbaycan səfirliyinin Mədəniyyət mərkəzlərində, Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğunda yaşayan vətəndaşlarımız Brüsseldəki Azərbaycan səfirliyində, Çex Respublikasında yaşayan seçki hüququ olan həmvətənlərimiz isə Praqakı səfirliyimizdə yaradılan 43 saylı seçki məntəqəsində səs verəcəklər.



Xaricdə yaşayan həmvətənlərimiz builki seçkilərdə seçki məntəqələrinə qürurla, qalib ölkənin vətəndaşı kimi üz tutacaqlar. İndi hər birimiz, dünya azərbaycanlıları ərazi bütövlüyünü tam təmin etmiş suveren bir ölkənin – Azərbaycanın vətəndaşlarıyıq. Bu gün hər bir Azərbaycan vətəndaşı bunun qürurunu yaşayır. Xaricdə yaşayan həmvətənlərimiz də bu qürur və iftixarla səsverməyə gedəcəklər.

## Dünyanın aparıcı media qurumları seçkilərə böyük maraq göstərir

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini izləmək istəyən beynəlxalq müşahidəçilərin sayı durmadan artır. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən verilən məlumata görə, beynəlxalq müşahidəçi qismində iştirak etmək üçün rəsmi nota göndərilən beynəlxalq təşkilatların əksəriyyəti müsbət cavab verib.**



Məlumatda bildirilir ki, XİN tərəfindən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna, Müstəqil Dövlətlər Birliyinə, İslam Əməkdaşlıq Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatına, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilata (GUAM), Türk Dövlətləri Təşkilatına və Qoşulmama Hərəkatının Gənclər Təşkilatına dəvət məqsədilə müvafiq notalar göndərilib. Mövcud prosedura əsasən həmin təşkilatlar üzv dövlətlərə müraciət edərək müvafiq ölkədəki seçkiləri izləməyə çağırılırlar. Dəvət göndərilən təşkilatların əksəriyyəti seçkilərə müşahidəçi göndərəcəyinə razılıq verib.

Növbədənkənar president seçkilərini izləmək məqsədilə dünyanın apariıcı medialarından da çoxsaylı müraciətlər daxil olub. Akkreditasiya prosesi yekunlaşdıqdan sonra onların dəqiq sayı barədə məlumat veriləcək.

## Ombudsman Aparatı seçki hüququnun tam gerçəkləşməsinə çalışır

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası ilə birgə fəaliyyət planı tərtib etdiklərim bildirib. Fəaliyyət planına əsasən, ölkədə silsilə tədbirlər keçirilir. İlk tədbirlər Bakı, Gəncə şəhərlərində, Şəki, Quba və Naxşıvanda olub.**



S.Əliyeva tədbirlər çərçivəsində vətəndaşların seçki hüququnun təmini haqqında təlimlər keçirildiyini vurğulayıb və bunun davamlı olacağını bildirib. O qeyd edib ki, Ombudsman təsisatı digər hüquqlar kimi seçki hüquqları da daxil olmaqla, vətəndaş və siyasi hüquqların daha səmərəli təmini və müdafiəsi sahəsində ardıcıl işlər görür, ölkəmizdə seçki hüquqlarının təmini vəziyyətini daim diqqətdə saxlayır, vətəndaşların seçki hüququnun müdafiəsi və təmin edilməsi vəziyyətini öyrənir, eləcə də Mərkəzi Seçki Komissiyası ilə birgə silsilə maarifləndirmə tədbirləri təşkil edir.

## "ORACLE ADVISORY GROUP" seçkiqabağı sorğu keçirəcək



**ABŞ-ın "ORACLE ADVISORY GROUP" təşkilatı Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı apardığı seçkiqabağı sorğuya dair tədbir təşkil edib. Tədbirdə təmsil etdiyi təşkilat barədə məlumat verən Vlada Galan "ORACLE ADVISORY GROUP" təşkilatının ABŞ, Macarıstan, Rumıniya, İsrail, Çexiya da daxil olmaqla, dünyanın bir çox ölkələrində seçki prosesini izlədiyini bildirib. O deyib ki, Azərbaycandakı seçkilər onların iştirak etdikləri 25-ci qlobal səsvermə olacaq. V.Galan ölkəmizdə keçirilən seçkilərdə artıq 5-ci dəfədir iştirak etdiklərini bildirib. Bəlli olub ki, təşkilat prezident seçkilərini üçüncü dəfə izləyəcək.**

Təşkilatın digər nümayəndəsi George Brinbaum Azərbaycanın 40 bölgəsində səsverməni müşahidə edəcəklərini deyib. O, Qarabağ və Şərqi Zəngəzura da gedəcəklərini və əsasən, 4-5 mövzu üzrə sorğular aparacaqlarını bəyan edib. Buraya əsasən, ölkənin iqtisadi vəziyyəti, təhlükəsizliyi, Qarabağdakı qazanılan uğurlar daxildir. Onun dediyinə görə, 25 nəfərdən ibarət nəzarətçi respublikanın 500 məntəqəsində müşahidə aparacaq. Sorğuda alimlərin, ziyalıların fikirləri də öyrəniləcək.

Hər 3 saatdan bir daxili hesabatın hazırlanacağını diqqətə çatdıran "ORACLE ADVISORY GROUP" təşkilatının nümayəndəsi seçkiqabağı sorğu ilə bağlı nəticələrin gələn həftə açıqlanacağını diqqətə çatdırıb.

Növbədənkənar prezident seçkilərində səsvermə günü "exit-poll" keçirmək üçün MSK-ya müraciət edənlərdən biri də Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasıdır. Liqa "exit-poll"u ABŞ-ın "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə keçirəcək.

## GUAM-ın missiyası da seçkiləri izləyəcək

**Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini beynəlxalq təşkilatların müşahidəçiləri də izləyəcək. Beynəlxalq müşahidəçilər sırasında GUAM-ın nümayəndələri də var. Qurumun katibliyindən vereilən məlumata görə, təşkilatın müşahidə missiyası fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini izləyəcək.**



Beş nəfərdən ibarət olacaq nümayəndə heyətinə GUAM-ın Baş katibi Altay Əfəndiyev, Ukrayna Ali Radasının deputatları Svyatoslav Yuraş, Mixail Papiyev, Gürcüstan parlamentinin deputatı David Matikaşvili və GUAM Katibliyinin proqram koordinatoru Teymuraz Kiladze daxildir.

GUAM-ın müşahidə missiyası səsvermədən sonra seçkinin nəticələrinə dair hesabat yayacaq.

## Ali Radanın nümayəndələri ölkəmizdə seçkiləri müşahidə edəcəklər



**Ukrayna Ali Radasından verilən məlumata görə, təşkilatın nümayəndə heyəti fevralın 7-də Azərbaycanda keçiriləcək prezident seçkilərini müşahidə edəcək. Müşahidə missiyasına Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratyuk başçılıq edəcək.**

Müşahidə missiyasına ukraynalı deputatlar – Ukrayna–Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux, Sergey Bunin və Ukrayna Ali Radası sədrinin müavini Olena Kondratyukun beynəlxalq məsələlər üzrə müşaviri Oleksandr Mişenko daxildir.

Ukrayna Ali Radasının müşahidə missiyası fevralın 4-8-də Azərbaycanda səfərdə olacaq, seçkinin nəticələrinə dair hesabat hazırlayacaq.

## Laçında 5 seçki məntəqəsi yaradılıb

**121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlər davam edir.**



On gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir. Treninq zamanı müzakirələr aparılır, iştirakçıları maraqlandıran suallar cavablandırılır. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur.

121 saylı Laçın seçki dairəsində fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkisi 109 məntəqədə keçiriləcək. Laçın rayonundan olan seçicilər respublikanın müxtəlif şəhər və rayonlarında səs verəcəklər. Məntəqələrin beşi işğaldan azad edilmiş ərazilərdə yerləşir.

## Məhkumlar da səs verəcəklər

**Azərbaycanda Prezident seçkilərinin təyin olunması ilə bağlı 07 dekabr 2023-cü il tarixli Sərəncamının icrasından irəli gələrək Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Baş idarəsində müşavirə keçirilib.**

Müşavirədə qarşıdan gələn növbədənkənar prezident seçkilərinin dövlətimiz və xalqımız üçün əhəmiyyətindən danışılıb, işğaldan azad edilmiş ərazilər əhatə olunmaqla respublikamızın bütün ərazisində baş tutacağı xüsusilə vurğulanıb. Seçkinin qanunvericiliyin tələblərinə tam uyğun və bütün müəssisələrdə təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkili məqsədilə tapşırıq və tövsiyələr verilib.

Qeyd olunub ki, Penitensiar xidmətin tabe qurumlarında saxlanılan azadlıqdan məhrum edilmiş məhkumların və həbs edilmiş şəxslərin, eləcə də Mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların seçki qanunvericiliyinə uyğun hüququnun təmin edilməsi, seçkilərə hazırlıq, seçki məntəqələrinin təşkili və seçici siyahısının hazırlanması məqsədilə Penitensiar xidmətin Seçki Qərargahı və Seçki Komissiyası yaradılıb. Həmçinin əməkdaşların da seçkilərdə iştirakının vacibliyi qeyd edilib.

*Səhifəni hazırladı:*
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Fransanın Cənubi Qafqaz maraqlarının 3 aspekti



### IV hissə

### Krevis, Petreus və İŞİD-in silahlandırılması

Beləliklə, Emmanuel Makron Henri Krevis və Jan-Pyer Jüyenin zəmanəti ilə Fransua Ollandın qapalı seçki komandasına daxil olur. Həmin dövrdə Dövlət Katibi Hillari Klintonun siyasi planlaşdırma direktoru Cek Sallivan məxfi məktub göndərmişdir və orada F.Ollandın komandasının 4 əsas namizədini göstərmişdir. Həmin namizədlər sırasında heç kəsin tanımadığı E.Makron da varmış. Və hətta “E.Makron büdcənin baş direktoru olmalıdır” proqnozu məktubda olmuşdur (bax: “Hollande Team”, e-mail by Jake Sullivan, May 10, 2012. Source : Wikileaks).

Lakin F.Olland prezident seçiləndən dərhal sonra (2012-ci il) E.Makronu Yelisey Sarayında baş katibin müavini təyin edirlər. Bundan küsən və qəzəblənən “yeni gizli siyasət ulduzu” F.Ollandın əleyhinə fəaliyyətə keçir. Onu hadisədən bir neçə gün sonra Bilderberq Klubunun iclasına dəvət edirlər. Orada E.Makron F.Ollandın əleyhinə çox kəskin ittihamlar irəli sürür. Və Yelisey Sarayına gələn kimi bütün kabineti istefaya göndərir!

Maraqlıdır, siyasətə gəlmək istəməyən bir adam hansı səbəblərdən bu qədər iddialı və qəzəbli olsun? Onu nələr buna vadar edə bilərdi? Həm də E.Makronun Bilderberq Klubundakı çıxışı NATO-nu razı salmışdı. Məsələ də elə bu məqamlarla bağlıdır. Bilderberq Klubunun əsas kadrları ilə əlaqə sayəsində F.Ollandın seçki komandasının qapalı qismində yer alan və böyük vəzifə gözləyən E.Makron hesab etmişdir ki, onu aldadıblar. Ona görə də həm kabineti istefaya göndərmiş, həm də 2012-ci ildə siyasətdən getdiyini bəyan etmişdir.

Lakin o, yenə də bilderberçilərin ciddi dəstəyi ilə Berlin Universitetində və London məktəbində yer ala bilir (bu işdə Makrona 2008-ci ildən Bilderberq Klubunun üzvü olan yazıçı Alen Mink dəstək olur), lakin Harvard E.Makronu qəbul etmir. 2014-cü ildə isə E.Makron 2008-ci ildən Bilderberq Klubunun üzvü olan Jan-Pyer Jüyenin təklifi ilə Fransanın iqtisadiyyat, sənaye və rəqəmsal işlər üzrə naziri təyin olunur!

Bu arada Henri Krevis yeni bir addım atır. O, özünün kəşfiyyat xidmətini yaradır – KKR Global İnstitute! Ona MKİ-nin keçmiş şefi Devid Petreus rəhbərlik etməyə başlayır. Nəticədə qısa bir müddətdə H.Krevis bir neçə milyard dollarlıq silah satır. Bunların əsasında T.Meysan belə nəticə çıxarır ki, Krevis və Petreus İŞİD-i silahla təmin edən başlıca mənbə olmuşlar (bax: “Заставить транснациональные корпорации оплачивать восстановление Сирии”, Тьерри Мейсан, Перевод Эдуард Феоктистов, Сеть Вольтер, 14 августа 2018).

### İkinci cəhd: Makronun pedaqoqluqdan siyasətə qayıtması

Ancaq E.Makronla bunlardan heç də az maraqlı olmayan olaylar baş verir. 2015-ci ildə Avstriyada və 2016-cı ildə Almaniyada Bilderberq Klubunun o dönəm sədri fransız Anri de Kastri Eduard Flipi yanına dəvət edir və Fransada prezident seçkisində Fransua Fiyona dəstək vermək barədə qərar qəbul edirlər. Hər şeyi E.Makronun “dostu” Jan-Pyer Jüye dəyişir. O, qısa bir müddətdə xanım Fiyonun şübhəli maliyyə fəaliyyəti ilə bağlı sənədlər təqdim edir. Bundan sonra A.de Kastri və E.Filip E.Makrona dəstək vermək qərarına gəlirlər. E.Makronun siyasi məcaraları yeni intensivlik alır.

2016-cı ildə E.Makron İsraildə Ariel Şaronun yaratdığı “Kadima” təşkilatının sturkturunun tam analogiyasında (deyəsən, özünün heç nəyi yoxdur, orijinal deyil) “En Marche!”i (“İrəli”) yaradır. Onun fəaliyyət proqramını Anri de Kastrinin rəhbərlik etdiyi təşkilatlar hazırlamışdılar. E.Makronun yaratdığı təşkilatın donorlarından biri…Henri Krevis idi.

Prezident seçkisi kampaniyası zamanı E.Makron bir neçə dəfə Bilderberq Klubuna üzv olan Beynəlxalq Valyuta Fondunun prezidenti D.S.Kannla görüşür. Onlar bunu inkar etsələr də, “Le Parisien” nəşrinin hazırladığı material hər şeyi dəyişir. Sən demə, 2000-ci ildən bilderberqçi olan D.S.Kann E.Makrona məmur aparatı və fransız sahibkarların ciddi dəstəyini vəd edibmiş.

Nəhayət, 2017-ci ildə E.Makron Fransanın prezidenti olur. 2022-ci ildə təkrar prezident seçilir. Bununla da uzun illər mübarizədən sonra Emmanuel Makron arzuladığı yüksək pilləyə qalxır. Lakin Fransanın Cənubi Qafqaz siyasəti haqqında bunu demək olmur.

Aydındır ki, E.Makron öncədən Bilderberq Klubuna bağlıdır. Belə asılılıq təbii ki, xarici siyasətdə də özünü göstərməli idi. Bu prizmada Fransanın Cənubi Qafqaz siyasətinin hər üç aspektdə qüsurlu olduğu aşkardır. Burada üzərində dayanılmalı olan konkret məqamlar mövcuddur.

Hər şeydən öncə, rəsmi Paris situasiyaya obyektiv yanaşa bilmir, ona subyektiv qiymət verir. Bu məqam bir vaxtlar ATƏT-in Minsk Qrupunda həmsədr olanda özünü daha qabarıq göstərib. Maraqlıdır ki, Minsk Qrupu yaradılanda E.Makronun siyasilər arasında heç adı belə yox idi. Lakin o vaxtdan bu yana Fransanın Cənubi Qafqaz siyasətində, demək olar, elə ciddi dəyişiklik də yoxdur. Fransa həmsədr kimi Ermənistanı necə birtərəfli dəstəkləyir və ona havadarlıq edirdisə, indi də elədir. Bununla yanaşı, rəsmi Paris 44 günlük Zəfər savaşından sonra daha süni surətdə və qərəzli tonda Ermənistana yardım edir. Bu yardımlar içərisində silah satışı məsələsi son zamanlar daha da intensivləşib. Bunun yuxarıda vurğuladığımız silah ticarəti ilə bir bağlantısı yoxdur ki?

Məsələ belədir ki, Suriyaya silah satışında Bilderberq Klubunun fəal üzvləri əsas rol oynayıblar. Onlar İŞİD-lə yanaşı, digər terror təşkilatlarını da silahlandırıblar. İndi eyni tendensiya Cənubi Qafqazda hiss olunur. Fransa regionda kəşfiyyat şəbəkəsi vasitəsi ilə ölkələrin daxili işlərinə qarışır və həm də təcavüzkar Ermənistanı silahlandırır. Bu məqamı nəzərdən qaçırmaq doğru olmazdı.

### Təcavüzkara dəstək: regionun geosiyasi bölünməsi

Digər tərəfdən, Fransa diplomatiyasının Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına vasitəçi kimi hansısa müsbət töhfə verdiyini xatırlaya bilmirik. Hətta, E.Makronun vasitəçi olmaq cəhdləri elə yarıtmaz hallarla müşaiyət olunub ki, onun bu xidmətindən imtina edilib. Nəticədə belə təəssürat yaranır ki, E.Makronu idarə edənləri regiondakı hansısa məqam qane etmir. Bunu anlamaq çətin deyil. Həmin məqam Azərbaycanın müstəqil və milli siyasət yeritməsi ilə bağlıdır. Yuxarıda E.Makronun Bilderberq Klubu kontekstində fəaliyyətinin qısa şərhi də göstərir ki, kimlərisə dövlət başçısı edənlər pullarını havayı xərcləmirlər: ciddi tələblər və çərçivələr qoyurlar! Cənubi Qafqazda da rəsmi Parisin kimin maraqlarını, ölkənin, yaxud maliyyə qaynaqlarının maraqlarını təmin etməyə çalışdığı qeyri-müəyyəndir.

Üçüncü məqam kimi E.Makronla N.Paşinyanın hakimiyyətə, təqribən, eyni vaxtda gəlmələrini və bu zaman siyasi texnologiyalarında oxşarlıqların olmasını vurğulaya bilərik.

> *“Siyasət elə tarixdir ki, onu hələ də düzəltmək olar”*
>
> *Ziqmund Qraff*

N.Paşinyan da E.Makron kimi siyasətin arxa planında olan adam olub. Onların hər ikisi kənardan dəstəklə siyasi karyeralarını qurublar. Biri Fransada “İrəli” yaratmış, o biri Ermənistadna “Mənim addımım” adlı təşkilat formalaşdırıb. Onların hər ikisi frankofoniyanın aktiv üzvləridirlər. E.Makronla N.Paşinyanın şəxsi münasibətləri də çox yaxındır.

Ən əsası isə odur ki, rəsmi İrəvan Parisin göstərişlərinə can-başla əməl etməyə çalışır. Hətta, ondan əsas qüvvə kimi istifadə edərək ədalətli sülh prosesinə əngəllər törədir. Təsadüfi deyil ki, İrəvanın müstəqil addım atmaq fikrini azacıq da olsa, qabartması Parisdə ciddi və kəskin reaksiyalar doğurur.

Nəhayət, Fransa Cənubi Qafqazda hansısa inteqrasiya prosesini baykot etməyə çalışan güc təsiri bağışlayır. Bunu Orta Dəhliz çərçivəsində atılan hər yeni addıma qarşı Ermənistanın əks mövqe qoymasından hiss etmək olur. Formasından asılı olmayaraq görünür ki, Orta dəhliz və onun bir hissəsi kimi Zəngəzur dəhlizinin obyektiv şərtlər daxilində fəaliyyətini arzulamırlar.

Bütün bunlarla yanaşı, Fransanın regional təhlükəsizlik sisteminin yaradılmasına əngəl olması daha təhlükəli və riskli vəziyyət yarada bilər. Çünki Ermənistanı silahlandırmaq xətti birbaşa regional sabitlik və əməkdaşlığın olmamasına çalışmaq deməkdir. Normal halda obyektiv vasitəçi rəsmi İrəvana anlatmalıdır ki, sülh müqaviləsini imzalamaq lazımdır. Başqa yolla regional əməkdaşlığın bərpası mümkünsüzdür. Bunun əvəzində, həm tərəflərdən birinə silah vermək, həm də digər tərəfə qarşı qərəzli sənədlər qəbul etmək regionun geosiyasi bütövlüyünə qəsddir.

### “İtirilmiş Fransa”!

Belə məlum olur ki, Fransa, hələlik, müəyyən dairələrin göstərişlərini yerinə yetirməklə, nə öz həqiqi dövlət maraqlarını təmin edə, nə də regional təhlükəsizliyə töhfə verə bilir. E.Makronun, bütövlükdə, siyasi karyerasının asılılıq üzərində qurulması vəziyyəti olduqca mənfi istiqamətə kökləyir. Belə görünür, silah ticarətçiləri daha çox gəlir naminə yenə də regiona qarşı kimlərisə yönəldə bilərlər. Silah ticarətinin nə qədər insana faciə gətirdiyini hər kəs yaxşı anlayır. Lakin böyük dövlətlərin başçılarının dolayısı ilə bu prosesdə olması əsl faciədir. Bu cür şəbəkənin əhatə və təsir dairəsi o qədər geniş ola bilər ki, onu aradan qaldırmaq imkansızlaşar.

Beləliklə, Fransanın Cənubi Qafqaz maraqlarının üç aspekti olsa da, onlar regionun bir ölkəsi ilə bağlıdır. Bu ölkə isə Ermənistandır. Rəsmi Parisin əsas məqsədi regionun tarixi ədalət və beynəlxalq hüquq çəçrivəsində sabitliyini və təhlükəsizliyini təmin etməkdən ibarət deyil. Daha doğrusu, Fransa dövlət olaraq bir qeyri-leqal təşkilatın maraqları naminə Cənubi Qafqazın geosiyasi mənzərəsini təhlükəyə atır. Aydın duyulur ki, regionda geosiyasi prosesləri süründürməçi və qarşılıqlı təhdidlərin hökm sürdüyü bir vəziyyətə gətirib, öz zamanını gözləmək istəyənlər var. O güc bunun üçün haqsıza silah satır, müxtəlif tədbirlərdə ona dəstək verir və 44 günlük savaşdan sonra Cənubi Qafqazda formalaşmış yeni geosiyasi reallıqlara zərər gətirməyə çalışır. Eyn zamanda, görünür ki, Cənubi Qafqaza yaxın regionlarda riskləri artırır, meydana yeni münaqişələr və hərbi toqquşmalar çıxarmağa cəhd göstərir. Bunların əksəriyyəti Cənubi Qafqazın sərhədləri yaxınlığında baş verdiyindən, istənilən an regiona sıçramaları ehtimalı mövcuddur. Bu da o deməkdir ki, Suriya ssenarisini burada təkrarlamaq istəyi var. Kimlərsə, silah satıb pul ələ keçirəcək, lakin milyonlarla günahsız insan həyatını bu və ya digər şəkildə itirəcək. Ya məhv olacaq, ya yetim qalacaq, ya da qaçqın olacaq!

Fransada elə bir daxili siyasi güc varmı ki, bu prosesdən ölkəni kənara çəksin? Bilmirik, lakin onu deyə bilərik ki, qafqazlıların şüurlarında Fransanın ənənəvi obrazı tədricən itir! Bu, “itirilmiş Fransa” deyimini aktuallaşdırır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

Diplomatik savaş

# Cığal iradlara sərrast cavablar

**Tənqid də, irad da gərək səmimi olsun – yalnız doğru söz inandıra, ictimai rəydə ciddi qarşılana bilər. Qeyri-səmimi, məkrli oldusa, o sözün müəllifi ziyanı seçdiyi hədəfə yox, özünə vuracaq, öz nüfuzuna xələl gətirəcək. Siyasi, diplomatik müstəvidə səmimiyyət məsələyə obyektiv münasibət sərgiləməyi, peşəkar yanaşmanı ehtiva edir. Qeyri-obyektiv, peşəkarlıqdan uzaq tənqid ilk növbədə tənqid edən tərəfin gizli məqsədini, ütülü cümlələrlə pərdələnmiş riyasını ortaya qoyur. Eynən son dövrlər bəzi dövlətlərin və beynəlxalq pasportlu qurumların ən müxtəlif məsələlərdə Azərbaycana münasibətində müşahidə olunduğu kimi.**



***Rəşad MƏCİD,***
***Azərbaycan Mətbuat Şurasının sədri***

Nə az, nə çox, otuz ildən sonra Azərbaycan öz torpaqlarının 20 faizini işğaldan, yüz minlərlə vətəndaşını ağır məcburi köçkün həyatından qurtardı, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Otuz il işğalçının barbar əməllərinə göz yummuş, hətta bir çox halda ən mötəbər kürsülərdən ona haqq qazandırmış bəzi dövlətlər və beynəlxalq qurumlar yenə Azərbaycana qarşı ədalətsiz, qərəzli, qısqanc mövqe sərgiləməkdən əl çəkmir, ölkəmizə təzyiqi gücləndirməyə çalışırlar. Açıq-aşkar görünür ki, Azərbaycanı irad tutmaq xatirinə tənqid hədəfinə çevirir, necə deyərlər, heç nədən ölkəmizə ilişməyə can atır, cığallıq edirlər.

Bu ilin ilk günlərində ABŞ Dövlət Departamenti dünya ölkələrində dini azadlıqların vəziyyətilə bağlı yaydığı illik hesabatında bir neçə ölkə ilə yanaşı, Azərbaycanda da dini etiqad azadlığının ciddi şəkildə pozulduğu iddiasını irəli sürdü. 30 il dini məbədləri erməni işğalçıları tərəfindən təhqir edilmiş bir ölkənin paytaxtında – Bakıda erməni kilsəsinin bir daşı da incidilməyib, eləcə də pravoslav, katolik kilsələri, yəhudi sinaqoqları, digər dini ibadətgahlar göz bəbəyi kimi qorunur. Ancaq yenə də multikultural dəyərlərə bu cür ən yüksək səviyyədə sayğı göstərən Azərbaycan hədəf seçilib.

Artıq heç kimə sirr deyil ki, Dövlət Departamentinin hesabatının Azərbaycana aid hissəsi Amerika Erməni Assambleyasının vəzifəli şəxslərindən biri, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən Daniella Aşbaxyanın rəhbərliyi ilə hazırlanıb. Deməli, neçə il ATƏT-in Minsk qrupunun həmsədri kimi Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi missiyasını istismar etmiş ölkələrdən birinin mühüm dövlət strukturu hələ də erməni yalanlarının yayılmasına alət olmaqdan əl çəkmir. Azərbaycanın həm Xarici İşlər Nazirliyi, həm də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ Dövlət Departamentinin din üzərinə köklənmiş ermənipərəstlik nağılının cavabını qətiyyətllə verdi.

Bu, 2020-ci il sentyabrın 27-dən başlanan, Azərbaycanın böyük Zəfəri ilə yekunlaşan Vətən müharibəsindən sonra ölkəmizə qarşı qabarmış diplomatık təzyiqlərin yalnız bir parçasıdır. Son illərin gündəminə nəzər salsaq, ayrı-ayrı ölkələrin, beynəlxalq qurumların belə haqsız və qərəzli ittihamlarına çox rast gələ bilərik. Amma bir az səhih araşdırma aparsaq görərik ki, bu məsələdə daha çox canfəşanlıq göstərən ölkə Ermənistanın havadarı rolunun ifaçısı Fransadır. O Fransa ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi hər vəchlə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktına söz yumub, erməni separatizmini dəstəkləyərək daima işğalçı tərəfə haqq qazandırmağa çalışıb.

Azərbaycanafob mövqeyi ilə seçilən bu dövlət ölkəmizə qarşı məkrli niyyətini Vətən müharibəsinin elə ilk günlərindən büruzə verməyə başladı. Məhz Fransanın səyi nəticəsində 2020-ci ilin 29 sentyabr və 19 oktyabr tarixlərində BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair müzakirələr keçirildi. Müzakirələrdən sonra qurumun sədri adından hazırlanan anti-Azərbaycan xarakterli bəyanat layihəsinin əsas müəlliflərindən biri də elə Fransa idi. Azərbaycanın haqq mübarizəsinə dəstək verən, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra o vaxt bəyanat layihəsi rəsmən geri götürüldü və Parisin arzusu, necə deyərlər, suya düşdü.

Anti-Azərbaycan mövqeyindən əl çəkməyən Fransa Vətən müharibəsindən təxminən iki il sonra - 2022-ci ildə yenidən meydana atıldı. Avropa İttifaqının təşəbbüsü ilə Azərbaycanla Ermənistan arasında vasitəçi olmağa səy göstərən, lakin burada da paxırı açılan və “kövrək sülhə töhfə vermək” şansını itirən rəsmi Paris növbəti dəfə BMT-yə üz tutdu və sentyabrın 12-də Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdiyi genişmiqyaslı təxribat nəticəsində iki gün davam edən döyüşlər zamanı qurumun Təhlükəsizlik Şurasının toplantısını çağırdı. Erməniləri zərərdidə gözündə görən Prezident Emmanuel Makron bu addımını, guya tərəflər arasında atəşkəsin əldə olunması cəhdi ilə izah etdi. Parisin oxu bu dəfə də daşa dəydi. Sentyabrın 15-də keçirilən toplantıda iki ölkənin hələ dəqiqləşməyən sərhədindəki eskalasiya məsələsi müzakirəyə çıxarılsa da, Azərbaycana qarşı ermənilərin və tərəfdarlarının arzuladıqları qətnamə qəbul edilmədi və gözləntilər baş tutmadı.

Amma hələ bu da son deyildi. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarına etiraz edən Azərbaycanın qeyri-hökumət təşkilatları nümayəndələrinin və ekofəalların Laçın-Xankəndi yolunda 2022-ci il dekabrın 12-dən başlatdıqları dinc aksiyadan əndişələnən Fransa yenə BMT Təhlükəsizlik Şurasına müraciət etdi, qurumun iclasını çağırdı. Dekabrın 20-21-də keçirilən o iclasda da istək hasil olmadı. Azərbaycanın uzaqgörən və düşünülmüş addımları, eləcə də Böyük Britaniya, Rusiya kimi ölkələrin bu təşəbbüsün əleyhinə çıxmaları nəticəsində ölkəmizin haqlı mövqeyi dəstək qazandı.

Ermənistan sevdasından əl çəkməyən Fransa bu ilə də “sürprizlə” başladı. Əli beynəlxalq qurumların dəstəyindən üzülən Paris Azərbaycana qarşı təkbaşına “mübarizəyə” qalxdı. Yanvarın 17-də Fransa Senatı Azərbaycanın ötən ilin sentyabr ayında Qarabağda keçirdiyi hərbi əməliyyatı pisləyən, Ermənistana hərbi dəstəyə, Azərbaycana qarşı sanksiyalara çağıran qətnamə qəbul etdi. Senatın bu bədnam qətnaməsinə Azərbaycanın reaksiyası gecikmədi. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin düşünülmüş cavabı, xüsusən, qəbul edilən bəyanatın sonuncu bəndləri - Fransanın əsarətində olan dövlətlərin müstəqilliyinin tanınması, iqtisadi məsələlərlə bağlı qarşı tərəfə adekvat reaksiyanın verilməsini nəzərdə tutan məqamlar cılız və yersiz iradlara Azərbaycanın sərrast və tutarlı cavabı idi.

İllər uzunu Azərbaycana münasibətini əsasən Ermənistanın müdafiəsi üzərində quran, hər dəfə də ədalətsiz mövqeyinə görə uğursuzluğa düçar olan Fransa ölkəmizə qarşı kin-küdurətini indi daha bir müstəvidə nümayiş etdirir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu il ölkəmizdə keçirilməsinə qərar veriləndən dərhal sonra “köhnə dost” Fransa yenidən hərəkətə gəldi. Bu tədbirə evsahibliyi edilməsində hətta Ermənistanın da Azərbaycanın namizədliyini dəstəkləməsi beynəlxalq aləmdə bir çoxlarını, o cümlədən, “ardıcıl erməni təəssübkeşi” Fransanı pəjmürdə elədi.

Ötən ay bu ölkənin bir qrup ictimai xadimi və bir neçə şəhərinin meri (eləcə də “erməni cəfakeşi” Paris meri Ann Hidalqo) bəyanat yayaraq COP29-un Azərbaycanda keçirilməsi qərarına etirazını bildirdi. Amma gec idi, necə deyərlər, qatar artıq getmişdi, qərar verilmişdi və onu dəyişmək mümkünsüz idi. Bu zaman təşəbbüsü ələ alan “Guardian” qəzeti COP29-un keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Prezidentinin sərəncamını hədəfə götürən “She Changes Climate” adlı hansısa hərəkatın qınağını tirajladı və COP28-ə evsahibliyi etmiş Birləşmiş Ərəb Əmirliyi ilə müqayisələr apardı. İddianın qərəzli olduğu ondan bilinirdi ki, Azərbaycandakı təşkilat komitəsində qadınların təmsil olunmaması ölkəmizdə gender bərabərliyinin pozulması kimi dəyərləndirilirdi. Halbuki bu bəyanatı yayan o hərəkat da, onu tirajlayan “Guardian” qəzeti də Avropanın bir parçası olan Azərbaycanda gender bərabərliyi ilə bağlı hansısa problemin olmadığını, ölkəmizdə qadınların ən nüfuzlu dövlət və hökumət strukturlarına kifayət qədər təmsil edildiyini bilməmiş deyillər.

Sadəcə, qərəz, ölkəmizə qarşı kin-küdurət əsl həqiqəti etiraf etməyə imkan vermir. Təşkilat komitəsinin tərkibinə gəlincə, Azərbaycanda qəbul edilmiş rəsmi protokola görə, hansısa mötəbər bir tədbirin keçirilməsi ilə bağlı təşkilat komitəsi yaradılanda ora konkret fəaliyyət sahələrinə cavabdehlik daşıyan şəxslərin – nazirlərin adları daxil edilir və protokol qaydasından irəli gələn məqamı hansısa mənfi tendensiya ilə əlaqələndirmək, yumşaq ifadə etsək, qeyri-peşəkarlıqdır. Yeri gəlmişkən, artıq bir neçə gün öncə ölkə Prezidentinin sərəncamı ilə sözügedən təşkilat komitəsinin tərkibində dəyişiklik edildi, komitə üzvlərinin sayı artırıldı və 12 nəfər qadının adı siyahıya əlavə olundu, Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri vəzifəsinə isə Heydər Əliyev Fondunun ətraf mühitin mühafizəsi və iqlim fəaliyyəti üzrə layihələrinin rəhbəri Nərmin Carçalova gətirildi. Bir faktı da qeyd edək ki, Nərmin Carçalova ötən il Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28-də Azərbaycan pavilyonunun layihə meneceri olub. Əslində, heç bir obyektiv müşahidəçi Azərbaycanda qadınların ictimai həyatda, dövlət strukturunda fəallığının əksini iddia etməz. Bu mövqe sadəcə qərəzin və qeyri-obyektiv münasibətin təzahürüdür.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində ən müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən, COP29-un ölkəmizdə keçirilməsi məsələsindən danışarkən bir sıra maraqlı məqamlara toxundu. COP29-un ölkəmizdə keçirilməsi qərarının Azərbaycanın dəqiq və düşünülmüş diplomatik addımlarının nəticəsi olduğunu, ölkəmizin beynəlxalq nüfuzunu böyük dərəcədə artıracağını vurğulayan dövlətimizin başçısı “dırnaqarası ənənəvi dostlarımızın” səsvermə ərəfəsində bir çox ölkələrə təzyiqlər göstərdiyini, onları Azərbaycana səs verməməyə təhrik etdiyini, tədbirin ölkəmizdə keçirilməsinə qərar veriləndən dərhal sonra isə bizə qarşı yenə media kampaniyası başlatdığını bildirdi. “Heç bir əsası olmadan və hətta mənim COP29-a təyin etdiyim bizim ekologiya nazirini də atəşə tutdular ki, o, uzun illər neft şirkətində işləyib. Bu, nə deməkdir?.. Bu adam neft şirkətində ekologiya üzrə vitse-prezident vəzifəsində işləyib. Ondan sonra altı ildir ki, ekologiya naziri işləyir...

Hər halda bunlar təbiidir, çünki bütün beynəlxalq tədbirlər keçiriləndə biz belə bir kampaniya ilə üzləşirik... Yəni necə deyərlər, artıq bu, olmasa, biz təəccüblənərik. Əcəba, nə olub? Nəyi düzgün etməmişik ki, bizi indi tərifləyirlər Qərbdə. Yəni əgər onlar bizi tərifləyirlərsə, deməli, nəsə biz, necə deyərlər xəta törətdik” – deyən dövlətimizin başçısı xarici mətbuatda yazılan belə fikirləri gülüşlə qarşıladı. İrad, tənqid yerində olmayanda, qərəzli olanda yalnız gülüş doğurur. Bu gün Azərbaycan öz tarixinin ən qürurlu dövrünü yaşayır. Azərbaycan Prezidentinin jurnalistlərə müsahibəsində ötən ilin sentyabrındakı lokal antiterror tədbirləri ilə bağlı dediyi kimi, çoxəsrlik tariximizdə belə bir zəfər olmayıb. Doğrudan da, bu zəfəri qısqananlar, istəməyənlər çoxdur, beləleri nə olur-olsun Azərbaycana irad tutmağa həvəslidirlər. Bu iradlar bəzən o qədər yersiz, cığal görünür ki, həmin iradı tutanlara elə gülümsəməklə, ironiya ilə cavab vermək lazımdır.

# Mübarizə və qəhrəmanlıq sərhəd tanımır

## 20 Yanvar faciəsinin qurbanları xaricdə də ehtiramla yad edildi



**Hər il olduğu kimi, bu il də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı xarici ölkələrdə çoxsaylı tədbirlər keçirilib.**

### Çin

"XQ"nin məlumatına görə, Azərbaycanın Çindəki səfirliyində keçirilən anım mərasimində bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər. Səfir Bünyad Hüseynov faciənin səbəbləri və o zaman hökm sürən ictimai-siyasi vəziyyətlə bağlı geniş məlumat verərək bildirib ki, dövlətin öz əliyalın vətəndaşlarının üzərinə ağır zirehli hərbi texnika göndərməsi, dinc əhalinin güllələnməsi, baran edilməsi misli görünməmiş qanlı cinayət idi. SSRİ rəhbərliyi qətliamı gizlətməyə çalışsa da, Heydər Əliyevin qətiyyəti nəticəsində faciə dünya ictimaiyyətinin diqqətinə olduğu kimi çatdırılıb, ona hüquqi-siyasi qiymət verilib. Diplomat vurğulayıb ki, 20 Yanvar hadisələri Azərbaycan tarixində böyük rəmzi məna daşıyan şanlı səhifələrdən biridir. Həmin hadisələr zamanı onlarla mülki şəxsin öldürülməsi, yaralanması və həbs olunması xalqımızı qorxutmayıb, əksinə, daha sıx birləşdiyib.

### Rusiya

**Azərbaycanın Rusiyadakı səfirliyində keçirilən toplantı səfir Polad Bülbüloğlu və səfirlik əməkdaşlarının diplomatik nümayəndəliyin girişində faciə qurbanlarına həsr olunan bannerin qarşısına gül qoymaları ilə başlayıb.**



Bildirilib ki, ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin binasına gələrək burada mətbuat konfransı keçirib, törədilən cinayətləri kəskin şəkildə pisləyib, onları dinc əhaliyə qarşı terror adlandıraraq, siyasi-hüquqi qiymət verilməsini və səbəbkarların cəzalandırılmasını tələb edib, bununla da Azərbaycan xalqı ilə həmrəyliyini nümayiş etdirib.

P.Bülbüloğlu çıxışında həmin qanlı günlərdə baş verənləri ətraflı təsvir edib, eləcə də öz xatirələrini bölüşüb.

***

**Sankt-Peterburqda keçirilən tədbir "Sankt-Peterburq və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" ictimai təşkilatı və şəhərdəki baş konsulluğumuz tərəfindən birgə təşkil edilib.**

Baş konsul Sultan Qasımov çıxış edərək, o qanlı gecədə baş verən hadisələrdən danışıb.

### Fransa

**Azərbaycanın Fransadakı səfirliyi və UNESCO yanında daimi nümayəndəliyin birgə təşkilatçılığı ilə Parisdə 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla anılıb.**



Səfir Leyla Abdullayeva, daimi nümayəndə Elman Abdullayev, Fransadakı diplomatlarımız Sen-Klu qəbiristanlığına gələrək, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Versal sülh konfransında iştirak etmiş nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşovun, nümayəndə heyətinin üzvü Ceyhun Hacıbəyovun məzarlarını ziyarət edib və əklil qoyublar.

Sonra Azərbaycan xalqının milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəsindən danışılıb. 20 Yanvarın yaddaşlara həm hüzn və qürur, həm də milli azadlığın oyanış günü kimi həkk olunduğu vurğulanıb. Bildirilib ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilib, Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub. 20 Yanvar, eləcə də Qarabağ müharibəsi şəhidlərinin qisası alınıb.

***

**Ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəliyində Strasburqda yaşayan Azərbaycan icması üzvlərinin iştirakı ilə baş tutan tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**




Daimi nümayəndə Fəxrəddin İsmayılov yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş hadisələrin ölkəmizin müstəqillik mübarizəsindəki rolundan bəhs edib, həmin hadisələrin xalqımızın yenilməz iradəsinin rəmzinə çevrildiyini söyləyib. O qeyd edib ki, üstündən uzun illər keçməsinə baxmayaraq, sovet qoşunlarının Azərbaycanda törətdiyi qırğının ağrı-acısı unudulmayıb və şəhidlərin xatirəsinin qəlbimizdə əbədi yaşayır.

Azərbaycan icmasının üzvü Mustafa Alınca 20 Yanvar hadisələrindən sonra Strasburqda Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə aparılan fəaliyyətlərdən danışıb, məhz bu faciənin azərbaycanlıların təşkilatlanmasını zərurətə çevirdiyini deyib.

### İsveçrə

**Azərbaycanın BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi 20 Yanvar şəhidlərinin xatirəsinə ehsan verib.**

Mərasim Cenevrə İslam Mədəniyyəti Fondu nəzdində fəaliyyət göstərən məsciddə şəhərdə məskunlaşan qaçqın, yoxsul və ehtiyacı olanlar üçün təşkil edilib. Daimi nümayəndəlik əməkdaşları tərəfindən məscid ziyarətçilərinə qanlı Yanvar hadisələri barədə ətraflı məlumat verilib, hadisə qurbanlarının ruhuna dualar oxunub.

### İsrail

**İsrailin Yerusəlim və Afula şəhərlərində də anım tədbirləri keçirilib. "Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının Yerusəlimdəki şöbəsinin təşkilatçılığı ilə baş tutan tədbirdə qurumun rəhbəri Aleksandr Aqranovski həmin məşum gecədə baş verənlərdən danışıb.**

Assosiasiyanın vitse-prezidenti, Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman diqqətə çatdırıb ki, Azərbaycanı təmsil edən soydaşlarımız harada yaşamalarından asılı olmayaraq, onlar da sovet silahlı qüvvələrinin aralarında uşaqların, qadınların və qocaların olduğu günahsız sakinlərə qarşı törətdiyi qanlı qırğını unutmurlar. Həmin günlərdə müxtəlif millətlərdən olan vətəndaşların, o cümlədən yəhudi əsilli azərbaycanlılar Yan Meroviç, Aleksandr Marxevka və Vera Bessantinanın da şəhid olduqları vurğulanıb.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsinin təqdim etdiyi "Qanlı qərənfillər" sənədli filmi nümayiş etdirilib. Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Afulanın mərkəzi kitabxanasında keçirilən anım tədbirində də bu film nümayiş etdirilib. Müxtəlif millətlərin nümayəndələrinin qatıldıqları tədbirdə Azərbaycan tarixinin ən kədərli səhifələrindən olan 20 Yanvar faciəsi barədə məlumat verilib, hadisə şəhidlərinin xatirələri səsləndirilib.

### Almaniya

**Azərbaycanın Almaniyadakı səfirliyində keçirilən toplantıda səfir Nəsimi Ağayev qanlı Yanvar faciəsinin Azərbaycan xalqının əzmini qıra bilmədiyini, əksinə onun azadlıq uğrunda mübarizəsini daha da alovlandıraraq respublikada sovet hakimiyyətinə son verdiyini və 1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyini vurğulayıb.**

Azərbaycan–Almaniya Forumunun icraçı direktoru Pərviz Yazdani çıxışında 20 Yanvar faciəsinin Azərbaycan xalqının milli özünüdərk prosesindəki rolundan danışıb. Almaniyanın yenidən birləşməsi və Azərbaycanın SSRİ-dən ayrılaraq öz müstəqilliyini bərpa etməsi arasında müqayisə aparan Yazdani 20 Yanvar faciəsinin Azərbaycan xalqının tarixi yaddaşına əbədi həkk olunduğunu bildirib.

Tədbir Berlində fəaliyyət göstərən azərbaycanlı pianoçu Fidan Ağayeva-Edlerin ifası ilə davam edib. Anım tədbiri çərçivəsində, həmçinin faciə ilə bağlı fotosərgi təşkil olunub.

### Qətər

**Qətərdəki səfirliyimizdə keçirilən mərasimdə Azərbaycan icmasının nümayəndələri və səfirliyin əməkdaşları iştirak ediblər.**



Faciənin baş verdiyi dövrə nəzər salan səfir Mahir Əliyev o günlərin gərgin ictimai-siyasi hadisələrindən, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarından söz açıb, faciəni törədənlərin məqsədinin Azərbaycan xalqının iradəsini qırmaq, azadlıq eşqini məhv etmək istəyi olduğunu vurğulayıb.

20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanat Qətər XİN-ə və ölkədə akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndəliklərinə göndərilib. Tədbirin sonunda şəhidlərin xatirəsinə ehsan süfrəsi açılıb.

### Gürcüstan

**Gürcüstanın Saqareco rayonunun Qaraçöp kəndində (Yor-Muğanlı) 20 Yanvar və 9 Aprel şəhidlərinin xatirəsi yad olunub.**

Səfirlik əməkdaşları, Saqareco rayonunun meri Aftandil Qulikaşvili, ictimaiyyət nümayəndələri, 20 Yanvar şəhidi Ələsgər Qayıbovun yaxınları, məktəblilər Qaraçöp kəndindəki "Şəhidlik" memorialı önünə əklil qoyub, gül dəstələri düzüblər.

Səfir Faiq Quliyev Azərbaycan və gürcü xalqlarının müstəqillik uğrundakı mübarizəsindən, sovet imperiya qüvvələrinin xalqlarımızın mübarizə əzmini qırmaq üçün törətdiyi dəhşətli cinayətlərdən, vəhşiliklərdən söz açıb. Bildirib ki, imperiya qüvvələri 1989-cu il aprelin 9-da Gürcüstanda və 1990-cı il yanvarın 20-də Azərbaycanda qırğınlar törətsə də, heç nəyə nail ola bilməyiblər. Xalqlarımız şəhidlərin qanı bahasına suverenliyini bərpa edib, müstəqil dövlət qurublar. Diplomat bildirib ki, 20 Yanvar faciəsi zamanı 6 Gürcüstan azərbaycanlısı şəhid olub. Onlardan biri də Qaraçöp kənd sakini Ələsgər Yusif oğlu Qayıbovdur. Azərbaycan və gürcü xalqları öz qəhrəmanlarını heç zaman unutmayacaqlar, onların əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Mer Aftandil Qulikaşvili bildirib ki, qəhrəman övladlarımızın qanı-canı bahasına qazanılan müstəqillik heç zaman süquta uğramayacaq. Sonra səfirliyin əməkdaşları və kənd ağsaqqalları şəhidin doğulduğu evdə olub, ailə üzvləri və yaxınları ilə görüşüblər.

### Səudiyyə Ərəbistanı

**Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyində keçirilən anım tədbirinə səfirliyin akkreditə olunduğu Bəhreyn və Omanda yaşayan həmvətənlərimiz də virtual formatda qoşulublar.**

Səfir Şahin Abdullayev 20 Yanvar faciəsi barədə danışıb. Baş verənləri dəhşətli cinayət adlandırıb. Daha sonra həmvətənlərimiz faciə ilə bağlı ürək sözlərini bölüşüblər. Səudiyyə Ərəbistanında yaşayan həmvətənlərimiz Mətanət Süleymanova (Duyğulu) və Nigar Xəlilova 20 Yanvar faciəsinə həsr etdikləri şeirləri oxuyublar.




Tədbirdə Omanda yaşayan azərbaycanlı musiqiçi Emilya Mütəllibzadənin 20 Yanvar faciəsinə həsr etdiyi videoçarx nümayiş etdirilib.

### ABŞ

**Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunda "1990-cı ilin Qara Yanvarı: Azərbaycanın azadlığa gedən yolu" adlı anım mərasimi düzənlənib.**

Mərasimdə Los Ancelesdə fəaliyyət göstərən xarici ölkələrin baş konsulları, şəhərdəki konsulluq korpusunun nümayəndələri, elm və mədəniyyət xadimləri, dost icmaların rəhbərləri və icma üzvləri, yerli universitetlərin professorları, Azərbaycan icmasının üzvləri və digərləri iştirak ediblər.

Baş konsul Ramil Qurbanov çıxış edərək, qanlı 20 Yanvar hadisələri barədə məlumat verib. Çıxışın ardınca faciə ilə bağlı Baş Konsulluq tərəfindən hazırlanmış qısa film nümayiş olunub.

Daha sonra Bakıda doğulan məşhur violonçel ifaçısı Ruslan Biryukov çıxış edərək, Qara Yanvar faciəsi, həmin dövrdə Bakıda yaşayan ailəsi ilə birgə şahid olduğu hadisələr və baş verənlər barədə acı xatirələrini bölüşüb.

Tədbirin davamında Ruslan Biryukov və pianoçu Valeriya Morqovskayanın ifasında Fikrət Əmirovun "Poema monoloq", Qabriel Furenin "Yuxudan sonra" və Arif Məlikovun "Məhəbbət əfsanəsi" əsərləri səsləndirilib.

### Çex Respublikası

**Ümumxalq Hüzn Günü ilə bağlı Çex Respublikasındakı səfirliyimizdə keçirilən tədbirdə çıxış edən səfir Adış Məmmədov müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın keçdiyi yol, əldə etdiyi iqtisadi yüksəliş, xalqımızın qəhrəmanlıq salnaməsində yeni parlaq səhifə olan 44 günlük Vətən müharibəsi və postmünaqişə mərhələsində həyata keçirilən işlər barədə iştirakçıları məlumatlandırıb.**

Müstəqilliyimizin qorunması və torpaqlarımızın işğaldan azad olunması uğrunda xalqımızın apardığı müqəddəs mübarizənin kökündə 20 Yanvar ruhunun dayandığını deyən səfir bu ruhun həmişə yaşayacağına əminliyini ifadə edib. Tədbir çərçivəsində Qanlı Yanvar hadisələrini əks etdirən videoçarx nümayiş olunub və fikir mübadiləsi aparılıb.

### İtaliya

**İtaliyadakı səfirliyimizdə keçirilən anım tədbirində bildirilib ki, ötən əsrin sonlarında Azərbaycan xalqının başladığı azadlıq, müstəqillik, dövlətçilik mübarizəsi çətin, lakin şərəfli yol keçərək bu gün daha əzmlə davam etməkdədir.**

Bu mübarizənin yaxın keçmişimizdəki ən şanlı səhifələrindən biri də 1990-cı il 20 Yanvar hadisələridir. Dövlətimizə qarşı daim xain planlar hazırlayan qüvvələr 1990-cı ildə xalqımızın misli görünməmiş həmrəyliyi və birliyi nəticəsində böyük uğursuzluğa düçar oldular. Həmin düşmənlərə qarşı ikinci belə cavabı xalqımız məhz 44 günlük Vətən müharibəsində bir daha verdi.

### Rumıniya

**Buxarest şəhərinin "Tey" parkında yerləşən ulu öndər Heydər Əliyevin büstü önünə Rumıniya–Azərbaycan Dostluq Cəmiyyətinin, "SOCAR Petroleum SA" şirkətinin nümayəndələri, səfirliyin əməkdaşları gül dəstələri düzüblər.**

Səfir Qüdsi Osmanov çıxış edərək 20 Yanvar hadisələrini Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin dönüş nöqtəsi adlandırıb, bu hadisələrin xalqımızın tarixində faciə ilə yanaşı qəhrəmanlıq ehtiva etdiyini söyləyib.

### Niderland

**Haaqada Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin keçirdiyi tədbiri dərnəyin rəhbəri Tuğrahan Aşkın açıb və faciə haqqında məlumat verib. Sonra "Öndört Masumlar" məscidinin İmamı Şeyx Mehmet Olqun şəhidlərin ruhuna dualar oxuyub.**

Niderland Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin rəhbəri İlhan Aşkın, eləcə də Azərbaycanın Niderland Krallığındakı səfirliyinin birinci katibi Səbinə Sadıqlı tədbir iştirakçılarına 20 Yanvar faciəsinin ölkəmizin tarixindəki rolundan danışıb, onun müstəqilliyimizin bərpası yolunun başlanğıcı olduğunu bildiriblər. Eyni zamanda vurğulanıb ki, Vətən müharibəsində ərazi bütövlüyünü bərpa edən Azərbaycan bu gün bölgədə sülh gündəliyi həyata keçirir.

***

**Ümumxalq Hüzn Günü ilə bağlı ölkəmizin Belarusdakı, Özbəkistandakı, Xorvatiyadakı, Macarıstandakı, Latviyadakı səfirliklərində, Qazaxıstanın Aktau şəhərindəki Baş Konsulluğunda da anım mərasimləri keçirilib.**

Litvanın Veyseyay şəhərindəki Mədəniyyət evində "Azərbaycan və Litva müstəqillik yolunda: 1990-cı və 1991-ci illərdə Bakıda və Vilnüsdə Yanvar hadisələri" adlı fotosərgi təşkil olunub.

Bundan əlavə, anım günü ilə əlaqədar İordaniya, Misir, Bəhreyn, Malayziya, İsveç və Litvanın media orqanlarında yazılar dərc olunub.

### Britaniya

**20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Britaniya Parlamentinin Nümayəndələr Palatasında ilkin qanunvericilik təşəbbüsü irəli sürülüb.**

Qanunvericilik təşəbbüsündə 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıya yeridilməsi nəticəsində 150-yə yaxın mülki şəxsin həlak olduğu qeyd edilib. Parlamentdə Azərbaycanla dostluq qrupunun sədri Bob Blekmən tərəfindən irəli sürülmüş bu təşəbbüsdə 20 Yanvar hadisələrini yad etməklə bağlı bütün parlamentariləri çağırış ünvanlanıb.

**Səxavət HƏMİD**
**XQ**

# Müqəddəs ruhlara əbədi ehtiram

## Şəhidlər xiyabanından reportaj



**Düz 34 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş vermiş facia xalqımızın qan yaddaşına yazılıb. Hər il olduğu kimi, növbəti ildönümündə də səhər saatlarından paytaxt sakinləri böyük izdihamla Şəhidlər xiyabanına axın edərək faciə qurbanlarının ruhuna dərin ehtiramlarını bildiriblər.**

Qərənfil dənizinə dönən xiyabandakı mənzərələr şəhidlərimizin qazandığı şöhrətin əbədi olduğuna bir daha dəlalət edib.

Ziyarətçilər arasında müxtəlif yaşlı insanlar var. Vətən müharibəsi qaziləri, hərbi qulluqçular, dövlət təşkilatlarının nümayəndələri, veteranlar, gənclər, məktəblilər əllərində üçrəngli bayraqları və qərənfil dəstələri ilə ziyarətə gəlmişdilər. Onların bir neçəsindən qısa müsahibələr aldıq. Məşum gecəni xatırladılar, duyğu və düşüncələrini dilə gətirdilər...

**Arzu Hüseynova, Respublika Qadınlar Cəmiyyətinin sektor rəhbəri, idman ustası, məşqçi:**



– Həmin gecəni yaxşı xatırlayıram. Heç birimiz Yaşma və Sumqayıt istiqamətində, aeroport yolunda hərəkətə gələn sovet tanklarının Bakıya daxil olmasını, faciə törətməsini istəmirdik. Ancaq qaniçən ordunun on minlərlə silahlı kontingenti həmin gecə paytaxtımıza girərək, günahsız insanların qanını axıtdı. Azadlıq həmişə qurban tələb edir. Bu gün 20 Yanvar milli tariximizin yalnız faciəsi yox, həm də mübarizlik, qəhrəmanlıq salnaməsidir.

İkinci Qarabağ müharibəsində tələbəm olmuş Sübhan Əbdürrahmanlı və Elvin Abbasov şəhadət zirvəsinə yüksəliblər. Sübhan 2020-ci il oktyabrın 6-da Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirən zamanı, Elvin isə noyabrın 7-də Şuşa azad edilərkən şəhid olub. Bu gün həm 20 yanvar, həm də Qarabağ şəhidlərimizin ruhu şaddır, çünki Azərbaycanımız dövlət müstəqilliyi qazanıb, ərazi bütövlüyü tam bərpa olunub. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Xədicə Yusifova, İkinci Qarabağ müharibəsinin şəhidi İmaməddin Yusifovun bacısı:**



– Bu gün ailə üzvlərimizlə birlikdə şəhidlərizi anmağa gəlmişik. 20 Yanvar hadisələri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılıb. Vətənin müstəqilliyi, suverenliyi uğrunda canlarını qurban verən şəhidlərin xatirəsi həmişə qəlbimizdə yaşayır. Azadlığımızın, istiqlalımızın carçısı olan qəhrəmanları hər zaman böyük ehtiramla, sevgi ilə anırıq!

**Yasin Xəlilov, Bakı sakini:**



– Şəhidlərimizin ruhu qarşısında baş əymək üçün buradayam. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyatını qurban verərək şəhidlik zirvəsinə ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Çünki ərazi bütövlüyümüz naminə canından keçən Vətən övladları ən böyük məhəbbətə və ehtirama layiqdirlər. Azərbaycan var olduqca şəhidlərimiz də hər zaman qəlbimizdə yaşacaqlar! Allah şəhidlərimizə rəhmət eləsin!

**Nazim Hüseynov, keçmiş məcburi köçkün, “Kobra” ləqəbi ilə tanınan keçmiş döyüşçü:**



– Şəhidlərimiz Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda canlarını fəda etdilər. Artıq torpaqlarımız azaddır, şəhidlərimizin ruhu da şaddır. Bu ölməz qəhrəmanları yad etmək, onları anmaq bizim çiyinlərimizə düşən əsas vəzifədir. Onları daim xatırlayacağıq.

**Könül Aslan, Sumqayıt şəhərindəki 30 nömrəli orta məktəbin müəllimi:**



– Bu gün şəhidlərimizin xatirəsini ehtiramla yad etdikcə bir könül rahatlığı tapırıq. Onlar heç nədən çəkinmədən, əliyalın şəkildə tankların qabağına çıxıb, mərkəzi hakimiyyətin ayrı-seçkilik siyasətinə, ermənipərəst davranışlarına etirazlarını bildirib, ölümün gözünə dik baxıblar. Şəhidlik ən uca qəhrəmanlıq zirvəsidir və bu uca məqama yüksələn igid oğul və qızlarımızın əziz xatirəsini bu gün böyük fəxarət və qürur hissi ilə yad edirik.

**Nabat Hüseynova, Bakı sakini:**



– Şəhidlərimizin qanı hesabına tariximizə pozulmaz zəfər səhifələri yazıldı. Vətənimizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş bu ölməz qardaş və bacılarımız hər birimiz üçün fəxarət ünvanıdır, and yeridir. İstiqlaliyyət uğrunda mübarizənin başlanğıcı olan 20 Yanvar şəhidləri bizim ürəklərimizin başında özləri üçün taxt-tac qurublar. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizi qorusun. Dövlətimiz var olsun.

Şəhid məzarlarının başına dolanan, sinə daşlarının üstünə gül qoyub ağlayan kim, qürurla dayanaraq dualara qulaq asan, dalğalanan üçrəngli bayraqlara baxan kim... misli görünməmiş vəhşiliklə dinc əhaliyə divan tutanlara qarşı çöhrəsindən nifrət oxunanlar da çoxdur, şəhidlərin arzularının həyata keçməsinə görə mənəvi rahatlıq tapanlar da. Bir daha şahidi oluruq ki, bu Vətən uğrunda savaşda canını sipər edənlər, həqiqətən də, yurdu yaşadanlardır. Şair doğru deyib:

*İnsan böyüyür beşikdə*
*məzarda yatmaq üçün,*
*Qəhrəmanlar can verir*
*yurdu yaşatmaq üçün...*

***Elşən AĞALAR***
***XQ***

## Bölgələrdə anım tədbirləri



### Naxçıvan

**Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında da 20 Yanvar faciəsinin ildönümü münasibətilə anım mərasimləri keçirilib.**

Muxtar respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, “Naxçıvan qaziləri” İctimai Birliyinin üzvləri və yüzlərlə sakin Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gələrək Vətən qurbanlarının məzarlarını ziyarət ediblər, qəbirlərin üzərinə tər qərənfillər düzüblər.

Ziyarətçilər xiyabandakı “Ana heykəli”ni və 1918–1920-ci illərdə erməni cəlladları ilə mübarizədə Naxçıvanın köməyinə gəlmiş qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni də ziyarət edərək önünə güllər qoyublar.

Səlahiyyətli nümayəndə xiyabanda şəhidlərin ailə üzvləri ilə görüşüb, onlara muxtar respublika rəhbərliyinin ehtiramını ifadə edib.

### Sumqayıt



**“Qanlı yanvar” hadisələri zamanı Sumqayıt–Bakı magistral yolunun 24-cü kilometrliyində, Ceyranbatan qəsəbəsi ərazisində sumqayıtlı alimlər – İbrahim İbrahimov, İsmayıl Mirsaqulov və Svetlana Məmmədova sovet ordusunun zirehli texnikasının altına salınaraq şəhid olublar.**

Ötən şənbə günü də anım mərasimi eyni qaydada keçirilib. Mərasim iştirakçıları şəhərin Şəhidlər xiyabanında olub, Vətən uğrunda canlarından keçmiş igidlərin məzarları üzərinə gül dəstələri düzülüb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri və qazilər, ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanında ucaldılmış “Qalib Əsgər” abidəsini və Vətənimizin qəhrəman övladlarının məzarlarını ziyarət ediblər.

### Gəncə



**Qədim şəhərin Şəhidlər xiyabanında təşkil olunan anım mərasimində əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş hərbçilərin adları əks olunan abidə ziyarət olunub, sonra “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.**

Saat 12-də şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillər vasitəsilə səs siqnalları verilib.

Mərasimdən sonra şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov və digər rəsmilər Gəncənin 20 Yanvar şəhidi Valeri Boqdanovun və Vətən uğrunda canlarını fəda edən digər şəhidlərin məzarlarına gül dəstələri düzüblər. Şəhərin Xətai prospektində yerləşən “20 Yanvar” abidəsi də ziyarət olunub. Şah Abbas Cümə Məscidində, Aleksandr Nevski Rus Pravoslav Kilsəsində və Yəhudi Dini İcmasında 20 Yanvar şəhidlərinin ruhuna dualar oxunub.

### Şəmkir

**20 Yanvar şəhidlərini ehtiramla yad edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, o cümlədən rayon ictimaiyyəti əvvəlcə Şəmkir şəhərində yerləşən 20 Yanvar qurbanlarının xatirəsinə ucaldılmış abidə önünə gül dəstəsi qoyublar.**

Matəm əlaməti olaraq rayon ərazisində Azərbaycanın Dövlət Bayrağı endirilib, şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunub və nəqliyyat vasitələrindən səs siqnalları verilib.

Sonra tədbir iştirakçıları Şəmkir Şəhidlər xiyabanını ziyarət edərək, azadlıq aşiqlərinin ruhları qarşısında baş əyiblər.

Anım mərasimində çıxış edən RİH başçısı Rəşad Tağıyev bildirib ki, 34 il əvvəl Bakıda və digər şəhərlərdə sovet ordusunun törətdiyi dəhşətli hadisələrdə qəhrəman oğul və qızlarımız Azərbaycanın suverenliyi, müstəqilliyi, azadlığı, bugünümüz, ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını qurban veriblər.

### Mingəçevir

**Nur şəhərində 20 Yanvar faciəsi qurbanlarının nurlu xatirəsi böyük ehtiramla yad olunub.**

İldönümü ərəfəsində şəhərin Şəhidlər xiyabanı ərazisində “20 Yanvar” abidə-kompleksinin ətrafı tam abadlaşdırılaraq qaydaya salınmış, insanların ziyarəti üçün hər cür şərait yaradılmışdır. Mingəçevir Dövlət Dram Teatrının yaradıcı kollektivi isə faciə ilə bağlı ədəbi-bədii kompozisiya hazırlayaraq təqdim edib.



Yanvarın 20-də səhər Şəhidlər xiyabanına gələn şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov, aparatın məsul şəxsləri, YAP şəhər təşkilatının rəhbərliyi və fəalları, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid ailələrinin üzvləri, veteranlar, müharibə əlilləri və qazilər ölməz azadlıq mücahidlərinin ruhlarına dərin ehtiramlarını ifadə ediblər.

### Şirvan

**20 Yanvar faciəsinin 34-cü ildönümü münasibətilə Şirvan şəhərinin rəhbərləri və ictimaiyyət nümayəndələri Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanındakı 20 Yanvar şəhidlərinin xatirə lövhəsini, “Əbədi məşəl” abidəsini, Qarabağ müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər, Vətən qurbanlarının ruhuna dualar oxunub.**

“Şəhid anası” memorial abidə kompleksinin qarşısında davam edən anım mərasimində “20 Yanvar – Milli iradəmizin zəfər çaldığı gün” mövzusunda çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Azərbaycanın ərazi bütövluyü uğrunda mübarizəyə qalxmış dinc sakinlərə qarşı sovet qoşunlarının törətdiyi qanlı cinayətlərin intiqamının dövlət müstəqilliyimizin qazanılması və suverenliyimizin təmin edilməsi ilə alındığını söyləyib. Çıxış edənlər 20 Yanvar hadisələrinin yaxın tariximizdə hüznlü bir faciə olmaqla yanaşı, həm də milli varlığın yaşadılmasında öyünclü bir səhifə olduğunu qeyd ediblər. Sonra məktəbin şagirdləri Vətənə, şəhidlərə həsr olunmuş ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Həmin gün Milli qəhrəmanlar Nofəl Quliyevin, Tahir Bağırovun, Rəfael Həbibovun büstləri də ziyarət edilib.

### Yevlax

**20 Yanvar faciəsinin ildönümü ölkəmizin hər yerində olduğu kimi, Yevlaxda da silsilə tədbirlərlə qeyd edilib.**

Şəhərdəki Şəhidlər xiyabanında anım tədbirində icra hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclisin deputatı İlham Məmmədov, YAP rayon təşkilatının, Ağsaqqallar Şurasının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrinin nümayəndələri, şəhid ailələri, qazilər, müharibə veteranları iştirak ediblər. “20 Yanvar” və “Şəhidlər” abidələrinin önünə çiçək dəstələri düzülüb. Ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin əziz xatirələri yad edilib, ruhlarına dualar oxunub.

Tədbir çərçivəsində şəhər rəhbərliyi və Milli Məclisin deputatı şəhid ailələri ilə görüşərək, səmimi söhbət ediblər.

### Kürdəmir

**20 Yanvar hadisələrinin 34-cü ildönümü – Ümumxalq Hüzn Günü Kürdəmirdə də şəhid ruhlarına böyük sayğı ilə qeyd edilib.**

Rayon rəhbərləri və ictimaiyyət nümayəndələri “20 Yanvar” parkına gələrək “Ana harayı” və “Şəhidlər” abidəsinin önünə gül-çiçək dəstələri düzüb, şəhidlərin xatirəsini ehtiramla yad ediblər. Şəhid məzarları ziyarət olunub.

İcra hakimiyyətinin başçısı Elxan İbrahimov şəhid ailələrinə başsağlığı verərək, azadlıq mücahidlərinin Vətən, xalq qarşısında əvəzsiz xidmətlərinin unudulmadığını bildirib.

### Qəbələ

**Dağlar diyarı Qəbələdə də şəhid ruhlarına ehtiram layiqincə ifadə olunub.**



20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların əməkdaşları, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələri Qəbələ Rayon Şəhidlər xiyabanı kompleksini ziyarət edərək, ölümsüzlük qazanmış qəhrəmanların əziz xatirəsinə böyük ehtiramlarını bildiriblər. Xatirə lövhələrinin qarşısına və məzarların üzərinə tər gül dəstələri düzülüb, şəhidlərin ruhuna dualar oxunub. Saat 12-də isə rayonun bütün ərazisində şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

***Əli NƏCƏFXANLI,***
***Hamlet QASIMOV,***
***İlqar HƏSƏNOV***
***XQ***

# Baş nazir BP-nin vitse-prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 20-də BP şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə BP arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, BP tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin önəmi qeyd edilib.

İşğaldan azad olunmuş ərazilərdə günəş elektrik stansiyasının inşasına dair BP şirkəti ilə birgə aparılan işlər nəzərdən keçirilib.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 31** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 742-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 31.2-2-ci maddəsinə əsasən əmək pensiyasının təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** 3.2-ci bəndin birinci cümləsinə "aradan qaldırılması" sözlərindən sonra "(bu Qaydanın 2.9-cu bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 32** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***"Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 245 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı və 1-ci hissə üzrə:

1.1. "Olimpiya" sözündən sonra ", Paralimpiya və qeyri-olimpiya" sözləri əlavə edilsin;

1.2. birinci halda "və" sözü vergül işarəsi ilə və "Kubok yarışlarında" sözləri "birinciliklərində" sözü ilə əvəz edilsin.

**2.** 2-ci hissə ləğv edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş "Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar" yeni redaksiyada verilsin (əlavə olunur).

**4.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 33** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli 258 nömrəli, "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 9 avqust tarixli 1009 nömrəli, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2236 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1429 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın 1.7-1-ci bəndində "elmin müxtəlif sahələri" sözləri "fəaliyyət istiqamətləri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 35** **Bakı şəhəri, 22 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 12 mart tarixli 49 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 305 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

**2.** Preambulada "2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 15-ci bəndinə uyğun olaraq və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq" sözləri "2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən" sözləri ilə əvəz edilsin.

**3.** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin kollegiya üzvlərinin sayı 11 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının elm və təhsil naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Əli Əsədov Aleksey Overçuku qəbul edib



**Yanvarın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçukla görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycan–Rusiya iqtisadi-ticari əməkdaşlığının aktual məsələləri və birgə layihələrin həyata keçirilməsinin gedişatı müzakirə olunub.

Tərəflər Azərbaycan–Rusiya əməkdaşlığının 2024–2026-cı illər üçün əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsinin imzalanmasının əhəmiyyətini qeyd ediblər.

# Azərbaycan–Rusiya əməkdaşlığının əsas istiqamətləri



**Yanvarın 22-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk ilə görüşüb.**

Görüşdə Azərbaycan–Rusiya dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub. Xüsusi qeyd edilib ki, 2022-ci il fevralın 22-də Azərbaycan və Rusiya prezidentləri tərəfindən Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması ikitərəfli münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

Söhbət zamanı iki ölkə arasında çox geniş müqavilə-hüquq bazasının mövcud olduğu bildirilib. Dövlət başçılarının tapşırığına uyğun olaraq hazırlanmış 2024-cü ilədək olan dövr üçün Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə Yol xəritələrinin icrasının nəticələri yüksək qiymətləndirilib, bu müsbət təcrübənin davam etdirilməsində qarşılıqlı maraq ifadə olunub.

Bildirilib ki, Yol xəritələrinin icra olunduğu 2018–2023-cü illəri əhatə edən dövrdə ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və bir çox digər istiqamətlərdə əməli addımlar atılıb. Görülən tədbirlər nəticəsində Azərbaycan–Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı dinamikası təmin edilib, 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq ötən il 4,3 milyard ABŞ dollarından çox təşkil edib. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, o cümlədən tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub.

Görüşdə qarşılıqlı investisiya sahəsində həyata keçirilən uğurlu layihələrin əhəmiyyəti qeyd olunub, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sənaye sahəsinin müxtəlif istiqamətlərində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, bu əməkdaşlığın işğaldan azad olunmuş əraziləri də əhatə etdiyi bildirilib.

Nəqliyyat-logistika sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olunaraq bu istiqamətdə geniş imkanların açıldığı diqqətə çatdırılıb. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətinə toxunularaq dəhlizin tam gücü ilə fəaliyyət göstərməsi üçün birgə səylərin önəmi vurğulanıb.

Görüşdə, həmçinin Azərbaycan ilə Rusiya arasında enerji, kənd təsərrüfatı, gömrük-sərhəd infrastrukturunun təkmilləşdirilməsi, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024–2026-cı illər üçün Yol Xəritəsini imzalayıblar.

Yol Xəritəsi ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 36** **Bakı şəhəri, 22 yanvar 2024-cü il**

***"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"-nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2345 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 385 nömrəli və 2022-ci il 15 mart tarixli 88 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada verilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Xəzər: qalxmağı kimi,

## “Xalq qəzeti” redaksiyasında Xəzər dənizinin problemləri mövzusunda “dəyirmi masa”

**Xəzər dənizinin problemləri ilə bağlı redaksiyamızda təşkil olunan “dəyirmi masa”da qonaqlarımız Bakı Dövlət Universiteti coğrafi ekologiya kafedrasının əməkdaşı, coğrafiya elmləri doktoru, professor Şövqi Göyçayski, ETN Coğrafiya İnstitutunun ekocoğrafiya şöbəsinin müdiri, coğrafiya elmləri doktoru, dosent Ənvər Əliyev, həmin institutun şöbə müdiri, coğrafiya elmləri doktoru, professor Əmir Əliyev, “İqlim” Tədqiqat və Məsləhət Mərkəzinin direktoru, coğrafiya elmləri üzrə fəlsəfə doktoru Mirzəxan Mənsimov, Xəzər Universiteti Ekoloji Tədqiqatlar Mərkəzinin direktoru, coğrafiya üzrə fəlsəfə doktoru, dosent, Ekologiya Nazirliyi yanında İctimai şuranın üzvü Rövşən Abbasov və ETN Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov idilər.**

**“Xalq qəzeti”nin baş redaktoru Əflatun AMAŞOV** qonaqları salamlayaraq bildirdi ki, Azərbaycanda mövcud ekoloji sistemlərin qorunmasına və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə böyük diqqət yetirilir. Sosial-iqtisadi inkişafın ekoloji baxımdan davamlı olması üçün iqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemlərin aradan qaldırılmasına, onların ətraf mühitə mənfi təsirinin minimuma endirilməsinə xüsusi önəm verilir və ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönələn layihələr, paytaxt ətrafındakı neft və çirkab suları ilə çirklənən göllərin təmizlənməsi, qurudulması istiqamətdə davamlı layihələr həyata keçirilir.

Sadalanan ekoloji problemlərin böyük bir hissəsi aradan qaldırılsa da, hələ də bu sahədə bir sıra çatışmazlıqlar nəzərə çarpır. Burada Xəzərin, sahilyanı ərazilərin çirklənməsi, sularda biomüxtəlifliyin qorunması ilə bağlı problemlər ciddi narahatlıq doğurur. Belə ki, hazırda dənizin çirklənməsi daha çox diqqət çəkir ki, bunun da ən əsas səbəbi qurudan daxil olan və ya quruda həyata keçirilən fəaliyyət nəticəsində yaranan çirklənmə göstərilir.

**Əflatun AMAŞOV daha sonra dedi:**

– Xəzər dənizinə ən böyük tullantı suları çaylar vasitəsilə daxil olur, eyni zamanda, sahil ərazilərində təsərrüfat



fəaliyyətindən, məişət tullantıları nəticəsində çirklənmə baş verir. Məsələn, Ermənistanın bu gün də mövcud sahədəki neqativ fəaliyyəti barədə mətbuatda mütəmadi materiallar dərc edilir. Bundan çıxış yolu isə fikrimcə, sahilyanı ölkələrin birgə səyi ilə təmizlənməmiş tullantı sularının Xəzər dənizinə axıdılmasının qarşısının alınması və tullantı suların təmizləyici qurğularda müvafiq standartlara uyğun təmizlənməsinin təmin edilməsidir.

**Baş redaktor** qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək vurğuladı ki, redaksiyanın fəaliyyətində ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatının bütün sahələri kimi, ekoloji layihələrin reallaşdırılması, eləcə də Xəzər dənizinin problemləri ilə bağlı ayrıca rubrika ilə məqalələrin dərc edilməsi prioritet istiqamətdir. Bugünkü “dəyirmi masa” da həmin silsilənin, bir növ, davamıdır.

***

**Sual: – Xəzər dənizi problemləri içərisində səviyyə tərəddüdü ilə yanaşı, dəniz sularının çirklənməsi və bununla əlaqədar ekoloji şəraitin korlanması son dövrün ən mühüm problemidir. Bu barədə nə deyə bilərsiniz?**

**Şövqi GÖYÇAYSKİ, Bakı Dövlət Universitetinin coğrafi ekologiya kafedrasının professoru:**



– Əflatun müəllim, müxtəlif mövzular ətrafında keçirilən “dəyirmi masa” ənənəsini davam etdirdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Çox illər əvvəl bu qəzetin Bakı Dövlət Universitetində yaradılan Elmi-İctimai Birliklə birgə təşkil etdiyi və elmi-tədqiqat institutları, həmçinin müxtəlif dövlət qurumları nümayəndələrinin də qoşulduğu belə tədbirlərdə iştirak etmişəm. Yeri gəlmişkən, həmin “dəyirmi masa”lardan birində Azərbaycan şəhərlərinin içməli su probleminin həlli araşdırıldıqdan sonra yekun müddəalar Nazirlər Kabinetinə təqdim edildi. Hökumətin 1991-ci ildə sözügedən məsələ ilə əlaqədar keçirilən iclasında isə redaksiyanın mövcud problemlə bağlı tezis-müddəalarının 5-i nəzərə alınaraq ümumi yekun sənədə əlavə olundu. Beləliklə, yeraltı içməli suların bir şəbəkədə toplanaraq əhaliyə paylanılması o vaxtkı variantlardan biri olaraq “Kommunist”, indiki “Xalq qəzeti” vasitəsilə ictimaiyyətə təqdim edildi. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi dövrdə içməli su problemi daha optimal variantlarda həll edildi.

Bugünkü “dəyirmi masa”da müzakirə ediləcək mövzu da aktuallığı ilə diqqət çəkir. Təqdim olunan suallarda Xəzərdə su səviyyəsinin tərəddüdü, sahil ərazilərinin çirklənməsi, sularda biomüxtəlifliyin qorunması kimi günümüzün çağırışları ilə səsləşən önəmli məsələlər öz əksini tapır.

Xəzər dənizinin səviyyə tərəddüdü ilə bağlı təfsilatlara varmayacağam. Çünki bugünkü tədbirimizdə bu sahə ilə məşğul olan mütəxəssislər iştirak edirlər. Onlar bu barədə ətraflı məlumat verəcəklər. Mən bir faktın üzərində dayanmaq istəyirəm. Son illər Xəzər dənizinin çirklənməsi ilə bağlı narahatlıqlar getdikcə artır. Bu barədə çox yazılır, çox danışılır. Qeyd etmək istəyirəm ki, Xəzər sahilyanı ölkələr, onun məcrasını təşkil edən çaylar vasitəsilə də çirklənir. Bu zaman mühüm bir məsələ unudulur. Həmin məsələ ondan ibarətdir ki, Xəzərin su təminatının 80 faizindən bir qədər az, bir qədər çox hissəsi Volqa çayının payına düşür. Üstəlik də, qeyd olunur ki, Xəzər həm təbii, həm də antropogen yolla çirklənir. Təbii



yolla çirklənmədə, əsasən, iqlim dəyişmələrinə istinad olunur. Bu barədə də çox yazılır. Antropogen yolla çirklənməyə gəldikdə isə, bunun izahı yoxdur. Təkcə o məlumdur ki, antropogen təsir insan fəaliyyəti nəticəsində yaranır. Bunun isə təhlili, ətraflı aparılmır. Əgər antropogen təsirdən söhbət gedirsə, bütün 1,4 milyon kvadratkilometr Volqanın hövzəsi antropogen təsir altındadır.

Bununla yanaşı, bütün Xəzəryanı ölkələrdən axan çaylar da belə bir təsirə məruz qalır. Hesab edirəm ki, Xəzər dənizinin hansı səviyyədə antropogen təsirlərə məruz qalması dəqiqləşdirilməlidir. Ondan sonra isə biz çirklənmənin təbii fonunu müəyyənləşdirə bilərik.

Hazırda Volqa çayının üzərində 9 iri su anbarı var. İlk dəfə olaraq 1950-ci illərdə su anbarları inşa olunarkən ekologiya, iqlim dəyişmələri barədə fikirləşən yox idi. Anbarlar tikilərkən çay yataqları 15–20 dəfə və daha çox genişləndirildi. O dövrdə iqlim indikindən fərqli idi, istilər də bu səviyyədə deyildi. İstiləşmə ilə əlaqədar Xəzərdə, eləcə də bütün hövzə çaylarında buxarlanma xeyli artıb.

Xəzərə daha çox su gətirən Volqa çayında suyun azalması da, onun çirklənmə səviyyəsi də aydın hiss olunur. Bu, o deməkdir ki, Xəzərin suyunun azalmasında və onun çirklənməsində Volqa çayının təsiri daha böyükdür. Çünki əvvəla, çay Rusiyanın 4 iqtisadi rayonundan keçir və həmin ərazilərdən tullantı suları Volqaya axıdılır. Hesablamalara əsasən, hər il Xəzərə daxil olan 40–45 kubkilometr çirkab suyun 60 faizi bu çayın payına düşür. İkincisi isə, ötən əsrin 50-ci illərində qonşu ölkənin tikdiyi bir neçə nəhəng su anbarı Volqanın yataqlarını genişləndirir və nəticədə, bu, Xəzərin səviyyəsindəki tərəddüdlərə təsir göstərir.



**Ənvər ƏLİYEV, ETN Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru, dosent:**

– Xəzər 200 milyon il bundan əvvəl əmələ gəlib. Dənizin səviyyə sərhədi elə özünün yaşı qədərdir. Səviyyə amplidudasının dəyişməsi isə 30–50 ildən bir dövrə təsadüf edir. İndi Xəzər enmə səviyyəsindədir. Sovet dövründə dənizin səviyyəsinin enmə problemini şimal çayları suyunun Xəzərə axıdılması hesabına həll etmək qərara alındı. Onun səviyyəsinin azalma və artması iki səbəblə – iqlim və tektonik hadisələrlə əlaqələndirilir. İndiki halda dənizin səviyyəsinin son 10 ildə 114 santimetr aşağı düşməsi, hələlik, Xəzəryanı ölkələrin heç birini təşvişə salmayıb, çünki bu, indilikdə qorxulu hədd deyil. Suyun səviyyəsinin bugünkü qədər azalması fonunda yem, qida azalması ilə yanaşı, buxarlanma səthi də çoxalır. Bu vəziyyət balıqların sayının azalmasına, balıqçılığa da ziyan vurur.

Xəzərin səviyyə tərəddüdü daim müzakirə mövzusu olub. Ümumiyyətlə, bu məsələ ilə bağlı müxtəlif fikirlərin səsləndirilməsi sözügedən dənizin yarandığı zamanlardan mövcuddur. Yəni Xəzərdə suyun səviyyəsinin müəyyən vaxtlarda aşağı və yaxud yuxarı olması adi haldır.

Xəzərdə enmə-qalxma davam etməkdədir. Bu, qeyd etdiyim kimi, xarakterikdir. Düzdür, bu məsələ fərqli şəkildə qiymətləndirilir. Xəzərin tarixində onun ən təlatümlü səviyyəyə enməsi 1970-ci illərdə – sovet dönəmində olub. O zaman Türkmənistandakı Qaraboğazgöl körfəzi də bağlandı. Bu körfəz vasitəsilə buxarlanma nəticəsində texniki duzlar meydana gəldi. Bundan əlavə, şimal çaylarının da istiqamətinin Xəzərə yönəldilməsi planı var idi. Sonralar suyun səviyyəsi yenidən qalxdığı üçün bu plan reallaşmadı.

Ötən əsrin 70-ci illərində Xəzərdə suyun səviyyəsinin təkrar qalxması da müəyyən problemlər yaratmışdı. Məsələn, çox adam yəqin ki, yaxşı xatırlayır: Cənub bölgəsində dənizin yaxınlığından keçən dəmiryol xəttinin müəyyən bir hissəsi suyun altında qalmışdı. Bundan başqa, Xəzərin sahilində xeyli əkin sahələri, o cümlədən heyvandarlıq üçün uyğun ərazilər də belə bir təhlükə ilə üzləşmişdi.

Hazırda Xəzər dənizində suyun səviyyəsinin enmə prosesi nəzərə çarpır. Bu, müxtəlif amillərlə əsaslandırılır. Eyni zamanda, prosesin hələ nə qədər davam edəcəyi bilinmir.



**Əmir ƏLİYEV, ETN Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru, professor:**

– Müasir dövrdə Xəzər dənizinin ən böyük problemi onun səviyyəsinin dəyişməsi ilə bağlıdır. Bunun da əsas səbəbi qapalı su hövzəsi olması ilə əlaqədardır. Yəni okeanla birbaşa heç bir əlaqəsi yoxdur. Ona görə də Xəzərin səviyyəsinin dəyişməsini birbaşa iqlimlə əlaqələndirmək lazımdır. Əbəs yerə deməyiblər ki, Xəzərin səviyyəsinin dəyişməsi iqlimin indikatorudur. Çünki regionda baş verən iqlim dəyişiklikləri birbaşa Xəzər dənizinə təsir göstərir.

Hazırda Xəzərə 3,5 milyon kvadratmetrlik ümumi hövzədən sular daxil olur. Dənizi qidalandıran suların 80 faizi çaylardan gəlir. Onun da elə 80 faizi şimal istiqamətindən axan Volqa və Ural çaylarının payına düşür. Xəzərin səviyyəsini dəyişdirən də məhz onun su balansıdır. Su balansı dedikdə, gələn və xaric olan sular nəzərdə tutulur. Xəzər dənizinin dünya okeanı ilə heç bir əlaqəsi olmadığı üçün buradan xaric olan suların hamısı buxarlanma hesabına baş verir. Dənizə gələn və buxarlanan suların arasında tarazlığın pozulması, yəni birinin artması, digərinin azalması səviyyə tərəddüdünə gətirib çıxarır. Bu proses tarix boyu müşahidə olunub. Məsələn, bizdə olan məlumata görə, son 4 min il ərzində Xəzərin səviyyəsində müəyyən dəyişmələr baş verib. Yəni proses nəticəsində 250 il azalma, 250 il isə əksinə, çoxalma qeydə alınıb. Yeri gəlmişkən, Xəzərin səviyyəsi haqqında sonuncu instrumental müşahidələr 1837-ci ildə Bakıda aparılan stoptan ölçmələrdir. Bu məlumatların hamısı institutumuzda qorunub saxlanılır. Həmin məlumatlardan o da aydın olur ki, tarix boyu Xəzərin səviyyəsində baş verən əsrlik dəyişmələrlə bərabər, 30 illik dəyişmələr də qeydə alınıb. Bu dəyişmələr isə Günəşdə baş verən proseslərlə əlaqədardır. Çünki Günəşdə müxtəlif dövrlərdə aktivlik baş verir. Bu proses də 11, 22 və 35 il ərzində davam edə bilir. O ki, qaldı dənizin səviyyəsinin qalxıb enməsinə, qeyd etmək istəyirəm ki, son 200 ildə burada səviyyə tərəddüdünün amplitudu, əsasən, 3–5 metr arasında dəyişib.

Xəzər dənizinin səviyyəsinin enməsinin başlıca səbəbi, ilk növbədə, dənizə daxil olan suların azalması ilə bağlıdır. Belə ki, aparılan müşahidələr nəticəsində müəyyən olunub ki, son illər Xəzər dənizinin əsas hövzəsi olan Volqa çayının suyu, təxminən, 30 faiz azalıb. Məlum olduğu kimi, son illərdə Xəzərin səviyyəsi iki dəfə böyük dəyişikliyə məruz qalıb. 1930-cu ildə başlayan proses 1977-ci ilədək davam edib və bunun da nəticəsində dənizin səviyyəsi 3 metr aşağı düşüb. 1977-ci ildən isə proses əks istiqamətdə davam edib. Bunun da nəticəsində Xəzərin səviyyəsi kəskin qalxmağa başlayıb. Beləliklə, 1995-ci ildə suyun səviyyəsində artıq 2,5 metrlik artım qeydə alınıb.

Ötən əsrin sonlarından etibarən isə Xəzər yenidən geri çəkilməyə başlayıb. Hazırda bu proses sürətlə davam edir. Artıq dənizin səviyyəsi yenidən 2 metr düşüb. Bu da son hədd deyil. Müşahidələr göstərir ki, bu proses yenə də 30 il müddətinə davam edəcək. Onu da deyim ki, 1997-ci ildə Xəzərin səviyyəsi indikindən 60 santimetr aşağı olub. Göründüyü kimi, bu məsələdə ciddi təşvişə əsas yoxdur. Çünki Xəzər canlı orqanizmdir. Onun səviyyəsi enə də, qalxa da bilər. Bəziləri iddia edirlər ki, dənizin səviyyəsi 10–18 metr düşə bilər. Bu, reallığı əks etdirmir. Xəzərin səviyyəsinin belə bir dəyişikliyə məruz qala bilməsi qətiyyən mümkün deyil.

Xəzər dənizi çox maraqlı quruluşa, relyefə malikdir. Sanki dəniz iki fincanı xatırladır. Onun biri orta Xəzərdə, digəri isə cənubda yerləşir. Onların dərinliyi müvafiq olaraq 800–1000 metr təşkil edir. Şimalda isə dərinlik 5 metrdir. Xəzərə çoxlu suyun daxil olması ilə əlaqədar həmin fincanlar dolur. Bu zaman dənizin qərbdən şərqə doğru, təqribən, 10–15 dərəcə meyilli olması səbəbindən bu suların hamısı şərq sahillərinə doğru istiqamət alır. Burada güclü buxarlanma səbəbindən dənizin səviyyəsi çox qalxa bilmir.

**Mirzəxan MƏNSİMOV, “İqlim” Tədqiqat və Məsləhət Mərkəzinin direktoru, coğrafiya elmləri üzrə fəlsəfə doktoru:**

– Xəzərin tərəddüdü məsələsində Əmir müəllimlə tam razıyam. Xəzər dənizinin sanki öz qanunauyğunluqları var. Elə bir vəziyyət yaranacaq ki, dənizə gələn sularla buxarlanma arasında bir bərabərlik yaranacaq. Ona görə də düşünürəm ki, dənizin səviyyəsinin 18 metrədək enəcəyi ilə bağlı söylənilənlərin heç bir əsası yoxdur. Dənizin bu səviyyədə enməsi üçün Volqa çayının quruması şərtilə, ən azı, 200 il vaxt lazımdır. Bu da mümkün olan məsələ deyil.



Son zamanlar Xəzər sutoplayıcı hövzəsində–Volqa, Kür və Ural çaylarında azalma baş verir ki, bu da dənizin enməsinə səbəb olub. Əgər bu azalma baş verməsəydi, Xəzərin səviyyəsi indikindən 1–2 metr yüksək olardı. Ancaq hər bir halda su istifadə olunmalıdır, insanlar yaşamalıdır, ölkələr inkişaf etməlidir. Bu, təbiidir. Ancaq sudan qənaətlə istifadə, təkrar suların təmizlənərək yenidən istifadə məsələləri getdikcə aktuallıq kəsb edir.

Bu gün Xəzərin ekoloji vəziyyəti keçən əsrin 70-ci illəri ilə müqayisədə elə də acınacaqlı deyil. Ötən müddətdə həm konvensiya qəbul edilib, həm də texnologiyalar dəyişib. Əvvəllər bizim regionda dənizi, əsasən, neft çirkləndirirdi. Həcmcə isə Xəzərə ən böyük çirkləndiricilər Volqa çayından daxil olurdu. Vaxtilə ölü çay hesab olunan Ural da indi ən təmiz su mənbələrindən sayılır. Göründüyü kimi, məsələ o qədər də kəskin deyil. Şübhəsiz ki, suyun səviyyəsi artanda ekoloji vəziyyət daha yaxşı olur. Çünki suyun özünü təmizləmə prosesi sürətlənir. İndi bu sahədə iki əsas problem var. Birincisi, Xəzər dənizinin səviyyə tərəddüdü ilə bağlıdır. Digər problem ondan ibarətdir ki, biz Xəzər dənizi ilə bağlı əvvəlki mövqeyimizi itirmişik. Yəni Xəzərin tədqiqi, onun araşdırılması məsələsində, düşünürəm ki, Türkmənistan istisna olmaqla, bütün sahilyanı dövlətlərdən geridəyik. İran da bu məsələdə bizi üstələyib. Qazaxıstanda və Rusiyada bu sahədə geniş tədqiqatlar, çox yaxşı araşdırmalar aparılır, sanballı məqalələr yazılır.

İndi qlobal baxanda Xəzər dənizinin səviyyəsinin tərəddüdünü yumşaltmaq üçün sovet vaxtında çox gözəl bir ideya var idi. Həmin ideyaya görə, Orta Asiya respublikalarının və Qafqazın su çatışmazlığı problemi həll edilməli idi. Yeri gəlmişkən, sovet dövründə layihəçilər və tədqiqatçılar bununla bağlı 50 cilddən ibarət sənəd hazırlamışdılar. Mixail Qorbaçov da Stavropol diyarının birinci katibi olanda bu layihəni bəyənmişdi. Hətta 1984-cü ildə bu məsələnin həlli ilə bağlı qərar da qəbul olunmuşdu. Təəssüf ki, Mixail Qorbaçovun ölkəyə rəhbərliyi dövründə məsələ unuduldu və 1986-cı ildə bütün işlər dayandırıldı. Təklif edərdim ki, bu məsələ yenidən gündəmə gətirilsin.

Hazırda əhali artımı, ölkələrdə sənayenin inkişafı ilə əlaqədar suya tələbat da getdikcə çoxalır. Yəni tələbat həmişə olacaq. Suyu götürüb ondan istifadə etməklə biz, həm də onu tənzimləyirik. Yəni çaylardan suyu götürmək dənizin səviyyəsinə təsir edir. Bu yolla Xəzərin səviyyəsini tənzimləmək mümkündür. Düşünürəm ki, Xəzəryanı ölkələr bu vacib məsələni birlikdə müzakirə etməlidirlər.

**Səid SƏFƏROV, ETN Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru:**



– Dünya okeanı ilə birbaşa əlaqəsi olmadığından Xəzərin səviyyəsi daim tərəddüdlərə məruz qalıb. Son minillikdə dənizin ən aşağı səviyyəsi X əsrdə olub ki, həmin zaman Xəzər okean səviyyəsindən 35 metr aşağı imiş. Ən yuxarı səviyyə (okean səviyyəsindən 22 metr aşağı) isə XIV və XVIII əsrlərdə qeydə alınıb. Sonrakı yüzilliklərdə dənizin səviyyəsi artsa da, əsrlik səviyyə tərəddüdlərinin amplitudu 2–4 metr diapazonunda dəyişib. Beləliklə, bütün zamanlarda Xəzərin səviyyəsində enmə və qalxma prosesləri diqqət çəkib. Ümumiyyətlə, dənizin səviyyəsi özünəməxsus uzunmüddətli dəyişmə periodunda nəzərə çarpıb.

XX əsrdə dənizin səviyyə dəyişmələri 2 dəfə kəskin xarakter alıb. 1930-cu ildən 1977-ci illərə qədər müddətdə Xəzərin səviyyəsi 3 metr aşağı düşərək son 400 ilin mütləq minimumuna (-29 metr) çatıb. Lakin 1977-ci ildən səviyyə kəskin şəkildə qalxmağa başlayıb. 1995-ci ilə qədər bu artım 2,5 metr təşkil edib. Sonrakı dövrdə dənizin səviyyəsi kəskin tərəddüdlərə məruz qalmasa da, səviyyə hər halda nəzərəçarpacaq dərəcədə azalmağa doğru gedir.

**(ardı 12-ci səhifədə)**

# enməyi də bəlalıdır

(əvvəli 11-ci səhifədə)

Kəskin səviyyə dəyişmələri Xəzəryanı ölkələrin iqtisadiyyatına və ekologiyasına ciddi təsir göstərdiyindən bu dəyişmələrin uzun müddət üçün qabaqcadan proqnozlaşdırılması mühüm önəm daşıyır. Lakin təəssüf ki, indiyə kimi dəniz səviyyəsi tərəddüdlərini əvvəlcədən uzun müddət üçün proqnozlaşdırmağa imkan verən etibarlı metodlar mövcud deyil. Əksər hallarda bu haqda verilən proqnozlar dəyişir. Məsələn, 1930–1977-ci illərdə dənizin səviyyəsi azalarkən əksər alim və mütəxəssislər səviyyənin düşməsinin gələcəkdə də davam edəcəyini proqnozlaşdırırdılar. Keçən əsrin 70-ci illərində alimlərin Xəzərin səviyyəsinin kəskin aşağı düşməkdə davam edəcəyi ilə bağlı bədbin proqnozlar səbəbindən, hətta keçmiş Sovetlər İttifaqında şimala axan Şimali Dvina və Peçora çaylarının istiqamətinin dəyişdirilərək Volqa çayına, oradan isə Xəzərə axıdılması üçün layihələr işlənilirdi. Lakin 1977-ci ildən dəniz səviyyəsinin kəskin qalxmağa başlaması ilə bu layihələr öz aktuallığını itirdi.

1977-ci ildən sonra dəniz səviyyəsinin 1995-ci ilə qədər kəskin artdığı müddətdə əksər alimlər tərəfindən səviyyənin gələcəkdə də yüksəlməkdə davam edəcəyi proqnozlaşdırılırdı. 1995-ci ildə səviyyə artımı dayansa da, son 10–15 ildə yenidən nəzərəçarpacaq azalma müşahidə edildi. Bu da müxtəlif alimlər tərəfindən əsrin sonunadək Xəzərin səviyyəsinin fəlakətli dərəcədə aşağı düşəcəyi haqda bədbin proqnozların verilməsi ilə müşayiət olundu. Bu baxımdan alman və holland alimlərinin “Nature Communications Earth & Environment” jurnalında dərc olunmuş məqalədə verdikləri proqnoz daha qorxuludur. Belə ki, onlar müxtəlif ssenarilərə əsasən, XXI əsrin sonunadək Xəzərin səviyyəsinin 9–18 metr aşağı düşəcəyini proqnozlaşdırırlar. Bundan əvvəlki proqnozlardan fərqli olaraq, burada məqalə müəllifləri problemə gözlənilən qlobal istiləşmə ssenariləri kontekstindən yanaşıblar.

**Rövşən ABBASOV, Xəzər Universiteti Ekoloji Tədqiqatlar Mərkəzinin direktoru, coğrafiya üzrə fəlsəfə doktoru, dosent, Ekologiya Nazirliyi yanında İctimai şuranın üzvü:**



– Xəzər dənizinin ən mühüm xüsusiyyəti onun səviyyəsinin mütəmadi olaraq qalxıb-enməsi ilə bağlıdır. Bunun da əsas səbəbi dənizin su balansı elementlərinin dəyişməsidir. Su balansının əsas hissəsini çay axınları təşkil edir ki, onun da, təqribən, 80 faizi Volqa çayının gətirdiyi suların hesabınadır. Müşahidələr göstərir ki, çay axınları orta qiymətə nisbətən böyük intervalda dəyişikliklərə uğrayır.

Dənizə çaylar vasitəsilə gələn suların azalmasının əsas səbəbi iqlim dəyişiklikləri və Xəzər hövzəsində suya tələbatın artmasıdır. Nəticədə, Volqa, Ural və Kür kimi çayların sululuğu əhəmiyyətli dərəcədə azalır ki, bu da özünü Xəzərin səviyyəsində göstərir.

1977- ci ildə Xəzərin səviyyəsi mənfi 29 metr olub ki, bu da son 500 ildə ən aşağı göstərici hesab olunur. 1978-ci ildən başlayaraq, 1995-ci ilə qədər dəniz ən yüksək səviyyəyə çatıb. Həmin ildən etibarən isə Xəzərin səviyyəsi azalmaqdadır. Tədqiqatçılar bu azalmanı iqlim dəyişmələri və Xəzər hövzəsində su götürmələrinin artması ilə izah edirlər.

Uzun illərdir ki, Xəzərin hövzəsi ciddi çirklənməyə məruz qalır. Moskva, Volqoqrad, Saratov, Tbilisi və Yerevan kimi iri, eləcə də onlarca orta və kiçik şəhərlərdə formalaşan çirkab suları birbaşa Xəzər dənizinə axıdılır. Çirkləndiricilər də, əsasən, Volqa, Ural və Kür çayları vasitəsilə Xəzərə daxil olur. Xəzərin sahillərində yerləşən Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt və Ənzəli şəhərlərindən axıdılan tullantı suları da dənizin çirkləndirilməsində yaxından iştirak edirlər. Bununla yanaşı, 200 ilə yaxın bir müddətdə neft hasilatı zamanı ekoloji normalara lazımınca əməl edilməməsi səbəbindən dəniz neft tullantılarının güclü təsirinə məruz qalıb. Nəticədə, Xəzər dənizi həm məişət suları, həm də neft tullantıları ilə çirklənib.

**Sual: – Bəs, Xəzər dənizinin bitki və heyvanat aləmi üçün getdikcə artmaqda olan təhlükəli vəziyyət nə ilə bağlıdır?**

**Ənvər ƏLİYEV:**

– Xəzər akvatoriyası dünyanın ən nadir su heyvanlarının, onların yem bazasının məskənidir. Nadir nərəkimilərə Xəzər dənizində daha çox rast gəlinir. Burada, həm də dünyanın ən nadir, Qırmızı Kitaba düşən suitiləri yaşayır. Onlar okean sularındakı həmcinslərindən fərqlənir. Vaxtilə Xəzərdə onların sayı milyonlarla olub. Xəzər suitilərinin dərisinə maraq artandan sonra sayları azalmağa başlayıb. 2022-ci ildə Xəzərdə birdən-birə 15 min suiti tələf oldu. Maraqlı məqam ondan ibarət idi ki, həmin heyvanlar doyunca qida qəbul etdikdən sonra ölmüşdülər.

Xəzərdə biri Rusiyanın Həştərxan vilayətində, Azərbaycanda və Türkmənistanda olmaqla 3 qoruq var. Xəzər dənizi dünyanın 3 ən məşhur tektonik ərazilərindən biridir. Hər il dənizdə 2,5–4 maqnitaturada yüzlərlə zəlzələ qeydə alınır. Bu zəlzələlər nəticəsində dənizdə meta və propan qazlarının miqdarı artır. Bununla yanaşı, Xəzərdəki palçıq vulkanlarının hamısı azot tərkiblidir. Bütün bunların isə canlı aləmə mənfi təsiri getdikcə daha çox hiss olunur.



**Səid SƏFƏROV:**

– Son tədqiqatlar göstərir ki, Xəzərdə suitilərin populyasiyasının azalmasına səbəb olan amillərdən biri də səth temperaturun dəyişməsi ilə bağlıdır. Məlum məsələdir ki, qlobal istiləşmə ilə əlaqədar Xəzərin bütün akvatoriyasında temperatur artıb. Ancaq Xəzərin şimalında qış temperaturu azalır, ancaq yay temperaturu kəskin şəkildə yüksəlir. Bu, çox paradoksal bir haldır. Amplitudun bu şəkildə artmasına isə bir çox orqanizmlər tab gətirə bilmir. Eyni zamanda, dənizin şimal hissəsinin səviyyəsi çox aşağıdır; orta dərinlik 5 metr təşkil edir. Ona görə də dərin ərazilərdə su soyuyanda aşağıda hələ isti olur. Şimal hissədə isə su dibinə qədər soyuyur. Yayda isə əksinə, dibinə qədər istiləşir. Bu proseslər də, öz növbəsində, oksigenin azalmasına səbəb olur.

Biomüxtəlifliyin pozulması həm antropogen amillərlə, həm də iqlim dəyişiklikləri ilə əlaqədardır. Bəs, iqlim dəyişiklikləri necə təsir göstərir? Məsələn, temperatur artanda sahil zonasında suyun da temperaturu yüksəlir. Belə olan təqdirdə həll olunan oksigenin miqdarı azalır. Dənizdəki bütün canlılar oksigenlə nəfəs alır. Bəzən kütləvi informasiya vasitələrində dənizdə filan qədər balığın məhv olması ilə bağlı məlumatlara rast gəlirik. Bu isə dənizdə fitoplantonlar azalması ilə bağlıdır. Eyni zamanda, Xəzərdə gedən müəyyən proseslər də azalıb. Bununla yanaşı, dənizin səthindən dibinə qədər temperatur xeyli dəyişib. Əvvəllər bu proses tədricən baş verirdi. İndi isə hər 10 metrdə, təqribən, 4–5 dərəcə təsir edir.

**Əmir ƏLİYEV:**

– Xəzərə daxil olan gəmilərin də biomüxtəlifliyə təsiri danılmazdır. Son illər Rusiyaya qarşı tətbiq olunan sanksiyalarla əlaqədar bu ölkənin bütün gəmiləri Mahaçqalaya qayıtdı. Həmin gəmilər də özləri ilə zəhərli balans sular gətirdilər. Bunun da nəticəsində xeyli sayda suiti məhv oldu.

**Rövşən ABBASOV:**

– Kənd təsərrüfatında istifadə edilən gübrə və pestisidlər çaylar vasitəsilə Xəzər dənizinə axıdılır. Bu, əsasən, azot və fosfat gübrələridir ki, dənizdə ekosistem zəncirinə çox mənfi təsir göstərir. Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt, Ənzəli şəhərlərindən birbaşa Xəzərə daxil olan çirkləndiricilər onun ekosisteminə çox mənfi təsir edir, buradakı bioloji resurslar üçün ciddi təhlükə yaradır. Bu cür cirklənmələr dəniz suyunda həll olmuş oksigeni azaltmaqla canlıların nəfəs almasını çətinləşdirir. Təkcə Xəzər sahillərində deyil, uzaqda yerləşən şəhərlərin də çirkab suları çaylar vasitəsilə dənizə axır.

Xəzər ekosisteminin uğradığı mənfi təsirlərlə əlaqədar son illər dənizdə kilkə ovu 10 dəfə azalaraq, 1999-cu ildəki 271 min tondan hazırda 27 min tona düşüb. Balıq ehtiyatlarının azalması bütün Xəzər dənizi üçün səciyyəvi olan ümumi tendensiyadır.

Göründüyü kimi, dənizin çirklənməsinin onun bioloji ehtiyatlarına mənfi təsiri getdikcə artır. Bu, ilk növbədə, nərə balıqları populyasiyalarına ciddi təsir edir. Artıq Xəzər dənizində nərəkimilərin ehtiyatı azalaraq vətəgə əhəmiyyətini itirmək həddinə çatıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 1980-ci illərlə müqayisədə 2009–2010-cu illərdə nərə balıqlarının ov həcmi 30 dəfə azalıb. Hazırda sahilyanı ölkələrin razılığı əsasında Xəzərdə nərə balıqlarının ovu qadağan edilib.

Çirklənmə dəniz suitililərinə də mənfi təsir edir. Yeri gəlmişkən, Xəzər suitisi yeganə dəniz məməlisi və endemikidir. XX əsrin əvvəllərində Xəzər suitilərinin sayı, təqribən, 1 milyon olduğu halda, hazırda onun populyasiyası 100 min fərd təşkil edir.

Eyni zamanda, gətirilən növlər də Xəzərin bioloji ehtiyatlarına mənfi təsir edir. Belə ki, gəlmə növlər dənizin heyvanat aləminin yem bazasına çox mənfi təsir edir. Məsələn, Mnemiopsis leidyi adlı bir növün Xəzər dənizinə gəlməsi nəticəsində kilkə balıqlarının yem ehtiyatları azalıb ki, bu da onların sayına mənfi təsir etməkdədir.




**Sual: Xəzər dənizi 5 sahilyanı dövlətin ümumi evidir desək, yəqin ki, yanılmarıq. Heç şübhəsiz, Xəzərlə bağlı tədqiqatların, müşahidələrin aparılması birgə fəaliyyəti, bu sahədə əməkdaşlığın genişləndirilməsi zərurətini yaradır. Bu barədə sizin fikirlərinizi bilmək maraqlı olardı...**

**Şövqi GÖYÇAYSKİ:**

– Xəzər dənizinin problemləri vaxtaşırı müxtəlif səviyyələrdə müzakirə olunub və müsbət nəticələr əldə edilib. “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” 2003-cü il noyabrın 4-də Tehran şəhərində imzalanan Çərçivə Konvensiyasının Azərbaycan Prezidentinin 4 aprel 2006-cı il tarixli qərarı ilə qüvvəyə minməsi tarixi hadisəyə çevrilib.

Yeri gəlmişkən, 5 Xəzəryanı dövlət– Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan tərəfindən dənizin zərərli, təhlükəli maddələrlə, tullantılarla çirkləndirilməsinin qarşısının alınması, onun bioloji ehtiyatlarının qorunması qarşıya mühüm vəzifə kimi qoyulub. Bununla bərabər, həmin sənəddə Xəzərin səviyyəsinin dəyişməsi probleminin diqqət mərkəzində saxlanılması, məsələnin həlli yollarının araşdırılmasının zəruriliyi vurğulanıb.

Bütün bunlar isə onu göstərir ki, Xəzərin problemlərinin həlli yuxarıda adları çəkilən 5 sahilyanı ölkənin birgə səyi ilə həll edilməlidir. Əks halda, problemlər daha da dərinləşər, nərə balığı ehtiyatı, ümumiyyətlə, canlıların rəngarəngliyi yoxa çıxar, ekosistem tənəzzülə uğraya bilər.

Onu da qeyd edim ki, Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyalarında nəzərə çarpır. Başqa sözlə, həmin sahələrdə bir çox şəhərlər yerləşir ki, onların sənaye müəssisələrinin çirkab suları, habelə dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilər Xəzərə axıdılır. Bu şəraitin normal məcraya yönəldilməsi üçün yuxarıda adıçəkilən Çərçivə Konvensiyasına qoşulan ölkələr tərəfindən birgə təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.

**Əmir ƏLİYEV:**

– Yeri gəlmişkən, mən bu məqamda Xəzərin təddiqi sahəsində olan problemlərə də toxunmaq istəyirəm. Əvvəllər respublikamızda tanınmış Xəzərşünas alimlər olub. İndi isə Azərbaycanda Xəzərin öyrənilməsi ilə bağlı bir dənə də olsun, mərkəz yoxdur. Türkmənistan, Qazaxıstan, Rusiya və İranda belə mərkəzlər, elmi-tədqiqat müəssisələri var. Ölkəmizdə isə yalnız Coğrafiya İnstitutunda müvafiq şöbə fəaliyyət göstərir ki, onun da cəmi-cümlətani 2–3 əməkdaşı var. Təəssüf ki, orada lazımi müşahidələr aparmaq üçün nə bir cihaz, nə də gəmi mövcuddur.

Xəzər vahid bir canlı sistemdir. Əslində, onu çox tədqiq etməyə ehtiyac da yoxdur. Eyni zamanda, hər bir ölkənin ayrı-ayrılıqda tədqiqatlar aparması düzgün deyil. Fikrimcə, vahid bir regional mərkəz yaratmaq lazımdır ki, mütəxəssislər əlaqəli şəkildə fəaliyyət göstərə bilsinlər. Sovet dönəmində 38-ci və 44-cü coğrafi enlikdə çoxsaylı müşahidələr aparılırdı. Bütün məlumatlar isə Bakıda toplanırdı.

**Mirzəxan MƏNSİMOV:**

– Əmir müəllimlə tam razıyam. O zaman Bakı Xəzər dənizinin müşahidə mərkəzi rolunu oynayırdı. Mən əvvəllər 10 il müddətində Orta Asiyada çalışmışam. Sonra hidrometeorologiya sistemi ilə bağlı elmi iş yazıb müdafiə etmişəm. Bu məsələ bizə yaxşı tanışdır, onun problemlərindən də xəbərdarıq. Xəzər dənizi, bəlkə də, dünyanın ən çox tədqiq olunmuş, öyrənilmiş su obyektlərindən biridir.

Sovet dövründə elmi-tədqiqat institutlarımız, o cümlədən Coğrafiya İnstitutu Xəzərin bütün aspektləri ilə məşğul olurdular. Moskvaya da gedəndə hər şeyi Bakıda göstərirdilər. Yəni biz belə bir səviyyədə idik. Ötən əsrin 90-cı illərində biz bu səviyyəni qoruyub saxlamağa çalışdıq. Ancaq 90-cı illərdə, eləcə də yeni əsrin ilk illərində mövcud çətin vəziyyətdə buna nail ola bilmədik. Bununla belə, biz o vaxt Xəzər mərkəzi yaratmışdıq. Eyni zamanda, 1993-cü ildə Xəzərətrafı ölkələrin əlaqələndirmə komitəsini yaratmaq təşəbbüsü ilə çıxış etdik. İndi özəl sahədə fəaliyyət göstərsəm də, heç vaxt bu məsələlərdən kənar qalmamışam. Hazırda da bu sahə ilə bağlı məlumatlarımı zənginləşdirirəm, müəyyən məqalələr yazıram. Bununla belə, etiraf etmək lazımdır ki, hazırda biz Xəzərlə bağlı tədqiqatlarda, araşdırmalarda çox geri qalırıq.

Yeri gəlmişkən, Xəzərin problemləri ilə bağlı təkcə məqalələr yazmaq kifayət deyil. Hazırda sahilyanı ölkələrdə bununla bağlı konkret mərkəzlər, müşahidə və monitorinqlər sistemləri var. Həmin ölkələrdə mövsümlər üzrə tədqiqatlar, ölçmələr aparılır, bioloji resurslar hesablanır, təkliflər verilir. Bütün bunlar praktiki işlərdir. Amma bu gün biz onları edə bilmirik. Əslində, ayrı-ayrılıqda tədqiqatlar da aparmaq düzgün deyil. Yəni bütün ölkələrin tədqiqatçıları bir yerə toplaşıb müzakirələr aparmalı, təkliflər verməlidirlər. Əvvəllər Rusiyada gəmilər tədqiqata çıxırdılarsa, eyni vaxtda bütün Xəzəryanı ölkələr də bu işə qoşulurdular. Bundan da məqsəd o idi ki, toplanan məlumatlar müqayisə edilə bilsin, onların bir elmi əhəmiyyəti olsun.

**Sual: “Dəyirmi masa” ətrafında gedən müzakirələrdən belə aydın olur ki, Xəzərin öyrənilməsi, dənizin səviyyə tərəddüdü, bioloji resursları və onların mühafizəsinin gücləndirilməsi üçün daha ciddi tədqiqatlara ehtiyac var. Bu da tədqiqatçı alimlərin, Xəzərşünasların yetişdirilməsini tələb edir. Bəs, ölkəmizdə bu sahədə vəziyyət necədir?**

**Şövqi GÖYÇAYSKİ:**

– Xəzər dənizi ilə bağlı problemlər hər zaman diqqət mərkəzində saxlanılıb. Fəaliyyət göstərdiyim Bakı Dövlət Universitetində 1973-cü ildə hidrometeorologiya kafedrası yaradılmaqla həmin kafedrada Xəzər problemləri və onun həlli yolları tədris edilməyə başlamışdır. Daha sonra isə həmin universitetdə respublikada ilk dəfə olaraq ekologiya təmayüllü Ətraf mühitin mühafizəsi kafedrası yaradılıb. Onu da qeyd etməliyəm ki, 70-ci illərdən etibarən bu sahədə elmi-təhsil və innovasiya sistemlərinin birgə fəaliyyət göstərmələri sayəsində müsbət nəticələr əldə edilib. Elə həmin vaxtlarda da Xəzərin problemlərinin müzakirəyə çıxarılmasına mühüm önəm verilmişdir.

Ötən müddətdə Xəzərşünaslarımız tərəfindən respublikamızda böyük elmi məktəb yaradılmışdır. Alimlərin bu sahə ilə bağlı mövcud qurumlarla birgə fəaliyyəti nəticəsində yüksək nəticələr əldə edilib. Ən başlıcası isə elm, təhsil və innovasiya sistemlərində bir işgüzar əlaqə qurulmaqdadır.

Düşünürəm ki, təhsil, kadr hazırlığında daha böyük yüksəliş olmalıdır. Bakı Dövlət Universitetinin coğrafiya və ekologiya və torpaqşünaslıq fakültələrinin, eləcə də hidrometeorologiya kafedrasının bu sahədəki fəaliyyətini təqdirəlayiq hesab etmək olar. Həmin kafedrada iqlim dəyişiklikləri və Xəzər problemləri öyrənilir və tədris edilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu ili Ekologiya ili elan etməsi ilə əlaqədar Bakı Dövlət Universitetində ekologiya və torpaqşünaslıq fakültəsi yaradılmışdır. Fakültənin ekokimya, bioekologiya və digər kavedraları da Xəzərin problemləri ilə məşğul olurlar.

Universitetimizdə Xəzərin ekologiyası və mühafizəsi, sahil zonalarının ekolgiyası və mühafizəsi və s. fənnlər tədris olunur. Universitetimiz Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə ənənəvi əməkdaşlığa malikdir. Həmin sahədə əməkdaşlığın genişləndirilməsinə böyük ehtiyac vardır.

**Mirzəxan MƏNSİMOV:**

– Biz dənizdə müxtəlif layihələr həyata keçiririk, konstruktiv işlər görürük. Ekoloji məsələlərlə bağlı faktiki nümunələr, dib çöküntüləri götürürük. Həmin nümunələrin üzərində bioloqlar, ekoloqlar işləyirlər. Yəni biz rəsmi məlumatlar ala bilməsək də, özümüzdə müəyyən informasiyalar olur. Ona görə də bu məsələlərin nəbzini tutmağa hər an hazırıq. Deyərdim ki, bizim öz milli koordinasiyamız və milli ideyalarımız olmalıdır. Biz təhsilli xalqıq. Düşünürəm ki, ölkəmizdə Xəzərlə bağlı Elmi-Tədqiqat İnstitutu yaradılmalıdır. Yeri gəlmişkən, Xəzərdən ən çox bəhrələnən ölkə Rusiyadan sonra Azərbaycan olub. Bu məsələlərə qayıtmalıyıq. Biz, sözün əsl mənasında, dəniz ölkəsi olmalıyıq. Özəl sektorun təmsilçisi kimi, biz Coğrafiya İnstitutuna, eləcə də digər qurumlara lazımi avadanlıq və cihazlarla yardım edə bilərik.

**Səid SƏFƏROV:**

– Mənə elə gəlir ki, bu gün ən böyük problemimiz təhsillə, elmlə bağlı təşkilatlar arasında əlaqələrin, demək olar ki, olmaması ilə bağlıdır. İstənilən alimə tədqiqatlar, müşahidə materialları lazımdır. Düşünürəm ki, Xəzərin səviyyəsi, sərt temperaturu, digər parametrlər haqqında informasiyalar hamı üçün əlçatan olmalı, internetdə yerləşdirilməlidir. 50 il əvvəl Azərbaycanın Mədətzadə, Şıxlınski kimi iqlimşünasları var idi. Onlar Coğrafiya İnstitutu ilə birgə fəaliyyət göstərirdilər. İndi, sanki, aramızda keçilməz sədd yaranıb.

**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ,**
**Elşən AĞALAR (foto)**
**XQ**

# Asiya nəhəngi ölkəmizə 100 milyon dollarlıq investisiya yatırıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında Azərbaycan və Çin arasında ticarət və investisiya əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini bildirib.**

Xatırladaq ki, hər iki ölkə arasında yüksələn əlaqələri iqtisadi sahədə Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində birgə əməkdaşlıq, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) ilə icra olunan layihələr, respublikamızın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulması, Şərq–Qərb, Orta Dəhliz layihələri çərçivəsində tərəfdaşlıqlar və paytaxt Pekin şəhərində Azərbaycan Ticarət Evinin açılışı daha da gücləndirib.

Hər iki ölkə arasında münasibətlər bu gün "Bir kəmər, bir yol"la yanaşı, digər iqtisadi sahələrdə də sürətlə inkişaf edir. SOCAR dost ölkəyə Azərbaycan və digər mənşəli xam neft, neft, neft-kimya məhsullarının, eləcə də mayeləşdirilmiş qazın (LNG) təchizatını uğurla həyata keçirir. Azərbaycanın elekroenergetika sektorunda Çin şirkətlərinin fəal iştirakı enerji əməkdaşlığını getdikcə möhkəmlədir. Bununla bərabər, Çinin enerji müəssisələri ilə uzunillik əlaqələr hazırda "yaşıl enerji" və "yaşıl texnologiya"lar üzrə layihələrlə münasibətlər yeni inkişaf mərhələsinə daxil olur. Bu xüsusda 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında "Dongfang" şirkətinin iştirakı, "China Gezhouba Group Overseas Investment" müəssisəsinin 2 QVt gücündə bərpaolunan enerji layihəsinin icrasında fəaliyyəti respublikamız tərəfindən yüksək dəyərləndirilir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, respublikamızın ticarət dövriyyəsində Çin əsas ölkələr siyahısında 4-cü yerdə qərarlaşıb. Təkcə ötən il ərzində Azərbaycandan Çinə ixrac olunan mal və məhsulların dəyəri 70 milyon dollara yaxınlaşıb. Qeyri-neft məhsullarının ixracı isə 20 milyon dolları keçib.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Çin bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. İqtisadiyyat naziri Mikayıl Cabbarov həmin Ticarət Evinin açılışında vurğuladığı kimi, dost ölkədə sayca 4-cü ticarət evi olacaq bu iqtisadi-ticari mərkəz ticarət və mədəni mübadilə üçün dinamik platforma rolunu oynayacaq.

Çin şirkətlərinin Azərbaycanda fəaliyyəti davamlı genişlənərək sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələri əhatə edib. Dost ölkənin 1995-ci ildən indiyədək respublikamıza yatırdığı birbaşa investisiyanın həcmi isə, təqribən, 100 milyon dollara çatıb.

Genişlənən siyasi dialoq, iqtisadiyyat, nəqliyyat, logistika, infrastruktur, investisiya, enerji və digər sahələrdə uğurlu əməkdaşlıq Çin şirkətlərinin ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində fəal iştirakına da gətirib çıxarıb ki, bu da, öz növbəsində, iki ölkə arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlməsini şərtləndirib.

Qədim İpək yolunun üzərində yerləşən Azərbaycan və Çinin yüksələn xətt üzrə inkişaf edən ikitərəfli iqtisadi əlaqələri ən çox infrastruktur layihələrində nəzərə çarpır. Həm Azərbaycan, həm də Çinin birgə infrastruktur layihələri icra etməsi qarşılıqlı etimada əsaslanan fəaliyyətin parlaq ifadəsidir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yol infrastrukturu, gəmiqayırma və digər nəqliyyat-tranzit və logistika layihələri, həmçinin, Orta Dəhlizin Azərbaycan seqmenti üzrə əməkdaşlıq, işğaldan azad edilən ərazilərin tikinti-quruculuq işlərində dost ölkə şirkətlərinin iştirakı, respublikamızın isə "Bir kəmər, bir yol" layihəsinə qoşulması, Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiya yatırması, Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisində (CIFTIS) iştirakı ilə hər iki ölkənin qarşılıqlı iqtisadi əlaqələri daha da möhkəmlənir.

2017-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin istifadəyə verilməsi nəticəsində Azərbaycanın təşəbbüsü ilə Çin və Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi formalaşıb.

Orta Dəhliz isə hər iki ölkə üçün deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli nəqliyyat layihəsidir. Bu gün Azərbaycan Orta Dəhlizin reallaşmasına töhfə verən əsas ölkələrdəndir. Sözügedən marşrut isə Asiya və Avropanı birləşdirən vacib nəqliyyat dəhlizlərindən birinə çevrilmək üzrədir.

Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı–Tbilisi–Qars xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi önəmli infrastruktur layihələri bu qlobal təşəbbüs və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır.

Bundan başqa, hər iki ölkənin nümayəndə heyətlərindən ibarət qarşılıqlı səfərlər zamanı tərəflər günəş, külək, hidrogen enerjisi və dəniz suyunun duzsuzlaşdırılması üzrə layihələrdə əməkdaşlıq barədə müzakirələr aparır, ölkəmizin "yaşıl enerji" potensialı, azad edilmiş ərazilərimizdə bu istiqamətdə həyata keçirilən layihələr barədə məlumat mübadiləsi reallaşdırır.

Azərbaycanın işğaldan azad olunan ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri də müraciət edib. "Huawei" şirkəti isə artıq bu regionda "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icrasına başlayıb.

Qeyd edək ki, düşməndən təmizlənən ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını şərtləndirib.

***M.YAQUBZADƏ***
***XQ***

## Şuşanın "ASAN"ı olacaq

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin mediaya bildirdiyinə görə, hazırda Şuşada "ASAN xidmət" mərkəzinin yaradılması ilə bağlı işlər gedir. Gələcək illərdə isə Ağdam, Cəbrayıl və Laçın şəhərlərində regional "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərəcəyi planlaşdırılır.**




Qeyd edək ki, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini gerçəkləşdirmək məqsədi daşıyan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli fərmanına əsasən yaradılıb.

## Ödənişli xidmətlər 14 faiz artıb

**Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü ildə keçən illə müqayisədə 14 faiz artaraq 11 milyard 412 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, həmin göstəricinin 8 milyard 652 milyon manatlıq hissəsi hüquqi şəxslərə məxsus olub. Bu da xidmətlərin ümumi dəyərinin 75,8 faizini təşkil edib.

Hesabat dövründə ödənişli xidmətlərin dəyərinin 2 milyard 560 milyon manatı dövlət, 8 milyard 852 milyon manatı qeyri-dövlət sektorunun payına düşüb.

İl ərzində hər bir sakin orta hesabla 1124 manatlıq və yaxud 1 il əvvələ nisbətən 205 manatdan çox dəyərdə müxtəlif ödənişli xidmətlərdən istifadə edib.

## Horadiz–Ağbənd yolunun tikintisi davam etdirilir

**Avtomobil Yolları Dövlət Agentliyindən (AYDA) bildirildiyinə görə, ölkəmizin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısı və Araz çayı üzərində körpünün tikintisi davam etdirilir.**

Məlumatda vurğulanır ki, adıçəkilən bağlantı yolu və körpü layihəsi Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolunun 111,8 kilometrliyindən ayrılır. Hazırda 7,2 kilometrlik bağlantı yolunda süni qurğuların, həmçinin torpaq yatağının tikintisi davam etdirilir. Araz çayı üzərində uzunluğu 374 və eni isə 27,6 metr təşkil edəcək avtomobil körpüsünün inşasına da start verilib. 4 hərəkət, 2 təhlükəsizlik və ayrıcı zolaqlardan ibarət olmaqla hər bir istiqamətdə körpü üzərində 2,8 metr enində piyada səkilərinin inşası da nəzərdə tutulub.



"İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində inşa edilən avtomobil körpüsü iki ölkə ərazisindən keçən tranzit yükdaşımalarının artımına və qədim diyara gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcək. Tikiləcək avtomobil körpüsünün gündəlik buraxılış qabiliyyəti isə 1100 ədəd yük-nəqliyyat vasitələrin hərəkətini təşkil edəcək.

***XQ***

# Azərbaycan – Avropa İttifaqı münasibətləri strateji əməkdaşlıq səviyyəsinə yüksəlib

## Tərəflər arasında ticarət dövriyyəsi 24 milyard dolları keçib

**Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı səmərəli iqtisadi münasibətləri getdikcə genişlənir. Bunun nəticəsində 2023-cü il ərzində ölkəmizin ümumi ixracı 33,9 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib.**

Azərbaycan beynəlxalq aləmdə nüfuzunu genişləndirərək investisiya cəlbediciliyini artırmaqla yanaşı, Avropa İttifaqı (Aİ) ölkələri ilə də beynəlxalq ticarət əlaqələrini qarşılıqlı əməkdaşlıq çərçivəsində daim inkişaf etdirir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın hazırda ticarət əlaqələrinin 50 faizdən çoxu məhz Aİ ölkələrinin payına düşür.

Ölkəmizdə həyata keçirilən çoxşaxəli, uğurlu siyasət nəticəsində hazırda Azərbaycan dünyada baş verən iqtisadi təlatümlər fonunda dünyanın sürətli inkişaf tempinə çatan ölkələrindən birinə çevrilib. Bu, özünü daha çox çevik və səmərəli iqtisadi idarəetmənin qurulması, köklü struktur–institusional islahatların reallaşdırılması nəticəsində qeyri-neft sektorunun payının yüksəlməsi ilə büruzə verib. Qeyri–neft sənayesinin inkişafı ölkəmizin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlər hesabına sürətlənib, bunun sayəsində isə daxili istehsalın və istehlak bazarının idxaldan asılılığı azalıb, ixracın şaxələnməsi reallaşıb.

Son 20 il ərzində respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması da yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasını şərtləndirməklə yanaşı, ixrac imkanlarının genişlənməsində önəmli rol oynayıb.

Təbii ki, ixrac imkanlarının genişlənməsi üçün respublikada müxtəlif sahələri əhatə edən istehsalat sahələrinin, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin və siyasi sabitliyin yaradılması diqqət mərkəzində saxlanılıb.

Bu gün dünyada ciddi narahatlıq doğuran geosiyasi proseslər, qarşıdurmalar fonunda enerji təhlükəsizliyi zəruri amilə çevrilib. Bütün ölkələrin, xüsusilə də Avropa ölkələrinin enerji təhlükəsizliyi diqqət mərkəzində saxlanılıb. Azərbaycanın gerçəkləşdirdiyi uğurlu enerji siyasəti nəticəsində ölkəmiz Avropanın enerji təhlükəsizliyinin qarantı rolunda tanınıb.

Azərbaycan–Aİ enerji əməkdaşlığı istiqamətində 2006-cı ildə Anlaşma Memorandumu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannamə imzalanıb. Bütün bunlar Avropanın enerji xəritəsini tamamilə dəyişdirib. Neft hasilatı ilə başlayan enerji layihələri daha sonra qaz hasilatı, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərinin tikintisi, uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizinin istismara verilməsi ilə davam edib.

Artıq Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir və bununla da Azərbaycanın təbii qazı Avropaya çatdırılır. Bütün bunlar Azərbaycanın Aİ üçün önəmli tərəfdaş olduğunun bariz ifadəsidir.

Bu məsələdə respublikamızla Aİ-nin enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq əlaqələri mühüm önəm daşıyır. Azərbaycan ilə Aİ arasında bir çox sahələri əhatə edən, o cümlədən neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan səmərəli enerji dialoqu mövcuddur. Ölkəmizdə bərpaolunan enerjinin istehsalı sahəsində olan böyük potensial Aİ tərəfindən artıq yüksək dəyərləndirilir.



Hazırda külək və günəş enerjisindən istifadə edilməsi üçün investisiya qoyuluşu prosesinə başlanıb. Təkcə Qarabağ və Şərqi Zəngəzurun azad olunan ərazilərində günəş və külək enerjisi potensialının 9200 meqavat olması müəyyənləşdirilib. Xəzər dənizinin də külək enerjisi üzrə yüksək potensialı nəzərə alınaraq, yaxın gələcəkdə Azərbaycanda çoxlu sayda bərpaolunan enerji mənbələrinin yaradılacağı proqnozlaşdırılıb. Eyni zamanda, Xəzər dənizində qarşıdakı dövrdə istifadəyə veriləcək yeni qaz yataqlarının da mövcudluğu "mavi yanacağ"ın genişhəcmli ixracı üçün aydın təsəvvür yaradıb.

Bu məqamda Aİ ölkələri ilə ticarət dövriyyəsini ifadə edən statistik göstəricilər də diqqət çəkir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, Aİ ölkələri ilə ticarət dövriyyəsinin dəyəri 2023-cü ildə 24 milyard 821 milyon dollar təşkil edib.

Hesabat dövründə respublikamızdan Aİ ölkələrinə 21 milyard 821 milyon dollar dəyərində ixrac (1 il əvvələ nisbətən 12,7 faiz az), 3 milyard 84 min dollar dəyərində idxal (illik 28,5 faiz çox) əməliyyatları həyata keçirilib.

2023-cü ildə Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 64,4 faiz, ümumi idxalında payı isə 17,4 faiz təşkil edib. Bu dövrdə Azərbaycanın ən çox ticarət dövriyyəsi ardıcıl olaraq İtaliya, Almaniya, Yunanıstan, İspaniya və Çexiya ilə olub.

Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin dəyəri 15 milyard 685 milyon dollar, o cümlədən ixracının dəyəri 15 milyard 208 milyon dollar, idxalının dəyəri isə 477 milyon 903 min dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 13,4 faiz, o cümlədən ixrac 14,5 faiz azalıb, idxal isə 40,4 faiz artıb.

Ölkəmizin Almaniya ilə ticarət əməliyyatlarının dəyəri 1 milyard 824 milyon dollar, o cümlədən ixracının dəyəri 907 milyon 992 min dollar, idxalının dəyəri isə 916 milyon 421 min dollar olub. İl ərzində ticarət dövriyyəsi 45,4 faiz, o cümlədən ixrac 53,6 faiz, idxal isə 38,1 faiz artıb.

Azərbaycanın Yunanıstan ilə ticarət dövriyyəsinin dəyəri 1 milyard 395 milyon dollar, o cümlədən ixracının dəyəri 1 milyard 363 milyon dollar, idxalının dəyəri isə 32 milyon 341 min dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 1,7 faiz, o cümlədən ixrac 2 faiz azalıb, idxal isə 14 faiz artıb.

Ölkəmizin İspaniya ilə ticarət əməliyyatlarının dəyəri 888 milyon 505 min dollar, o cümlədən ixracının dəyəri 785 milyon 367 min dollar, idxalının dəyəri isə 103 milyon 138 min dollar olub. İl ərzində ticarət dövriyyəsi 19,5 faiz, o cümlədən ixrac 22,2 faiz azalıb, idxal isə 8,8 faiz artıb.

Azərbaycanın Çexiya ilə ticarət dövriyyəsinin dəyəri 767 milyon 269 min dollar, o cümlədən ixracının dəyəri 684 milyon 215 min dollar, idxalının dəyəri isə 83 milyon 54 min dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 22,5 faiz, o cümlədən ixrac 25,8 faiz azalıb, idxal isə 23,2 faiz artıb.

***V.BAYRAMOV***
***XQ***

Tarix unutmur

# Cinayət və cəza

**Sərlövhəyə baxıb, Dostoyevskinin romanından bəhs edəcəyimizi düşünməyin. Soyadı dilimizə “ləyaqət” kimi tərcümə olunan “dostoinstvo” sözündən yaranmış rus yazıçısından deyil, həmin keyfiyyətdən tamamilə xali olan sovet-rus ordusunun 34 il əvvəl Bakıda törətdiyi qanlı cinayətlərdən söz açırıq. Daha doğrusu, qanlı cinayəti törədib cəzasız qalacağına ümid edən imperiya qullarının öz zənnində yanılmasından.**



Müstəqillik istəyən, erməni faşizminin yenidən əl-qol açmasından qəzəblənən Azərbaycanda “Qanlı yanvar” qırğınını törədərək azadlıq mücahidlərinin inadını qırmaqda qərarlı olan, bununla da bünövrəsi laxlamış sovet imperiyasından qopmağa çalışan digər respublikalara göz ağardan Qorbaçov hakimiyyəti hər vəchlə tarixi cinayətini ört-basdır etməyə çalışsa da, alınmadı. Sadalayacağımız amillərin sayəsində dünya qaniçən sovet ordusunun misilsiz cinayətindən elə həmin gün xəbər tutdu.

Bakıdan ilk harayı Xəzərin sularından hadisələrə şahidlik etmiş dənizçilərimiz qaldırdılar. “Xəzər Dəniz Neft donanması”nın 100-ə yaxın gəmisi yanvarın 20-də, günün 2-ci yarısı Bakı buxtasından aramsız SOS həyəcan siqnalları verdi. Səhərə yaxın isə dünyanın 50-dən artıq ölkəsinin Sakit və Atlantik okeanlarında üzən gəmiləri dənizçilərimizin səsinə səs verdilər.

Azərbaycan televiziyasının enerji bloku bir gün öncə partladıldığına görə, Bakı studiyasının işi dayanmışdı. Amma Şuşa televiziyası bəd xəbəri bütün dünyaya car çəkə bildi. Lənkəran radio qovşağı da hadisələr zamanı susmadı. Faciəli anlarda “Azadlıq” radiostansiyasından Mirzə Xəzərin səsi də Qorbaçovun informasiya blokadasını dağıtdı. Yazıçı Yusif Səmədoğlu telefon bağlantısı ilə ona müsahibə verərək dedi ki, saat yarımdır qırğın başlanıb. Xalq şairi Bəxtiyar Vahabzadə isə həmin radiostansiyada SSRİ Ali Sovetinin Azərbaycandan olan deputatlarının bəyanatını səsləndirdi ki, dünyaya yayılsın.

Yanvarın 20-də AzTV-nin studiyası işləməsə də, baş rejissoru Vasif Babayevin rəhbərliyi ilə operatorlar Ələkbər Muradov, Seyidağa Mövsümov, Rəsul Babayev, İzzət Əzizov, Fikrət Qafarov, Adil Bunyadov və Zahid Bağırov Bakı küçələrində, xəstəxanalarda, morqlarda faciənin görüntülərini lentə aldılar. Onların çəkdiyi kadrlar bu gün də bütün dünya ekranlarında göstərilir.

Bir gün sonra xalqımızın dahi oğlu Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək bu vəhşiliyi qətiyyətlə pisləməsi, onun törədilməsi səbəblərini açıqlayaraq, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etməsi xüsusilə böyük cəsarət nümunəsi idi. Həmin bəyanat, heç şübhəsiz, informasiya qıtlığının aradan qaldırılması baxımından böyük bir jurnalistlər ordusunun görə biləcəyi işdən qat-qat artıq təsirli olmuşdu.

Ünlü fotojurnalistlər – Parisdən Bakıya gəlmiş Reza Deqati, Rasim Sadıqov, Mirnaib Həsənoğlu, Hüseyn Hüseynzadə, Fərid Əşrəfoğlu öz maşınlarının içindən, insan kütləsinin arasından, bir sözlə, mümkün olan hər yerdən həmin anları əbədiləşdirə bildilər.

Bakı qan içində, bütün dünyadan təcrid olunmuş vəziyyətdə ikən mərhum həmkarımız Məzahir Süleymanzadənin baş redaktoru olduğu “Səhər” qəzeti 2 milyon tirajla nəşr olundu və bütün ölkəyə yayıldı, müxtəlif vasitələrlə xarici kütləvi informasiya vasitələrinə göndərildi. Qəzetin növbəti nömrəsində isə Səhiyyə nazirliyinə istinadla 20 Yanvar şəhidlərinin siyahısı ilk dəfə dərc edildi. Kinostudiyanın fədakar operatorları Nizami Abbas, Köçəri Məmmədov, Rəfael Salamzadə, Bağır Rəfiyev, Zaur Məhərrəmov və Nizami Abbas həmin gecə həyatlarını təhlükəyə ataraq, qətliamın ən ağrılı anlarını ekranın yaddaşına köçürüb, gizli çəkilişlər edərək, Ramiz Fətəliyevin rəhbərliyi ilə qısa müddətdə sənədli filmlər hazırlayıblar.

Yeri gəlmişkən, fədakar həmkarlarımızın hünəri dünya mətbuatının hadisələri dərhal yaymasına vəsilə olub. Türkiyənin “Cümhuriyyət” qəzeti həmin materialları əsas gətirərək yazırdı ki, 7 milyonluq (o zaman sayımız bu qədər idi) Azərbaycan xalqı sonadək mübarizə aparacaq. Britaniyanın nüfuzlu “The Guardian” qəzeti xəbərləri “Bakı küçələri uğrunda savaş”, “Bakını itaətsizlik ruhu bürüyüb” başlıqları ilə dərc edib. Birləşmiş Krallığın “The Times” qəzetində “Gözü yaşlı Bakı izdihamı Sovet qoşunlarına qarşı müqavimət göstərir” başlıqlı yazı dərc edib. “The Independent”dəki yazı isə “Azərbaycanlılar Sovet ordusu ilə növbəti raunda hazırlaşırlar” adlanırdı.

Bəli, qanlı şənbə günü şəhidliyi gözə alaraq, qorxmadan haqq mücadiləsinə qatılan dənizçilərimiz, şair və yazıçılarımız, jurnalistlərimiz, kino və teleoperatorlarımız həm informasiya blokadasını yarıblar, həm də tarixin salnaməsini yaradıblar.

Cinayəti törədənlərin isə cəzası o oldu ki, sovet ordusuna inam çat verdi, sarsıldı, imperiyanın çöküşü sürətləndi, Azərbaycan müstəqilliyinə qovuşdu.

Həmin günlər Vətən naminə fədakarlıq göstərənlərin hamısına minnətdarlıq duyğuları ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

Şəfiqə Axundova – 100

# Nəğmələrində yaşayan sənətkar

**Onun adı musiqi mədəniyyətimizin tarixinə belə yazılıb. Çünki o, 1972-ci ildə yazdığı “Gəlin qayası” operası ilə həmin titulu qazanıb. Operada klassik musiqi ilə muğam janrlarını bacarıqla sintez edib ki, bu da bəstəkarın xalq musiqisini dərindən bilməsinə dəlalət edir. Təsadüfi deyil ki, bu opera hələ də Azərbaycan Opera və Balet Teatrının səhnəsində müvəffəqiyyətlə oynanılır.**



Şəfiqə Axundova 1924-cü il, yanvarın 21-də Şəki şəhərində dünyaya gəlib. Musiqiyə marağı çox kiçik yaşlarından hiss olunub. Balaca qızcığazın ürəyi nəğmə ilə dolu idi. Nəğmələrin könül sığalı iliyinə, qanına işləyirdi. Bədahətən nəğmələr bəstələyir, mahnılar qoşurdu. Lakin gələcəkdə görkəmli bəstəkar olacağı heç ağlına da gəlməzdi.

…Bakıdakı 173 saylı orta məktəbdə oxumaqla yanaşı, musiqi məktəbində də təhsil alırdı. Müəllimləri Şəfiqənin istedadına heyran qalır və gələcəkdə musiqi sahəsində böyük uğurlar qazanacağına ümid bəsləyirdilər. Onun həyatında musiqi istedadı ilə bağlı sevincli hadisələr baş verirdi. Amma atası Şəfiqənin böyüyəndə musiqiçi olacağını qəbul etmirdi. Böyük bacısı Zümrüd xanım isə ona həmişə dəstək olurdu. Onun musiqi istedadının daha da parlaması üçün əlindən gələni əsirgəmirdi.

Akademik Məmməd Arif Dadaşzadənin həyat yoldaşı olan Zümrüd xanım öz evlərində bacısı Şəfiqə üçün münbit bir mühit yaratmışdı. Belə ki, dövrün böyük ziyalıları bu evə qonaq gələndə Şəfiqə onlar üçün pianoda öz musiqi incilərini ərmağan edərdi. Artıq bu istedadlı qızı Səməd Vurğun, Həmid Araslı, Mirzə İbrahimov, Cəfər Xəndan kimi görkəmli şəxsiyyətlər tanımağa başlayır, istedadına yüksək qiymət verirdilər. Çox keçmir ki, Xalq yazıçısı Mirzə İbrahimov onu Üzeyir Hacıbəyli ilə tanış edir. Dahi bəstəkarla tanışlıq Şəfiqənin sənət zirvəsinə ucalmasında böyük rol oynayr. Buna görə də o, həyatda qarşısına çıxan belə xeyirxah insanlardan çox razılıq edirdi.

Şəfiqə Axundova 1943–1944-cü illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən Üzeyir Hacıbəylidən dərs alıb. Daha sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Orada bəstəkarlıq ixtisası üzrə B.Zeydmanın sinfini bitirib.

Onun sənətə gəldiyi illər İkinci Dünya müharibəsinə təsadüf etdiyinə görə, əsgərlərə mənəvi dayaq olan mübariz ruhlu nəğmələr yazırdı. O dövrün “Zəfər marşı”, “Zəfər bizimdir”, “Ana Vətən” kimi populyar mahnıları bu qəbildəndir.

1943-cü ildə o, ilk dəfə Əyyub Abbasovun "Adil və Sərvinaz" tamaşasına musiqi bəstələdi. Bəstəkar bu janra sonralar daha çox müraciət edib. “Son məktub”, “Qaynana”, “Böyük ürək”, “Vicdan”, “Sən nə üçün yaşayırsan”, “Qızıl Əjdaha”, “Natəvan”, “Yaşar”, “Aydın” kimi tamaşaları öz nəğmələri ilə bəzəyib.

Şəfiqə Axundovanın çox mahnıları dillər əzbəridir. O, “Həyat, sən nə şirinsən”, “Gözlərimin işığı sənsən”, “Tapmayacaqsan məni”, “Mehriban olaq”, “Hardasan sevgilim, gəl”, “Gəl, ey səhər” kimi 500-dən çox mahnının, romansın da müəllifidir. Şəfiqə Axundova Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Mirvarid Dilbazi kimi böyük şairlərin şeirlərinə nəğmələr bəstələyib. Müasirlərindən də bir çox şairlərin – Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Fikrət Qocanın, Hüseyn Arifin və başqalarının yaradıcılığına müraciət edib. Korifey sənətkarlarımız Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Sara Qədimova, İslam Rzayev, Arif Babayev və digərləri onun mahnılarını sevə-sevə ifa edib və dinləyicilərə sevdiriblər. Əsərləri, demək olar ki, hər gün efirlərdə səslənir.

O, Vətən, vətənpərvərlik haqqında da çox mahnılar yazıb. “Bakı haqqında mahnı”sını, “Şəki”, “Sahil çıraqları”, “Nəğməli Lənkəran”, “Mənim respublikam”, “Ana torpaq”, “Doğma diyar”, “Bu torpağa borcluyam” və s. mahnılarını xüsusilə qeyd etmək lazımdır. Bu nəğmələrdə yurd sevgisi, Vətən eşqi kimi motivlər çox güclüdür.

Bəstəkarın əsərləri sırasında “Leyla”, “Bəxtiyar ellər”, "Ev bizim, sirr bizim” operettasının, simli kvartet üçün pyeslərin, dramatik teatr üçün “Aydın”, “Əlvida, Hindistan!” və s. tamaşalara, “Təlxəyin nağılı”, “Dovşanın ad günü” kimi uşaq tamaşalarına yazdığı musiqiləri radionun qızıl fondunda saxlanılır. Çoxsaylı teatr tamaşalarında – “Ev bizim, sirr bizim” operettasında simfonik orkestr üçün yazdığı süitalar, simli kvartet üçün pyesləri, xor üçün silsilələr onun bir bəstəkar kimi hərtərəfli istedada malik olmasını təsdiqləyir.

O, həm də peşəkar pedaqoq və müəllim kimi uzun illər Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində tələbələrə dərs deyib. Əməkdar incəsənət xadimi Şəfiqə Axundova 1998-ci ildə Xalq artisti adına layiq görülüb və 2004-cü ildə isə “Şöhrət” ordeni ilə təltif olunub. 2013-cü ildə, 89 yaşında vəfat etsə də, nəğmələrində yaşayır.

***Həzi HƏSƏNLİ,***
***şair - publisist***

Bölgələrdə ədəbi həyat

# Mingəçevirdə şölə saçan söz ocağı

**Azərbaycan Yazıçılar Birliyi Mingəçevir Bölməsinin sədri, şair-publisist İsmayıl İmanzadə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində dünyaya göz açıb. İlk dəfə “İşıqlar” adlı şeiri rayon qəzetində, “Söyüd” adlı şeiri isə “Ədəbiyyat və incəsənət” qəzetində dərc olunub. Hazırda 30 kitabın müəlifidir.**



Füzuli və Cəbrayıl rayonlarında 19 il müəllim işləmiş, bir sıra məsul vəzifələrdə çalışmış İsmayıl İmanzadə 1993-cü ilin avqust ayına kimi rayonun yazarlarını bir araya gətirən “Ümid” Ədəbi Klubuna rəhbərlik edib. Məcburi köçkün kimi Mingəçevirə gələndən sonra uzun illər burada nəşr olunan “Səda” və “Mingəçevir” qəzetlərində şöbə müdiri olub. Bəstəkarlar Şəfiqə Axundova, Nadir Əzimov və başqaları onun 50-yə yaxın şeirini mahnıya çeviriblər. Düz 25 ildir ki, AYB-nin Mingəçevir bölməsinə rəhbərlik edir. Onunla müsahibəni təqdim edirik:

***– İsmayıl müəllim, bildiyimiz kimi, torpaqlarımız işğal olunanda Qarabağda yaşayan yaradıcı ziyalıların böyük bir qismi Bakıya üz tutdu. Sizsə yenidən əyalətdə yaşamağa üstünlük verdiniz. Maraqlıdır, niyə məhz Mingəçeviri seçdiniz?***

– Tale belə gətirdi. Əslində, Bakıda çoxlu tanışlarım, yazar dostlarım vardı.

Düşmən qəfil başımızın üstünü kəsdirəndə, başqaları kimi, mən də Arazı keçib İrana, sonra isə Biləsuvar ərazisindəki qaçqın düşərgəsinə getdim. Bir neçə gündən sonra boş ciblə, köhnə əyin-başla Bakıda kimlərinsə himayəsinə sığınmağı özümə rəva bilmədim və heç bir tanışlığım olmayan Mingəçevirə gedəsi oldum. Beləcə, burada yaşayıb-yaratmağa başladım. Şükürlər olsun ki, öz zəhmətimlə ayaqda qalmağı bacardım və heç kimin qarşısında gözükölgəli olmadım...

***– Bəs, AYB-nin şəhərdəki bölməsi necə açıldı?***

– Qəzetdə işləməyim məni şəhərin ədəbi aləmi ilə doğmalaşdırdı. Mingəçevirdə Azərbaycan Yazıçılar Birliyinin yeganə üzvü idim. 1995-cı ildə pedaqoji universitetdə oxuyan tələbə qızıma baş çəkmək üçün Bakıya getmişdim. AYB-nin binasında “Ulduz” və “Azərbaycan” jurnallarına şeirlərimi təqdim etdim. İkinci mərtəbəyə enəndə Xalq şairi Fikrət Qoca ilə rastlaşdım. Onun iş otağında söhbət edərkən Mingəçevirdə AYB-nin bölməsinin açılmasını arzuladığımı dilə gətirdim. Onun təklifi ilə birlikdə Anar müəllimin yanına getdik. Təklifim bəyənildi, amma Mingəçevir Şəhər İcra Hakimiyyətinin ovaxtkı başçısı bu istəyin reallaşmasına müəyyən maneələr törətsə də, ondan sonra həmin vəzifəyə təyin olunan Məhəbbət Qarabağlı işimizə xeyir-dua verdi. AYB-yə lazımi müraciət göndərildi və bölmə üçün otaq ayrıldı, təmir edildi və fəaliyyətə başladıq.

***– Həmin vaxtdan artıq 25 il keçir. Əsrin dörddə-biri ərzində AYB-nin Mingəçevir bölməsi şəhərdə ədəbi aləmin formalaşması naminə hansı işləri görüb?***

– Dəyərli alim dostum Rüstəm Kamalın və tanınmış ictimai xadim, ədəbiyyatşünas Ramiz Göyüşün mətbuatda dərc edilmiş yazılarında deyildiyi kimi, sovetlər birliyi dövründə rus dilinin hökm sürdüyü bir şəraitdə tədricən kosmopolitləşən bir şəhərin adını ölkəmizin “ədəbi xəritəsinə” yazdıra bilmişik. İllər uzunu Mingəçevirdə yaşasalar da, uzaqbaşı arabir imzaları yalnız yerli mətbuatda görünən qələm sahiblərinin əsərlərinin mərkəzi mətbuata “ayaq açmasına” bölmə yardımçı olub. 2001–2003-cü illərdə bölmənin nəşr etdirdiyi “İnam” qəzeti, 2008–2020-ci illər aralığında isə işıq üzü görən “Bənövşə” (əvvəlki adı “Mingəçevir leysanı”) jurnalı da yazarlarımızın ölkə səviyyəsində tanınmasına böyük töhfələr verib.

Bildirim ki, 2014–2022-ci illər aralığında “Aranın söz sovqatı”, “Uzaqdan gələn səs”, “Bir ocağın şöləsiyik”, “Ruhumuzun yaz havası” adlı almanaxlarımız nəşrolunub və həmin topluların hər birinin həm Mingəçevirdə, həm də AYB-nin Natəvan klubunda təqdimat mərasimləri keçirilib. Ölkə Prezidentinin sərəncamlarına əsasən, klassik və çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarının yubileyləri, çoxsaylı poeziya gecələri və kitab təqdimatları keçirilib. Ötən il ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə şəhər icra hakimiyyətinin dəstəyi ilə 2 nominasiya üzrə şeir müsabiqəsi təşkil etmişik.

***– Bölmə üzvlərindən kimlərin adını çəkərdiniz?***

– Ayrı-ayrı illərdə istedadlı yazarlarımızdan Bəsti Bərdəli, Qaraş İsmayıl, Fəxrəddin Əziz, Məhyəddin Məhərrəmoğlu, Zümrüd Rəhimova, Əhməd Süleymanov, Sabir Abdinli, Rafiq Ələkbər, Elşən Əzim, Nəsib Süleymanov, Zahid Kədər, Əbülfət Həsənoğlu, Səxavət Kəlbəcərli, Elçin Məhərrəmli, Rəfael Dəmiroğlu, Namiq Zaman... bizim təqdimatımızla AYB üzvlüyünə qəbul olunublar. Müntəzəm olaraq hər ayın 15-də və ayın sonuncu bazar günündə bölmənin tərkibində fəaliyyət göstərən “Palitra” Ədəbi Klubunun məşğələləri keçirilir. Bölmənin fəal üzvlərindən Bəhman Gülövşəli, Məmməd Mərzili, Mehman Rəsulov, Samir Zəngəzurlu, Namaz Manafov və başqalarının da adını qeyd etmək istərdim.

***– İsmayıl müəllim, torpaqlarımız azad olunandan sonra Cəbrayıla, Böyük Mərcanlıya getmisinizmi?***

– Ötən il aprel ayında o ulu məkanda olmuşuq. Tarixi Zəfərimizdən sonra yolların çəkilişi, rayon mərkəzinin və bir çox kəndlərin bərpası yönündə görülən önəmli işlər bizi qürurlandırıb. 30 illik yurd həsrətimizin sonunda keçirdiyimiz sevinc hissi qəriblikdə üzləşdiyimiz ağrı-acılarımızın üstündən biryolluq xətt çəkmək gücündədir. Bu sevinci bizə bəxş eləyən Ali Baş Komandana, Milli Ordumuzun əsgər və zabitlərinə dönə-dönə minnətdarlığımızı bildiririk! Şəhidlərimizə ulu Tanrıdan rəhmət diləyir, qazilərimizə isə cansağlığı arzulayırıq.

***– Yəqin ki, Cəbrayıla qayıdışın ön sıralarında olacaqsınız.***

– O günü həsrətlə gözləyənlərdən biri də mənəm. İnşallah, Allahdan ömür möhlətim tükənməyibsə, qayıdıb yaradıcılığımı doğma yurdumda davam etdirəcək, rayonumuzun mədəni aləminin dirçəldilməsi naminə əlimdən gələni edəcəyəm. Gün o gün olsun ki, növbəti müsahibəni “Xaq qəzti”nə orada – dünyaya göz açdığım Böyük Mərcanlıda verim!

***Müsahibəni qələmə aldı:***
***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Hər kitab bir dünyadır

## “Piano əsərləri”




***Türkiyədə ilk dəfə, əsasən, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət olan “Piano əsərləri” dərsliyi nəşr edilib.***

Kitabın müəllifi Ankara Dövlət Opera və Balet Teatrının əməkdaşı, peşəkar fortepiano sənətçisi, həmyerlimiz Nailə Əhmədovadır. Qardaş ölkədə çox sevilən Azərbaycan musiqilərinin belə bir tərtibatda hazırlanıb, dərs vəsaiti kim təqdim edilməsi fərəhli haldır. Zəngin repertuar seçimi olan kitabda Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Asəf Zeynallı, Qara Qarayev, Musa Mirzəyevlə yanaşı, avropalı bəstəkarların da əsərləri yer alıb.

Nailə Əhmədovanın dediyinə görə, Türkiyə musiqi ictimaiyyətinin maraqla qarşıladığı dərs vəsaitinin daha geniş tərtibatda və tirajda yayılması nəzərdə tutulur. Çünki orada Azərbaycan musiqiləri üzrə fortepiano dərsləri almaq istəyənlər çoxdur.

Kitab “Arkadaş” Yayın Evində çap olunub.

## Yazıçının “Könül elçisi...”

***Tanınmış tədqiqatçı-yazıçı Nəriman Əbdürrəhmanlının “Könül elçisi, yaxud Don Xuan de Persiya – Oruc” romanı Güney Azərbaycanda ikinci dəfə nəşr olunub.***

Dünya – yaşam deyilən şey sirr içində sirdir. Yoxsa mövcudluğun mənası olmazdı…

N.Əbdürrəhmanlının bu tarixi bestselleri Səfəvi hökmdarı I Şah Abbasın 1599–1601-ci illərdə Moskva çarlığına və Avropa ölkələrinə göndərdiyi səfarət barədə, səfarətin birinci katibi, zəmanəsinin gözəl təhsil görmüş adamlarından




olan, döyüşçü, şair, rəssam, Qərbdə Don Xuan de Persia adıyla tanınan Oruc bəy Bayatın ömür hekayəti haqqındadır.

Həqiqətən birnəfəsə oxunan romanda siyasi qarşıdurmalar, xəyanətlər, qətllər, fırıldaqlar, əzablarla yanaşı, gözəl eşq macəraları da var…

***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT



# Donald Trampın Ağ Evə qayıtmaq şansları artır

## Avropa bundan niyə narahatdır?

(əvvəli 1-ci səhifədə)

Ona görə də bu seçkidə uğur və ya uğursuzluq namizədin gələcək kampaniyasına ciddi təsir göstərə bilir.

Beləliklə, Respublikaçılar Partiyasının namizədi D.Tramp Ayova seçicilərinin 55 faizdən artıq səsini qazanıb və bu da prezidentliyə namizəd seçiləcək respublikaçıların milli qurultayında onun xeyrinə, ən azı, 20 nümayəndənin səsini təmin edib.

Respublikaçılar üçün bu əlamətdar hadisədən dərhal sonra məlum olub ki, Trampın iştirakı ilə 2020-ci il seçkilərinin saxtalaşdırılması istintaqını aparan dairə prokuroru Fani Uillislə onun xüsusi prokuror təyin etdiyi evli məşuqəsi Natan Ueydla çox dolaşıq sevgi qalmaqalı alovlanmaqdadır. ABŞ-ın "New York Post" nəşri yazıb ki, Trampa qarşı qaldırılmış iş dairə prokuroru haqqında olan korrupsiya istintaqı üzündən öz-özünə alt-üst olub gedəcək.

İnsanlar, həmçinin nüfuzlu dairə prokurorunun sabiq prezident Tramp və onun müttəfiqlərinə qarşı qalmaqallı bir iş üzərində işləyərkən, şəxsi həyatı ilə peşə fəaliyyətini qarışdırıb evli olan Ueydlə romantik səyahətə nəyə görə getdiyini anlaya bilmirlər.

İndi 44 yaşlı Uillisin 51 yaşlı Natan Ueydi işə götürmək və ona komandasındakı digər iki yüksək peşəkar hüquqşünasdan minlərlə dollar daha çox maaş ödəmək qərarı xoşagəlməz nəticələrə səbəb olub və bu, təkcə onun karyerasını deyil, həm də prezident seçkilərinə müdaxilədə ittiham olunan Trampa qarşı məhkəmə iddiasını alt-üst edir.

Yeri gəlmişkən, Uillisə qarşı səs-küylü vəsatəti yanvarın 8-də Trampın işinə görə ittiham olunan Maykl Roman təqdim edib. Roman dairə prokurorunun Ueydlə "uyğun olmayan" və "gizli münasibət"də olduğunu iddia edərək, ona qarşı ittihamların geri götürülməsini istəyib.

Uills və Ueyd arasında əlaqənin ilk sübutu, Ueydin həyat yoldaşının vəkilləri tərəfindən ötən cümə günü məhkəməyə təqdim edilən bank qeydlərdir. Sənədlərdən məlum olub ki, Ueyd xüsusi prokuror təyin edildikdən sonra şəxsi kredit kartı ilə 2022 və 2023-cü illərdə San Fransisko və Mayamiyə bilet alıb.

Əldə edilən məlumatlara görə, Uells 2022-ci ilin yanvar ayından etibarən Ueydə vergi ödəyicilərinin pulundan, ən azı, 675 min dollar ödəyib və onların hər ikisinin bu vəsaitdən təmtəraqlı tətil üçün istifadə etdikləri bildirilir.

Amma Trampın Ağ evə qayıtmasının getdikcə reallaşmağa doğru yaxınlaşdığını göstərən təkcə bu iki fakt deyil. Yanvarın 22-də "Fox News" nəşri məlumat verib ki, prezident seçkilərində respublikaçıların iddialı namizədlərindən biri, Florida ştatının qubernatoru Ron Desantis namizədliyini geri götürüb və Trampı dəstəklədiyini bildirib. Sabiq prezident keçmiş rəqibinin bu jestini çox yüksək qiymətləndirərək deyib: "Mən əvvəlcə Ron Disantesi, əlbəttə ki, son dərəcə gözəl bir insanı və onun həyat yoldaşı Keysini çox əla prezident seçkisi kampaniyası keçirdiklərinə görə təbrik etmək istərdim...Siz bilirsiniz ki, o, bu gün saat 15:00-da seçkiqabağı yürüşdən çıxıb. Bundan başqa, o, çox xoş münasibət nümayiş etdirərək mənim namizədliyimi dəstəkləyib. Mən bunu yüksək qiymətləndirir və Roni ilə işləməyi böyük səbirsizliklə gözləyirəm..."

Bütün bu faktları geniş şərh edən dünya mətbuatı Trampın payız seçkilərindən sonra Ağ evə qayıtmaq imkanlarını diqqətdə saxlayaraq, ABŞ-la münasibətləri tənzimləməyi onun hakimiyyətə gəlişi vaxtına saxlamağa üstünlük verirlər. Çünki aydın görünür ki, Tramp artıq hakimiyyətə gəlməmişdən geosiyasətə ciddi təsir göstərir.

"Foreign Affairs" jurnalı yanvarın 21-də dərc etdiyi "Tramp hələ prezident olmamış geosiyasətə təsir göstərir" məqaləsində yazır ki, dünya ölkələrinin liderləri artıq dərk etməyə başlayırlar ki, payızda ABŞ-ın sabiq prezidenti D.Tramp Ağ evə qayıda bilər. Ona görə də bəzi xarici hökumətlər Amerika ilə münasibətləri tənzimləyərkən bu amili daha çox diqqətdə saxlayırlar. Onlar bir çox qərarlarını payızda keçiriləcək seçkilərdən sonraya saxlayaraq, Vaşinqtonla məhz bu vaxtlar daha münasib sövdələşmələrə nail ola biləcəklərini düşünürlər. Çünki faktiki olaraq Tramp bu sövdələşmələrin onlar üçün nə qədər yaxşı və ya pis ola biləcəyini müəyyənləşdirə bilər. Bununla yanaşı, bir çox dövlət başçıları da Trampın qayıdışının onların vəziyyətini necə pisləşdirə biləcəyini təhlil edərək, mümkün risklərdən qorunmaq üçün bu cür ssenarilərdən sığortalanmağa hazırlaşır və uyğun yollar axtarmağa başlayırlar.

Məqalənin müəllifi Qrem Ellison sonda yazır: "2024-cü il çox təhlükəli il olacaq, çünki dünya ölkələri Birləşmiş Ştatların siyasətinə etimadsızlıq, qürur, dəhşət və ümid qarışıq hisslərlə baxırlar. Onlar bilirlər ki, bu siyasi teatr təkcə ABŞ-ın növbəti prezidentini deyil, həm də dünyanın ən qüdrətli liderini seçəcək".

Aydın məsələdir ki, ABŞ Avropa üçün həmişə böyük əhəmiyyət kəsb edib. İndi isə Vaşinqtonun rolu daha da böyüyüb. Ona görə kontinenti böyük qorxu bürüyüb: əgər Tramp qələbə çalsa, nə baş verəcək? Bu isə təkcə Trampın Rusiya Prezidenti Vladimir Putinə olan xoş münasibətilə deyil, həm də Ağ evin keçmiş sahibinin öz postuna sahib çıxacağı təqdirdə həyata keçirəcəyi təcridçilik siyasəti ilə bağlıdır. Çünki respublikaçıların hazırki ritorikasından aydın görünür ki, Ağ evin yeni sahibi Avropanı və NATO-nu maliyyələşdirməni dayandıracaq. Bu, bəlkə də Avropa İttifaqı (Aİ) ölkələrini narahat edən yeganə məsələdir.

Keçmiş avropalı diplomat, hazırda Aİ Təhlükəsizliyi İnstitutunun direktoru Stiven Everts Trampın qayıtma perspektivini "bir qədər qorxulu" adlandıraraq yazır ki, Almaniyanın və bütün Avropanın təhlükəsizlik sistemində boşluqları doldurmaq üçün siyasi iradə zəifləyib. Ancaq, əgər Tramp ABŞ prezidenti seçilərsə, Almaniya respublikaçılar administrasiyasının kontinentin müdafiə sistemi üçün yaradacağı boşluğu doldurmaqda NATO-nun Avropada mühüm dövlətinə çevriləcək.

Əlbəttə, Ağ ev administrasiyasının tərəfdarları Amerikanın liderliyini azadlıq uğrunda mübarizədə əvəzedilməz güc kimi görürlər. Onlar açıq etiraf edirlər ki, "Trampın ikinci prezidentliyi dünyanın üç sütunu – azadlıq, sabitlik və beynəlxalq qaydalar üçün birbaşa təhlükəyə çevriləcək".

*Hazırladı:*
*İlqar RÜSTƏMOV*
*XQ*

# HƏMAS–İsrail müharibəsi: yeni dünya düzəninin cizgiləri

**Bu gün dünya siyasətində yeni düzən formalaşır. Reallıq budur ki, köhnə qaydalar işləmir, yeni qaydalar isə yaranmayıb. Hətta bunu BMT-nin Baş katibi Antonio Quterreş dəfələrlə etiraf edib. Yaxın Şərqdə gedən proseslər isə qlobal siyasətin bəzi gizlin məqamlarını üzə çıxarıb.**



**Dövlət İdarəçilik Akademiyasının dosenti, fəlsəfə doktoru, politoloq Hüseyn İbrahimov ilə söhbətimiz, əsasən, HƏMAS–İsrail münaqişəsinin tarixi, mövcud durumu və regiondakı son hadisələrin qlobal siyasətə təsiri barədədir. Hüseyn müəllim əvvəlcə bunları dedi:**

– Qeyd etmək lazımdır ki, HƏMAS–İsrail qarşıdurmasının tarixi aspektləri elə də yaxın məsafədə deyildir. Bu məsələ hələ ötən əsrin ortaları və ikinci yarısında Yaxın Şərqin başlıca problemi kimi diqqəti çəkmişdir. Həmin dövr bu qarşıdurma daha çox Fələstin–İsrail qarşıdurması olaraq davam etmiş, hazırkı dönəmdə isə HƏMAS–İsrail müharibəsi kimi araşdırılır. İsrailin əsas məqsədi HƏMAS-ın və Hizbullahın Qəzzada təsirini tamamilə aradan qaldırmaqdır.

Qeyd etmək lazımdır ki, HƏMAS-ın 3 ay əvvəl İsrailin mövqelərinə atəş açması müharibənin yeni dalga ilə vüsət almasına səbəb oldu. Dini-ideoloji, eləcə də təhlükəsizlik problemi və regional ziddiyyətlər müharibənin əsas səbəbləri kimi göstərilə bilər. Hazırda girovların azad edilməsi məsələsi ətrafında anlaşılmazlıqlar mövcuddur.

**– Yaxın Şərqdə daha geniş müharibə təhlükəsi nə qədər realdır?**

– Etiraf etmək lazımdır ki, dünya birliyi, böyük güclər bu müharibənin qarşısının alınması üçün səylər göstərirlər. Məsələn ABŞ rəsmiləri bu bölgəyə indiyədək 4 səfər etmişlər. London və Vaşinqtonda, eləcə də Qərbi Avropa ölkələrində geniş ictimaiyyətin Qəzzada dinc sakinlərin ölümünə etirazları artır. Ancaq bunlar kifayət etmir.



Münaqişənin qarşısının alınması və sülh danışıqlarının başlanmasının tərəfdarı olan qüvvələrin strategiyaları tam aydınlaşmadığından bu istiqamətdə təsirli tədbirlər də aşagı səviyyədədir. HƏMAS-ın 105 gün əvvəl İsrail tərəfinə qəfil hücumunun özü də şübhəli və sual doğuran məqamdır.

HƏMAS–İsrail qarşıdurması yeni dünya düzəninin bu vaxta qədər naməlum olan bir çox sirlərini artıq üzə çıxarıb. Bəzi ölkələrin kimin yanında yer aldığı artıq bəllidir. Beləliklə, qlobal siyasətin bir çox cizgiləri artıq göz önündədir.

**– Türkiyə problemin həlli ilə bağlı ilk gündən dəyərli təşəbbüslər göstərsə də savaş davam edir.**

– Qardaş Türkiyə münaqişənin ədalətli prinsiplərlə həlli üçün səylər göstərir. Rəsmi Ankaranın mövqeyi dünya güc mərkəzlərinin sərgilədiyi mövqelərlə müqayisədə daha aydındır. Çünki Türkiyədə bu məsələnin həlli ilə bağlı həm rəsmi dairələrin, eləcə də ictimaiyyətin mövqeləri üst-üstə düşür.

Türkiyə təcili olaraq tərəflər arasında atəşkəs elan edilməsinin və sülh danışıqlarının başlanmasının tərəfdarıdır. Ankara haqlı olaraq hesab edir ki, iki millət, iki dövlət prinsipinə mütləq əməl olunmalıdır. Müharibənin ilk günlərindən rəsmi Ankaranın aydın mövqeyi dinc sakinlərin zərər görməməsi, girovların azad edilməsi hədəflərinə hesablanmışdır. Bu gün humanitar və təhlükəsizlik amillərinə uygun addımlar rəsmi Ankaranı daha çox məşgul edir.

**– Yaxın Şərqdəki hadisələrin Cənubi Qafqaz regionuna hansı təsirləri ola bilər?**

– Cənubi Qafqaz dünya güclərinin ən uzaqda yerləşən böyük dövlətlərin belə hər zaman maraq dairəsindədir. Ölkəmizin mövqeyi bu regionda münasibətlərin inteqrasiya və əməkdaşlıq zəminində qurulmasına hesablanmışdır. Gürcüstanın da mövqeləri aydın və şəffafdır. Ancaq Ermənistan tərəfdən yenə də silahlanmanı davam etdirmək meyillərini müşahidə edirik.

Xüsusən, HƏMAS–İsrail qarşıdurmasında maraqlı olan bəzi qüvvələrin Ermənistanla əməkdaşlığı suallar doğurur. Zənnimcə, biz bu dağıdıcı qüvvələrə qarşı çox ayıq olmalı və cəmiyyəti daim səfərbər etməliyik.

*Söhbəti qələmə aldılar:*
*Kəmalə ABDİNOVA,*
*Məsaim ABDULLAYEV*
*XQ*

İdman

# Azərbaycanın 2024-cü il idman paytaxtı – Quba

## Bu, bölgədə idmanın inkişafını daha da sürətləndirəcək

I yazı

**Zirvəsi yay-qış qarlı olan möhtəşəm Şahdağın ətəklərində, əsrarəngiz Qudyalçayın sahilində yerləşən gözəl Qubaya yağmış qar onun təbiətini daha füsunkar etmişdi. Yolumuz bu ecazkar məkana idi...**




Quba–Bakı şossesinin 4-cü kilometrliyində yerləşən Quba Olimpiya İdman Kompleksinə (OİK) istiqamət alırıq. Məqsədimiz bu bölgənin idman həyatını qələmə almaq, təəssüratlarımızı oxucularla bölüşməkdir. Axı bu günlər Azərbaycan idmanının ürəyi Qubada döyünməyə başlayıb. Qubanın 2024-cü il üçün idman paytaxtı seçilməsi bu gözəl diyar üçün əlamətdar hadisələrdən sayılır.

**Yol boyu bizi "təqib edən" velosipedçilərlə söhbət etmək fürsətini qaçırmırıq. Təxminən, 20–22 yaşlı gənclərlə maraqlı dialoq alınır. Məramımızdan xəbər tutan sakinlər çox sevinirlər. Çöhrəsi təbəssümlü, qonurgözlü, ucaboylu gənc deyir:**

– Qubanın İdman paytaxtı seçilməsindən ən çox təsirlənən, belə demək mümkünsə, qürur hissi keçirən biz sakinlər olduq. Böyüklü-kiçikli hamı inanır ki, rayonumuz bu il, sözün həqiqi mənasında, Azərbaycanın idman paytaxtına çevriləcək.

**Başqa bir velosipedçi də dostunun sözlərinə qüvvət verir:**

– İdman ruhumuza çox yaxındır. Obaşdan velosipedli, atlı gəncləri, eyni zamanda, yamaclarda xizək sürənləri, dəstə ilə yürüş edənləri görməyə artıq adət etmişik. Hələ onu demirik ki, nəinki mərkəzdə, əksər kəndlərimizdə də idmanın bir çox növü ilə məşğul olmaq mümkündür.

14 hektarlıq ərazini əhatə edən Quba Olimpiya İdman Kompleksindəyik. 1100 nəfər tamaşaçı tutumu olan universal zal, həmçinin güləş və cüdo, kikboks, karate, fitnes, bilyard, stolüstü tennis zalları, 6 min 600 nəfər tamaşaçı tutumlu "Arena Quba" futbol stadionu, ayrıca mini-futbol, basketbol, tennis və voleybol meydançaları, üzgüçülük hovuzu, şahmat və uşaq əyləncə mərkəzləri ilə tanış oluruq. Burada idmançıların hərtərəfli hazırlıq keçmələri üçün hər bir şərait yaradılıb. Eyni zamanda, istirahət mərkəzi kimi, geniş imkanlara malikdir.

**İdman Kompleksinin direktoru Cavid Seyidov ötən ilin sentyabrından idman qurğusunda 30-a yaxın təlim-məşq toplantısının, zona və regional yarışın, düşərgənin keçirildiyini bildirir:**

– Kompleks 15 idman növü üzrə məşqlərin keçirilməsi üçün lazımı avadanlıqlarla təchiz olunub. Ötən aylar ərzində təşkil olunmuş genişmiqyaslı tədbirlər sırasında Quba və Şimal regionu üçün xüsusi əhəmiyyəti olan bədii gimnastika üzrə 28-ci Azərbaycam birinciliyini, "İdman festivalı 2023"ü qeyd etmək olar. Qubanın idman paytaxtı seçilməsi rayonda idmanın inkişafına birbaşa təsir göstərəcəkdir. Bu prosesdə Quba OİK tam dəstək göstərəcək.

Kompleksin həyətində anası ilə gəzişən 7 yaşlı Banu şirin yerli ləhcədə bura stolüstü tennislə məşğul olmaq üçün gəldiyini deyir.

**Son illər rayonda komanda idman növlərinin kütləvi hal alması üçün yaradılan şərait xüsusi vurğulanmalıdır. Quba Rayon İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbinin (QRİOEUGİŞM) voleybol üzrə baş məşqçisi Vaqif Amani ilə söhbətimiz də bu mövzuda oldu. Voleybol üzrə 9–10 yaşdan yuxarı qızlar və oğlanlardan ibarət qruplarla məşq keçən mütəxəssis böyüklərdən ibarət komandanı da çalışdırır:**

– Qubalılar idmana çox bağlıdırlar. Pandemiya səbəbindən yarışların təşkilində boşluq yaranıb. Rayonumuzun İdman Paytaxtı statusu qazanması yerlərdə bu sahənin inkişafına əsl töhfə olacaq. Düşünürük ki, bu il Qubada turnirlər daha çox olacaq ki, bu da yarışlarda iştirakımız üçün geniş imkanlar yaradacaq. Ötən ilin dekabrında keçirilən zona birinciliyində oğlanlardan ibarət komanda I, qızlarımız isə III yeri tutublar.



**Qubanın Dağlı kəndindən Qələdüzə gedən yolda atletika üzrə 10-12 nəfərlik qrupla dözümlülük məşqləri keçən Vüqar Atayevlə tanış oluruq. V.Atayev Olimpiya Kompleksində məşqçi-müəllim kimi çalışır. O qeyd edir ki, atletika üzrə məşqlər, əsasən, Olimpiya İdman Kompleksində keçirilir. Bəzən xüsusi hərəkətlər, məsələn, dözümlülük məşqləri belə enişli-yoxuşlu yollarda təşkil edilir:**

– Qubanın idman paytaxtı seçilməsi üzərimizə böyük məsuliyyət qoyur. Ötən il atletika üzrə 2 turnir təşkil etmişiksə, bu il regional səviyyədə çoxsaylı və kütləvi yarışlar keçirməyi planlaşdırırıq. Bu il, həmçinin marafon yürüşünün təşkilini də düşünürük. Belə yarışlarda həm istedadlı idmançılar üzə çıxır, həm də uşaqlar arasında dostluq əlaqələri yaranır.

*Leyla QURBANOVA*
*XQ*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Obyektlər üzrə mövcud olan yanğın xəbərverici sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 29-u saat 17.00-dəkdir.Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə tələb olunan plastik boruların və fitinqlərin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 30-u saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1162.
Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 13 (30417) 23 yanvar 2024-cü il, çərşənbə axşamı

# Qadın boksçularımız: Serbiyada 7 medal

**Serbiyanın Sombor şəhərində qadın boksçular arasında keçirilən Millətlər kubokunda Azərbaycan yığması 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb.**



Məşqçi İlkin Ağayevin rəhbərlik etdiyi komandada Banuçiçək Nəsirli (46 kq) yeniyetmələr, Aynur Mikayılova (54 kq) və Emili Rzayeva (63 kq) gənclər arasında qalib adına yiyələnib. Böyüklərin yarışında Aynur Rzayeva (81 kq) ikinci yeri tutub. Digər boksçularımızdan Marjona Savriyeva (50 kq), Məhsəti Ağamaliyeva-Həmzəyeva (57 kq) və Şəhla Allahverdiyeva (66 kq) bürünc medala sahib olublar.

Yığmamız bu göstərici ilə komanda hesabında 3-cü yeri tutub. Emili Rzayeva isə öz yaş qrupunda ən yaxşı boksçu nominasiyasının qalibi olub.

Qeyd edək ki, Millətlər Kubokunda 10 ölkədən 102 boksçu mübarizə aparıb.

# Voleybol çempionatında X turun proqramı

**Qadın voleybolçular arasında Yüksək Liqada növbəti oyunlar keçiriləcək. Azərbaycan çempionatında X turun qarşılaşmaları yanvarın 23–25-də təşkil ediləcək.**



Belə ki, bu gün Gənclər və İdman Nazirliyinin (GİN) Voleybol Mərkəzində saat 17:00-da "Murov Az Terminal"–"Gəncə" klublarının qarşılaşması start götürəcək. Digər oyun isə "Milli Aviasiya Akademiyası" ilə UNEC komandaları arasında olacaq. Matç UNEC-in idman zalında saat 18:00-da başlayacaq.

Yanvarın 25-də "Abşeron" – "Azərreyl" matçı ilə (18:00) tura yekun vurulacaq.

# U-18 cüdo yarışı başa çatıb

**U-18 yeniyetmələr arasında Azərbaycan cüdo birinciliyinin komanda yarışlarına yekun vurulub. Yarışda 8 komandadan 72 idmançı medallar uğrunda mübarizə aparıb.**



Yekun nəticəyə görə, "Təhsil" Respublika İdman Mərkəzinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi (İOEUGİM) komanda yarışlarının kubokunu və qızıl medallarını qazanıb. Bakı şəhəri 13 nömrəli İOEUGİM-nin cüdoçuları 2-ci yeri tutub. Bakı şəhəri 13 nömrəli İOEUGİM 2 və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsi üçüncü yerləri bölüşüblər.

***Leyla SABİRQIZI***
***XQ***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Biz öz haqqımızı geri qaytardıq
Polad kimi qəhrəman...
Zəfər zirvəsinə ucalan bayrağım!
Liderə xalqa söykənəndə

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

Texnologiya



# Daha yığcam planşet

***"Lenovo" şirkəti yeni "Tab K11" planşetini təqdim edib. Bu barədə şirkətin saytında məlumat yerləşdirilib.***

Yeni planşet 90 Hz-lik təsvir yenilənməsinə malikdir, 1920x1200 piksel keyfiyyətli 11 düym IPS LCD ekranla təchiz olunub, "MediaTek Helio G88" prosessoru vasitəsilə çalışır və özündə 4 GB RAM ilə 64 GB daxili yaddaş həcmini birləşdirir.

Cihazın, həmçinin, 8 MP-lik arxa və ön kameraları, səsgücləndiricilər və naqilli qulaqlıqlar üçün nəzərdə tutulmuş 3.5 mm-lik audiogirişi var. O, 15 vatt gücündə sürətli şarj texnologiyalı 7040 mAh enerji tutumlu batareya ilə təchiz olunub. Planşet "Android 13" əməliyyat sistemi ilə çalışır.

Şirkətin məlumatında qeyd olunub ki, yeni planşet yaxın zamanda Yaponiyada satışa çıxarılacaq. Amma satış qiyməti barəsində məlumat verilməyib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

23 Yanvar Beynəlxalq Əlyazma Günüdür

# Əlin qələm – sinən dəftər...

Ən yaxın keçmişdə ağappaq vərəq üzərində muncuq kimi düzülən sətirləri görəndə deyərdilər:

– Ay maşallah! Nə gözəl xəttin var!

Gözəl xətt, az qala, onun sahibinin savad və bilik səviyyəsinin bir göstəricisi kim qəbul edilirdi.

Əbəs yerə deyil ki, insanın xəttinə əsasən, onun xarakter və xasiyyətini müəyyən edən qrafologiya elmi var. Kriminalistikada anonim şikayət və məktubların araşdırılması ilə məşğul olan mütəxəssislər var. Orta məktəbin aşağı siniflərində isə səliqəli və düzgün yazmaq üçün hüsnxətt öyrədilirdi.

Hər il yanvarın 23-ü dünyada Əlyazma Günü kimi qeyd edilir. Əllə yazılan mətn onun müəllifinin daxili dünyasından, hiss və duyğularından soraq verən informasiyadır.

Antik və intibah dövrlərdə yazılanlar məhz əlyazma şəklində bu günə gəlib çıxıb. Rusiyada inqilabçıların, mütəfəkkirlərin, yazıçı və şairlərin çoxlu yazışmaları var və onların fəaliyyətinin böyük bir hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatında C.Cabbarlının Sona xanıma, M.Müşfiqin Dilbər xanıma, H.Cavidin ailə üzvlərinə məktubları məşhurdur.

Mütəxəssislərin qənaətinə görə, əl yazısı və xəttin gözəlliyin, sağlamlığın qorunmasına və ömrün uzanmasına kömək edir. Məsələn, xəttatlığın geniş tətbiq olunduğu Yaponiya və Çində yazının müalicə üçün tətbiq olunmasının mümkünlüyü üzərində araşdırma aparılır. Vaxtilə Pekin Qrafik Kommunikasiya İnstitutunda aparılan araşdırmaya görə, gözəl xəttə malik tələbələr daha sağlam və perspektivli olurlar. Həmin institutda aparılan tədqiqatlar nəticəsində böyük xəttatların çoxunun uzunömürlü olduğu müəyyən edilib.



Elmi-texniki tərəqqi, müasir innovativ texnologiyalar çox şeyi arxa plana keçirib. Son illər müxtəlif mobil qurğular və qadjetlərin, elektron yazışmaların həyatımıza daxil olması ilə əlaqədar oilaraq əllə yazışmalardan, demək olar ki, istifadə olunmur. Qeyd etmək xoşdur ki, 2020-ci ildə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Heydər



Əliyev Fondu və Müdafiə Nazirliyinin dəstəyi ilə gerçəkləşdirilən "Əsgərə salam" hərbi-vətənpərvərlik sosial layihəsi bu sahədə çox faydalı bir iş oldu.

Orta məktəblərdə şagirdlər arasında dostluq yazışmaları, ailələrə böyük sevinc bəxş edən əsgər məktubları, sevgi məktubları...Təəssüf ki, bunların hamısı arxada qalıb. İndi küçələrdə poçt qutuları, mənzillərdə poçt üçün, o cümlədən məktub üçün ayrılan guşələr də çox nadir hallarda gözə dəyir.

Hətta təsəvvür etmək də çətindir ki, kimsə ağ vərəq üzərində yazmağa başlasın: "Əvvəla, salam! Salamdan sonra zəhmət çəkib biz tərəfin əhvalı ilə tanış olmaq istəsən..."

Böyük Səməd Vurğun isə yazı barədə dahiyanəliklə deyib:

***Əlin qələm – sinən dəftər,***
***De gəlsin hər nəyin vardır,***
***Deyilən söz yadigardır.***

***Süleyman HACIYEV***

Sağlamlıq

# Kalsium – ürəyin sümüyü

**Los-Anceles Sağlamlıq İnstitutunun alimləri müəyyən ediblər ki, kalsiumun təkcə sümük və dişlərin yox, ürək və damarların da sağlamlığında rolu böyükdür.**

Tədqiqatlar göstərib ki, qəfil ürək dayanması yaşayan xəstələrin 70 faizinin əvvəllər ürək ilə bağlı problemi olmayıb. Buna görə də tibb sahəsində bu müəmmanın sirrini açmağa çalışırlar.

Alimlər araşdırmalar zamanı infarkt keçirən 267 nəfəri təhlil ediblər. Qəfil infarkt keçirən xəstələrin əksəriyyətinin qanında kalsiumun səviyyəsinin çox aşağı olduğu məlum olub.

Xəstələrdən ürək tutmasına, təxminən, 90 gün qalmış analizlər götürülüb. Bu pasiyentlərdə qan zülalında kalsium normadan aşağı olub. Bu



defisitə diabet, ağciyər və böyrək xəstələrində daha çox rast gəlinib.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava



# Gün küləkli keçəcək, yağıntılı və dumanlı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 23-də Bakıda və Abşeron yarımadasında arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə sulu qara, qara keçəcəyi ehtimalı var.***

Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə və gündüz 1-4° isti olacaq. Atmosfer təzyiqi normadan yuxarı 774 mm civə sütunu olacaq, nisbi rütubət 75-85 % olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-5° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Dağlıq və dağətəyi ərazilərdə gecə və səhər yolların buz bağlama ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

Hadisə

# ABŞ-da ölümsaçan soyuqlar…



***ABŞ-da kəskin hava şəraiti son bir həftə ərzində, azı, 80 nəfərin ölümünə səbəb olub. Bu barədə "Associated Press" agentliyi məlumat yayıb.***

Bildirilir ki, Tennessidə 25, Oreqonda, ən azı, 16 nəfər, o cümlədən üç nəfər ağacın üzərinə aşdığı avtomobildə həlak olub.

Soyuq, güclü külək, qar və buzlu hava səbəbindən ölüm halları İllinoys, Pensilvaniya, Missisipi, Vaşinqton, Kentukki, Viskonsin, Nyu-York və Nyu-Cersi ştatlarında da qeydə alınıb.

***AYTƏN***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin tibbi mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları kafedranın professoru Mehman Əliyevə qardaşı

**ASİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3238
SİFARİŞ 148
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00